ULDUZ

№12 (631)

WWW.AZYB.AZ
WWW.AYB.AZ

AYLIQ ƏDƏBİYYAT DƏRGİSİ DEKABR 2021

- Əsəd Qaraqaplan: özüylə söhbəti və şeirləri
- F.M. Dostoyevskinin 200 illiyinə
- Ədəbiyyat üzrə Nobel mükafatı laureatları
- Qürbət yazıları
- "Qaraçuxa"nın bəyaz edelveysi
- Emin Pirinin "Müharibə gündəliyi"
- Ustad dərsləri

BU SAYIMIZDA

3
Əsəd QARAQAPLAN
özüylə söhbəti
və şeirləri



11
qısa fikirlər
xəzinəsi

15
Bahəddin SALMAN
Özünü
doğan adam

22
Əsmər
HÜSEYN XAN
Keçən günə
peşmanam

"Qaraçuxa"nın
bəyaz edelveysi **24**

30
Ramil MƏRZİLİ
Bir az
darıxmaq...

34
Ədəbiyyat
üzrə Nobel
mükafatı
laureatları

39
Bəsti ƏLİBƏYLİ
Kamranın
hekayəsi



42
Yavər HƏSƏN
Təki ürək olsun...

44
Fərqanə YUSİFQIZI
Üşüyəcək sevgimiz...

KENDZABURO OE
Məğlublar
46

49
Əli ƏMİRLİ
Ustad dərsləri



Rəşid FAXRALI
Nə gözəl durulaşıb Həkərinin suları!
52

61
Fidan MALİK
Qəfil qonaq

62
Təranə DƏMİR
Yer Axtarışı

66
Çingiz ABDULLAYEV
Təsadüf

69
Nadir ƏZHƏRİ
"İsanın qadını" və qadın ifadəsinin keyfiyyəti

77
Emin PİRİ
Dərgidə kitab

Təsisçilər:
Azərbaycan Yazıçılar Birliyi və "Ulduz" jurnalının kollektivi

Baş redaktor
Qulu Ağsəs

Redaksiya heyəti
Təranə Vahid
(Baş redaktor müavini)
Hicran Hüseynova
(şöbə redaktoru)
Dayandur Sevgin
(şöbə redaktoru)
Taleh Mansur
(şöbə redaktoru)
Həyat Şəmi
Elçin Mirzəbəyli
Xəyal Rza
Səhər Əhməd
Xanəmir
Rəsmiyyə Sabir
Elxan Yurdoğlu
Nuranə Nur
Anar Amin
Elmar Vüqarlı
Ələmdar Cabbarlı
Qılman İman
Hafiz Hacxalıl
Cavid Zeynallı
Məshəti Musa
Elşən Əzim
Nargis
Şəfa Vəli
Şahanə Müşfiq
Allahşükür Ağa
Türkan Turan
Ulucay Akif
Seyfəddin Altaylı
(Türkiyə)
Xaqani Qayıblı
(Estoniya)
Baloğlan Cəlil
(Başqırdıstan)
Saodat Muxammadova
(Özbəkistan)
Nilufər Şıxlı
(Moskva)
Günay Səma Şirvan
(Voronej)

Bədii redaktor
Ədalət Həsən

Ünvanı: AZ1000, Bakı, Xaqani küçəsi, 25
ulduz_dergisi@mail.ru
www.ayb.az
Telefon: 498-72-43
Çapa imzalanıb: 19.11.2021
"Ulduz" jurnalı redaksiyasında yığılıb, səhifələnib.
"ASPOLİQRAF LTD" MMC-də çap olunub.
Sifariş № 302, Tiraj: 300
Qiyməti: 2 man.
1967-ci ildən çıxır.
Şəhadətnamə № 238

"AZƏRMƏTBUATYAYIMI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

"Ulduz" jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "Mətbuatyayımı" şöbələrinə müraciət etməyiniz kifayətdir.

"QAYA" MƏTBUAT YAYIMI

"Ulduz" jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "QAYA" mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

"KİTABEVİM.AZ"

"Ulduz" jurnalını burdan əldə edə bilərsiniz.

Jurnalın

1 aylıq abunə qiyməti – 2.00 man.

6 aylıq abunə qiyməti – 12.00 man.

Bakı şəhərində abunə yazılmaq istəyənlər:

441-19-91 **440-16-26**	**566-77-80**	**498 – 79 – 89**

nömrəli telefonlara zəng edə bilərlər.

ISNN 0134-522 İNDEKS AZ 1000 2 AZN

Özrüylə söhbəti

Əsəd QARAQAPLAN

Üç ay qabaq 36 yaşım oldu. Əsl karyeranı (futbolçular kimi) bitirəsi yaşdır...

Son vaxtlar hiss edirəm ki, nəsə məişətləşmişəm. Yaşdan belədir, ya gündəlik həyatın və ötəri qayğıların gətirdiyi ehtiyacdandır, bilmirəm. Ancaq bildiyim bir şey var ki, mən yaxşı şairəm. Bax ilk dəfə bunu özüm haqqında deyirəm, kimsə başqa yerə yozmasın. Niyə deyirəm, onu da yazacam. Bəlkə, çox gözəl və anlaşılan, hamının feyziyab olduğu çox şeirim yoxdur, amma elə şeylər var ki, tam səmimi deyim, zaman-zaman özümü belə heyrətləndirir.

Hər şeydən öncə buna sevinirəm ki, bu illəri çalışdığım qədər azad yaşadım, hətta nə qədər mümkünsə. Hətta yenə bir az irəli gedib deyim ki, həm də hər kəsdən daha çox azad.

Bəli, səhvlərim də oldu, düzlərim də. Bunlara heç baş vurmayacam. Bunlar haqda danışılmaz. Danışanları da anlamıram. Buraxın, nədirsə, o olsun, nəsinizsə, o olun...

Azadlıq demişkən, məncə, bu, seçim deyil, sadəcə, belə olduğundan ya olur, ya da olmur. Belə deyək də, məsələn, mən azadlıq istəyən adamları anlamıram, ya da tələb eləyənləri. Zatən o başqa yerdə deyil ki, səndədir. Səndə olanı necə gedib başqa yerdə istəyə, ya axtara bilərsən ki?! Hə, iqtisadi azadlıq deyirsənsə, hamımızın bəlası olan, o başqa. Amma ona azadlıq da demək olmaz, adı üstündə, iqtisadi azadlıq. Ümumiyyətlə, bir şeyin içində pul kimi bir şey varsa, o heç azadlıq da deyil. Nə isə, bunu da bir kənara qoyaq...

Şeir demişkən, özümü tərifləmişkən, qoy bir neçə şey də deyim, həm aydın olsun, həm də deyilməmiş qalmasın. Mən yaxşı şairəm deyəndə həm də onu deyirəm ki, yaxşı şair həm yaxşı oxucu, həm yaxşı musiqi zövqü olan və s.-dir. Tam demək istədiyim də bu deyil, əslində. Yaxşı şair həm də təpədən-dırnağa şair olandır. İçində olandır hər şey. Sevə biləndir – nə qədər şablon səslənsə də. Başı çox az dünya işinə qarışan, ruhu – yenə şablon səslənsə də – hər zaman göylərdə olandır. Çünki şeir (ümumilikdə ciddi sənət) bu dünyadan deyil. Bu dünyaya hardansa başqa yerdən gəldiyinə əminəm. Onu burda tutub saxlamaq da olmur. Gözəl şeir həmişə başqa yerdə olur, başqa dünyada, başqa-başqa yerlərdə. Və ən qəribəsi, məncə, şeir bu dünyanın mizanını qoruyur.

Bəlkə, bir şeir yazılar, çoxları heç oxumaz, varlığından xəbərdar olmaz, gizli qalar. Amma o, sadəcə bu deyil, o həm də başqa bir şeydir – dünyada başqa missiyada – onu qorumaqda. Bəlkə, bir çox dağıntının, müharibənin qarışısını alan, bəlkə, bir çox insanları gizlicə qovuşduran, dünyaya gizli və səssicə gözəllik yayan da şeirdir.

Bəlkə, elə orda sənsən şeir, sənin xoşbəxtliyindir. Sənin səbəbini bilmədiyin sevincin, içinin rahatlığı və gözlərini dolduran, ürəyini boşaldan da şeirdir...

Məncə, bunları bilərək, hiss edərək şeir yazmaq başqa cür şair olmaqdır, ya da başqa cür insan olmaq. Başqa cür düşüncəylə yanaşmaq həyata, başqa cür yaşamaqdır...

İnanın mənə, nə qədər ideal olursuz-olun, adamlar onsuz da sizdə yenə bir yanlış şeylər ta-

pacaq, sizi özləri kimi görmək üçün. Ona görə çox da fikir verməyin və başını buraxın. Bir də tarana getməkdən qorxmayın, içinizdə ən gözəl şeylər, bəlkə, tarana getmədən üzə çıxmaz, əmin olun.

Kim ölür-ölsün, bu dünyada yaşayan tək sənətdir. Mənə görə, sənət də yox, sənətin fövqündə olan şeirdir.

Bəlkə, şeir son dönəmlərdə lağlağı yeri olub, amma bu dünyada şeirdən ciddi nəsə yoxdur, şeirin gözəlləşdirmədiyi nəsə. Hər şeyi şeir yaradır desəm belə, yanılmadığımı düşünürəm. O qədər yəni. Bunun üçün ətrafınıza baxmaq kifayətdir, məncə...

Nə isə, çox uzatmayım. Mənim bu 36 ildə öyrəndiyim, gəldiyim qənaət bunlardır, yəni ən azı özəti budur...

Hə, sevdimmi? Çox sevdim. Yenə də sevirəmmi? Sevirəm. Həmişə də sevəcəm, əminəm. Hətta əninəm ki, mən öləndən sonra da sevəcəm, ən azı şeirlərimlə.

Bir gün biri bir şeirimi oxusa, ya da başqa birinin gözəl bir şeirini, mən yenə orda olacam. Orda durub, bəlkə, bir az fəxr edəcəm özümlə, sevinəcəm, kim bilir, bəlkə, sevincdən ağlayacam da – ölülər ağlaya bilirsə...

Nə isə, sizi çox sevirəm, amma şeiri sizdən də çox sevirəm. Çünki sizi mənə sevdirən də şeirdir, ən azı bu qədər sevdirən. Mən də şeiri bu qədər sevdiyim üçün özümü yaxşı şair hesab edirəm. Başqa heç nə...

və şeirləri...

BOHEM

yatağım elə dağınıq,
üç min ildir yığılmır.
bu boyda tənhalıqda
dünya niyə dağılmır?!

bilirəm ki, gələn gedir,
gedən də gəlmir, nə edim...
məni bu gözəl dünyadan
edən də gəlmir, nə edim...

bir az şeirə bağlıyam,
bir az da səndən asılı.
köynəyim də ipdə qalıb,
sərdiyin gündən – asılıb...

soyunub girmişəm evə,
içimi çölə atmışam.
mən yuduğun köynəyimi
geyinib gölə atmışam.

bir az sudan çıxıb gəldim,
bir az da tənhalıqlardan.
mən guya bir köynək uzaq,
bir köynək yaxınındaykən
uzaqdım ayrılıqlardan...

son məktubum da islanıb
köynəyimin sol cibində.
yenə dimdik, ayaqdayam
boğulub suyun dibində...

ÖZÜM KƏŞF ETDİYİM MUSİQİ VƏ QADINLAR

elə anlar olur ki, gözəl musiqi kimi
axıb gedir bu həyat
ölümə hazır olan içimdən…
elə qadınlar olur ki, acını musiqi ilə
daddırırlar ruhuma...

özüm kəşf etdiyim musiqi və qadınlar
həmişə ən çox sevdiyim musiqi və
qadınlardır...

bilirsən, hərdən mənə elə gəlir ki,
bu qədər gözəl həyat varkən,
ölümə daha çox yaxınam...
insanların içində elə bil doğuluşdan
ölümə maraqlı biri gizli,
acıya maraqlı biri gizli...

hərdən bütün çılpaqlığımla
görünmək istəyirəm insanlara,

gözlərim dolur hərdən böyük acılardan sonra
yeni xırda sevincləri görəndə...

bilirsən, yalnızlıq, əslində,
ölüm qorxusuyla həyatdan qaçıb
gizləndiyin otaqdakı təklikdən başqa
bir şey deyil.

bəzən hər şey göründüyü qədər dəhşətlidir,
bizsə onlara başqa don geyindiririk, əslində,
ölümə həyat donu,
həyata ölüm donu...
bilirsən, hər kəsin sonu,
əslində, yeni bir həyatla başlayır –
ayrılıqdan sonra axıb gedən musiqi kimi...

bəzən insan daha çox fatalistdir
həyatla ölüm arasında,
dindar olduğumu sanma,
amma bəzən mən də
gözlərim dolarcasına sarılıram
içimdəki inanca.

o inanc ki, bəzən məni ateistlərdən
daha çox ateist edir,
dindarlardan daha çox dindar edir...

o inanc ki, həmişə içimdə gizli-saxlı,
həmişə onu qorumuşam – kiçilməsin…

bilirsən, mən həmişə böyüməkdən
qorxmuşam,
başqa heç nə məni
içimdəki körpənin böyüməsi qədər
qorxutmayıb.

bəlkə də, bu üzdən
təklik mənimçün göründüyü qədər dəhşətlidir.
bəlkə də, bu üzdən
bütün çılpaqlığımla görünmək
istəyirəm insanlara…

bəlkə də, bu üzdən... sırf bu üzdən
özüm kəşf etdiyim musiqi və qadınlar
həmişə ən çox sevdiyim musiqi və
qadınlardır...

İÇİMİZ KİRLƏNİNCƏ ÜSTÜMÜZ KİRLƏNMƏLİ

söyün, lənətləyin məni,
nə desəniz, haqqınız var...
məncə, hər kəs bir az sərsəri olmalı,
bir az sərxoş, bir az çılğın, bir az dəli –
içimiz kirlənincə üstümüz kirlənməli...

nə deyə öz bildiyiniz,
daha doğrusu, heç bilə bilmədiyiniz
hər şeyə xoşbəxtlik deyir,
hər kəsin həyatının
bir düzəni olmalı, düşünürsünüz?!

bax sən, qadın,
ya da anam dediyim,
məni nə deyə doğmusan?!
öldürmyə?!

ya sən, atam?!
heç doğulmamış bir uşaq
haqqında xəyallar qurub,
onu da qurban etməyə
və böyüməmişdən ölüb çıxıb getməyə
kim sənə haqq verdi ki?!
səni haqlı gördü ki?!

artıq bir kərə olsun,
məni dinləmək zorunda olduğunuzu bilirəm,
bilirəm ki, bütün həyatım zəhrimar,
bütün sevdiklərimsə sevgimdən çox kiçikdir!..

bu da mənim sizə ən böyük hədiyyəm –
ən böyük tənhalığımdır
ən böyük tanrılığım...

söyün, lənətləyin məni!
nə desəniz, haqqınız var...
məncə, hər kəs bir az sərsəri olmalı,
bir az sərxoş, bir az çılğın, bir az dəli –
içimiz kirlənincə üstümüz kirlənməli...

QİRAƏTÇİ QIZIN MESAJ QUTUSUNA

ən yaxın dostum kirayə otağımdır,
ən çox sevdiyim insanlar – uşaqlar.
böyüdükcə böyüklərdən heç
böyüklük görmədim...

elə uşaq olmaq istəyirəm indi,
elə uşaq...
evimizlə dost olmaq,
həyətimizdə uşaqlarla oynamaq...

dünyadan küsdüyüm gün aşiq
olduğum gündür,
ona qədər heç bir gün görmədiyimi anlayıram.

böyüklərin kiçikliyi
onlara aşiq olduğumuzda daha
çox görünürmüş,
həyatın nə qədər soyuq,
ölümün nə qədər isti.
heç bir insanın içi torpağın altı qədər
rahat deyilmiş, demə...

heç bir şeyi olmayan insanların böyümək
şansı yoxmuş,
ölmək şansları belə şansa qalır çox zaman.
mən artıq ölməkdən çox yaşamaqdan
qorxuram
və ölülərin daha çox
sevdiyi bir dünyada yaşamaqdan darıxıram.

özümü saxlayıram ki, anamdan sonra
öldürüm;
o üzülməsin mənim ölümümə...

elə yorğun düşmüşəm ki, güclü qolların belə
zəiflik olduğunu qəbul edəcəm hardasa.
oysa mən nəyi çox sevdim, ən çox ondan
yoruldum –
nəsə öyrənməyə başlayanda dəli oldum.

sənsə, heç bilmirsən, sənsə
dediyin şeirlərdə şairlərin necə yox olduğunu.
və bir şeir şairin varlığı deyil, əslində,
yoxluğudur.

adamlar şeirləri ona görə sevir ki,
bir şeirin varlığı bir şairin yoxluğudur, əslində.

və bir şeirin nə boyda yoxluqdan gəldiyini
bilmək üçün
mütləq şair olmalısan
həm də elə-belə deyil,
hər şeirdə yox olan şair.

boşluqlara yazılmış şeirlərdir sizə
dolu görünən,
ağrılar boşluqların doluluğu
və sevgilər yox olmağın başlanğıcı...

özümü saxlayıram ki, anamdan
sonra öldürüm;
o üzülməsin mənim ölümümə...

bir şeirin bir şairin yoxluğu olduğu, dost,
o şairin o şeiri yazanda
susqunluğundan bilinir,
bir şair heç vaxt bağıra-bağıra yazmaz şeiri,
çünki o bilməsə belə, sən bilirsən,
hər şeirdə yox olur...

mən də ən çox şeiri sevdim –
və mən də ən çox yox oldum...

özümü saxlayıram ki, anamdan
sonra öldürüm;
o üzülməsin mənim ölümümə...

DÜNYA TƏNHALIQ DÖVRÜNÜ YAŞAYIR

bir bayquş dərə dibindən ulayır üzüyuxarı,
bir pişik qapını açıb içəri girmək istəyir...
mən indi qaranlığı yarıb girmişəm otağa,
sobanın yanına çöküb
itimizin ulduzlara hürdüyünü eşidirəm...
içimdə bir qorxu məni böyütməklə məşğuldur
ətrafımda, sadəcə, bir misralıq yer qalıb:
dünya tənhalıq dövrünü yaşayır...

balıqlar suya həbs olunmuş,
quşlar göyə,
ağaclar torpaqdan qaçır köklərilə,
bahar çəmənlərinə gül şəklində nöqtə
qoyub təbiət,
hava aydınlanmaq üçün dağlara yaxınlaşır,
bir balıqçı adamların arasında evinə tərəf
yol gedir,
onu eyvanda bir cüt yaşlı baxış qarşılayır;
dünya tənhalıq dövrünü yaşayır...

dünyaya sevgi şəklində səpələnmiş qadınlar var:
kimi daha çox uzaqda,
kimi bir az daha uzaq,
kimi sevginin var olan ən qərib yox halındadır,
kimi soyuqluğun gözəllik halında...
ürək şəklində çevrənin qırılmış incə yerində
dünya tənhalıq dövrünü yaşayır...

başımı qundaq kimi qoynuma sıxıb yatmışam,
bir uşaq çıxıb içimdən yuvarlanır çəmənə,
gecəsi olmayan gündüz dolaşır ayaqlarına,
qaçır üzü günbatana - günəşi tutub saxlasın –
yuxudan oyanmamışdan həyatı işıqlı görsün...

səhər qardaşımın kiçik oğlu məni qucaqlayır –
dünya tənhalıq dövrünü yaşayır...

LİMON SARISI SEVGİ

limon qabığıydı sevgi sonralar –
saralıb bir yerdə ölə bilirdik.
ən ağır günlərdən, ən pis anlardan
yenə bir-birinə gələ bilirdik.

sən məni sevirdin, mən də, nə bilim,
səninlə barabər başqa birini.
hər kəs sən idi e, hər kəs sən idin,
heç kim verəmmirdi sənin yerini.

mən dəli adamam, bunu bilirsən,
ruhum da eləcə limon sarısı.
səni ürəyimin ən dərininə
sıxmışam, gömmüşəm gecəyarısı.

məni bilirsən də, nə deyim başqa,
hər kəsin dərdinə üzülən biri.
bircə sən olanda, sənin yanında
ürəyi açılan, çözülən biri...

səni and verirəm limona, dinlə:
bu gecə amansız xoşbəxt biriyəm.
sarı saçlarına qurban olaram,
məni bir az yaşat, məni... diriyəm...

BİR TARİXÇƏSİ VAR HƏR AYRILIĞIN

bir tarixçəsi var hər ayrılığın:
ya bir yağışlı gündə,
ya bir günəşli səhər,
ya da gecə yarısı...

atamın ölümü də ayrılıqdı son mənzilə –
on doqquz sentyabr... on doqquz sentyabr...
payıza bir gün qalmış gələr ayrılıqlar,
sənsə yaz gəlmədən getmək istəyirsən.
ya bir yağışlı gündə,
ya bir günəşli səhər,
ya da gecə yarısı...

Bakının rüzgarları dağıtmış divarları,
sizin ev bizim evdi,
bizim küçə sizin küçə,
gediləsi bütün yollar bərabərdi...
...amma sən mənim deyilsən!
ya bir yağışlı gündə,
ya bir günəşli səhər,
ya da gecə yarısı...

əl sallasaq gecəni daşıyan qaranlığa,
ah çəkib yata bilməsək bərabərcə,
yağış damlaları döysə pəncərəni səhərəcən,
sizin ev körpə nəfəsli,
mənimki təklik qoxuyan –
xatırlaya bilməsək, nə zaman ayrılmışıq...
ya bir yağışlı gündə,
ya bir günəşli səhər,
ya da gecə yarısı...

durub baxsaq aynadakı üzümüzə,
bir qırış da artıb onda – düşünsək,
bir gecə də qaranlıqda yol gedirsə sabaha,
əllərimizi qoynumuzda çarpazlasaq,
durub dinləsək yağışı hüzursuzca.
qayıtmağa yol qalmasa geriyə,
çıxıb getsək uzaqlara – çıxıb getsək,
sadəcə, sevə bilsək – sadəcə, sevsək – deyirəm
ya bir yağışlı gündə,
ya bir günəşli səhər,
ya da gecə yarısı...

VAQİF SƏMƏDOĞLU ÜÇÜN

bir şeirə hamiləyəm,
nə vaxt doğacam, bilmirəm.
ya doğub rahatlayacam,
ya da boğacam, bilmirəm.

o gün bir şair öldü,
mən də bir az ölüb getdim.
indi bilmirəm ya daşam,
ya da ağacam, bilmirəm.

nə doğacam – günü gəlsə,
ölüm də bir gün gələcək.
bu dünyaya sığmayanda
nəyə sığacam, bilmirəm.

keçəcəm, keçib gedəcəm,
içəcəm, içib gedəcəm.
biryolluq köçüb gedəcəm...

ölüm – uşaqlığın sonu,
qocalığın başlanğıcı.
mən doğduğum o şeirdən
sağ çıxacammı, bilmirəm...

AND OLSUN GECƏYƏ...

səni sevməyəcək qədər günahkaram,
and olsun gecəyə.
and olsun bu qaranlığa,
mən gecələr adam olmağı öyrəndim,
mən gecələr – adam olmayanda...

böyük işıqlar doğuram gecənin zülmətində,
heç qadınlar görmədim məni tərk etməyəcək.
havalı ruhum məni həyata enməyə qoymaz,
bu daş döşəli Bakının küçələri,
bu ruhsuz evlər şəhəri işıqlarda
məni daha çox sevər – adam olmayanda…

səni sevməyəcək qədər günahkaram,
and olsun kitaba,
and olsun bu ağ kağıza,
məni Bakının içindən çəkib gətirir bura...
Quran oxuyuram hərdən,
hərdən şeir yazıram...
adamlar gözlərimə baxanda adam bilir,

əl verib görüşür mənlə adamlar.
mənsə qorxa-qorxa gəzib qayıdıram otağıma,
bu gün də sirr açılmadı – şükr edirəm.
yazmadığım şeirləri gəzdirirəm...
sənsə heç bilmirsən, sənsə...
bu tənhalıq Tanrı sevgisindən böyük cəzadı...

səni sevməyəcək qədər günahkaram,
and olsun Qurana,
and olsun uca Allaha...
mən hər dəfə açdığım hər sirdə bir az
sirlənirəm...
hər sevgi bir qadın boyda tənhalıqdı.
hər gün bir az böyüyürəm tənhalaşıb,
hər gün dəli olduğumu anlayıram.
hər gün bir az tanrılaşıb...

ahımı Bakı küləyi alıb çırpır küçələrə,
qadınlar keçir ahımdan.
tanımadığım sifətlərdə ahımı görüb dururam,
qadında ahımı sevirəm – Allahımdan...

od nəfəsim içimə çəkilsə gecə fənərində,
bir şeir yaxar gecənin zülmətini.
otaq nəfəs-nəfəs çökər yatağıma,
bir dərin yuxu aparar məni – qarma-qarışıq.
səhər şeirdən duraram tənhalığa...
gün yenə başlar gecəni gətirməyə,
gün yenə başlar gecəni…

and olsun gecəyə,
and olsun bu qaranlığa,
səni sevməyəcək qədər günahkaram…

NECƏ DEYİR GÖZƏL ŞAİR ƏLİ KƏRİM:

bir o bilirdi onu nə qədər sevdiyimi,
anlada bilmərəm sənə.
anlada bilməkçün sənə
ən azı səni onun qədər sevməliydim,
ondan qabaq rast gəlməliydim sənə.
ondan qabaq əllərindən tutmalı,
saçlarını oxşamalı,
gözlərinə baxmalı,
dodağından öpməliydim...

ondan qabaq sən hələ evlənməliydin,
bir az qadın olmalıydın, bir az uşaq.
bir az uşaq doğmalıydın,
bir az da ayrılmalıydın...

bir az çılğın – bir az dəli,
bir az da qayğılı həyat
səni endirməliydi keçdiyim küçələrə,
hərdən Quran oxuyub içdiyim gecələrə.
bir az kafir olmalıydın – bir az asi.
bir az dindar olmalıydın,
hər kəsin anlamayacağı qədər təmiz,
hər kəsin anlayacağı qədər murdar olmalıydın.

kişilərə nifrət etməliydin hələ,
qadınlara meyil etməli,
ailəni sevməməliydin.
ailən səni sevməməli,
məni də sevməməliydin,
heç vaxt məni sevməməli.
sənə bağlanmağımın səbəbi qəzəb olmalı,
nifrət etməliydim sənə – ən azı sevdiyim qədər,
hələ məni əclafa döndərməliydin,
əclaflara satmalıydın.
hər dəfə bir addım qala sevişməyə –
atmalıydın,
hələ məni Tanrı hesab etməliydin,
sonra Tanrıya dəyər vermək gücündə olmayıb
–
getməliydin...

bir o bilirdi onu nə qədər sevdiyimi...
indi bunun bir önəmi qalmayıb,
necə deyir gözəl şair Əli Kərim:
“bu adda, bu nişanda o növcavan cahanda
olmayıb... olmayıb... olmayıb...”

DOSTUMUZUN SEVGİLİSİ

dostumuzun sevgilisi dostumuzu tərk edəndə
bizi də tərk etmiş olur,
bunu bir kərə gördüm...

bir dostumun gözəl bir sevdiyi vardı –
o qədər gözəldi ki...
bütün çirkinlikləri içində gizlətmişdi...
dostumun yalnızlıq dövrü başlamışdı onu
sevəndən,
dostum onu sevəndən mənim yalnızlıq
dövrüm başlamışdı,

bunu necə anlayırsız-anlayın , mənə görə,
bu belədi...

bir neçə dəfə məclislərdə olmuşduq –
evlərində qonaq olmuşdum bir neçə dəfə.
gözüm heç su içməmişdi, düzün deyim,
bu gözəldən,
amma dostum vurulmuşdu...
bizə indi dostumuzun sevgisinə,
sevgisinin gətirdiyi yalnızlığa sayğı
duymaq qalırdı,
bunu necə anlayırsız-anlayın, mənə görə,
bu belədi...

bir kərə, heç unutmaram,
gecədən keçmişə qədər dostumgildə içmişdik,
dostum heç israr etməmiş qalmağıma,
sevgilisi etmişdi.
dostumun yox, dostumun sevgilisinin yox,
dostumun sevgisinin yox,
dostumun yalnızlığının xətrinə qalmamışdım.
nə niyyəti olduğunu bilməmişdim,
amma onda bircə şeyi anlamışdım –
dostumuzun sevgilisi dostumuzla bərabər
bizi də sevmiş olur,
bunu necə anlayırsız-anlayın, mənə görə,
bu belədi...

dostum bir gün sevgilisindən ayrıldığını
söylədi,
bunu bir neçə dəfə söyləmişdi əvvəllər,
yəni bir neçə dəfə ayrılmışdı sevdiyindən.
bu səfər də ciddiyə almamışdım dostumun
ayrılığın,
necə olsa, barışacaqlar, düşünmüşdüm.
amma bir gün – yəni bir neçə gün sonra
dostumun sevgilisiylə şəhərdə qarşılaşdım,
kimisə gözlədiyi uzaqdan bilinirdi,
bunu necə anlayırsız-anlayın, mənə görə,
bu beləydi...

yaxınlaşmaq istəmişdim – üzünü yana
çevirmişdi,
onda onun – dostumun sevgilisinin
məni də tərk etdiyini anlamışdım...

bunu heç vaxt dostuma söyləməmişdim
yeri gəldi, söylədim...

bir şey də söyləyim, amma
mənim də sevgilim bu gün dostlarımı
tərk elədi,
bunu da necə anlayırsız-anlayın, mənə görə,
bu belədi...

SONUNCU SEVGİ ŞEİRİ

bir qadın da sevmədik, ayrılaq, şeir yazaq,
bir qızla evlənmədik, çəkilək, xoşbəxt olaq.
bir evimiz olmadı kirayələrdən uzaq,
bir oğul böyütmədik, əsgərə yola salaq...

hər şey bizdən böyükdü, hər şey bizdən balaca,
ortalıqda qalmağın cəzası tənhalıqdı.
bunu da bu şeirin küncünə yaz, balaca,
– biz olan sevgilərin başında ayrılıqdı...

getdik, gördük atamız çoxdan ölüb... anamız
evimizlə bərabər qocalıb, əldən düşüb.
bacılar gəlin köçüb, evlənib qardaşımız,
həyət də ağaclardan, ağac da güldən düşüb...

hər şey saralıb-solub biz gedəndən şəhərə,
biz kirayə qalandan yetim qalıb uşaqlıq...
bəlkə, sevmədiyimiz bir qadından ötəri
ya çox böyük adamıq, ya da ki çox uşağıq...

bizi də böyütməyə gücü çatmaz şəhərin,
nə şəhərlər var bizim uşaq xəyalımızda...
bu böyük gecələrin açılmayan səhəri
bizi kim anlayacaq, bizi – bu halımızda...

bir oğul böyütmədik, əsgərə yola salaq...
bir evimiz olmadı kirayələrdən uzaq...
bir qızla evlənmədik, çəkilək, xoşbəxt olaq...
bir qadın da sevmədik, ayrılaq, şeir yazaq...

F.M. Dostoyevskinin 200 illiyinə

"DÜNYANI GÖZƏLLİK XİLAS EDƏCƏK"

Dostoyevski mənə hər bir mütəfəkkirdən, hətta Qaussdan da çox şey verir.

EYNŞTEYN

Dostoyevski bizə həyatı göstərmişdir, bu, doğrudur; amma onun məqsədi bizim diqqətimizi mənəvi varlığın sirrinə yönəltmək idi.

EYNŞTEYN

...1866–1880-ci illər ərzində Dostoyevskinin əsas fəlsəfi romanları – "Cinayət və cəza", "Sərsəm", "Cinlər", "Yeniyetmə", "Karamazov qardaşları" çapdan çıxdı. Nə baş verdiyini bəşəriyyət birdən-birə anlaya bilmədi. Dostoyevskinin romanlarının ilkin motivi belə idi: "Yer kürəsi qabığından özəyinə qədər göz yaşı içindədir..."

Dostoyevskinin romanları gecənin bağrını dələn dəhşətli qışqırıqdı və bu qışqırıqdan sonra hamı öz yuxusunu itirmişdi. Burada Yer kürəsinin bütün iniltiləri, işgəncələrə məruz qalan körpələrin hıçqırıqları, dərddən ağlını itirmiş adamların sayıqlamaları, qorxunc sərsəmlik ərəfəsindəki tələaşlı nidalar bir yerə çulğalaşmışdır. Bütün bunlar həm çulğalaşıb, həm də hər biri ayrı-ayrılıqda saxlanılıb və buna görə də biz dəlicəsinə fəryaddakı hər notu, körpə hönkürtüsündəki hər hıçqırtını fərqləndiririk. Bu, ağrı fəryadı, harmoniya yanğısı idi və insan mədəniyyəti tarixinə XX əsrə verilmiş sual kimi daxil olmuşdur.

...Dostoyevski qəhrəmanlarına xas olan öyrənmə və həlletmə ehtirası o qədər qüvvətlidir ki, onun qarşısında hər şey solğunlaşır: bu ehtiras qəhrəmanları şücaət və cinayətlərə sövq edir, Dostoyevskinin romanlarını isə macəra romanlarına çevirir... Dostoyevskinin əsərləri fəaliyyətlə doludur. Lakin bu fəaliyyət mahiyyətcə təcrübədir, əksər hallarda dəhşətli, qəddarcasına təcrübə.

...Dostoyevskinin qəhrəmanları fundamental fəlsəfi, dini və əxlaqi problemləri həll etməyə can atırlar; ...müəllif öz qəhrəmanlarını olduqca sərt və qeyri-adi hallarla qarşılaşdırır. Dostoyevskinin romanları dəhşətli və qəribə təcrübələr haqqında hesabatdır. Bu təcrübələr zamanı insanların ruhi aləminin dəhşətli, qəribə, paradoksal və həm də əvvəllər məlum olmayan, inandırıcı cəhətləri üzə çıxarılır... Dostoyevskinin romanları qəhrəmanların ruhi aləminin təkamülünü təsvir edən klassik əsərlərdən uzaqdır...

...Bizə Eynşteynin Merfi və Sallivenlə etdiyi söhbətdən bir qeyd məlumdur. Bu söhbət zamanı Salliven Dostoyevskini xatırlayır. Onun fikrincə, Dostoyevskinin məşğul olduğu əsas problem – əzab problemi idi. Eynşteyn belə cavab verir: "Sizinlə razı deyiləm... Dostoyevski bizə həyatı göstərmişdir, bu, doğrudur; amma onun məqsədi bizim diqqətimizi mənəvi varlığın sirrinə yönəltmək idi".

Bu replika Eynşteyn ideyaları ilə Dostoyevskinin obrazlarının ən əsas əlaqəsini işıqlandırır...

[Fraqmentlər B.Kuznetsovun "**Eynşteyn və Dostoyevski**" məqaləsindəndir. Tərcümə edən **Aydın Məmmədov**.
Mənbə: **A.Məmmədov**. ***Sözümüz eşidilənədək***.

Dostoyevski deyirdi...

Bakı, Yazıçı, 1988, s.210, 214, 221, 222, 233]

Öyrənin və oxuyun. Ciddi kitablar oxuyun. Qalanı həyatın işidir.

* * *

Don Kixot insan düşüncəsinin ən son və ən böyük sözü, insanın ifadə edə biləcəyi ən acı ironiyadır.

* * *

Ürək təmiz olmadıqca tam, düzgün düşüncə də olmayacaq.

* * *

Ağlıma sığdıra bilmirəm ki, necə ola bilər bir ağacın yanından ötəsən və onu gördüyün üçün özünü bəxtiyar sanmayasan.

* * *

Əsl həqiqət heç vaxt həqiqətə bənzəmir. Həqiqətə bənzər eləmək üçün gərək ona yalan qatasan. Adamlar, əslində, həmişə belə eləyiblər.

* * *

Həyatı mənasından daha çox sevmək gərək.

* * *

Günəşin bir tək şəfəqinin insan qəlbiylə nələr edə biləcəyi heyrətvericidir.

* * *

Əgər insanın ürəyini oxumaq istəyirsinizsə, susduğu, danışdığı, ağladığı, hətta yüksək ideyalardan həyəcanlandığı anlardan daşınıb, yaxşı olardı ki, ona güləndə baxasınız, güləndə...

* * *

İnsandan başqa hər şey təmiz və mükəmməldir.

* * *

Xalq ancaq sevdiyi insanı yadda saxlayır.

* * *

Yüksək amalsız nə insan, nə də millət ola bilər.

* * *

Əslində, hamımız bəxtiyarıq, fərqinə vara bilsək.

* * *

Başqaları üçün özünüzü unudun, o zaman sizi də xatırlayacaqlar.

* * *

İnsan oğlu çox dərin varlıqdır. Tanrı olsaydım, onu bir belə dərin yaratmazdım.

* * *

Bu dünyada ən çətin iş özünün özünə sadiq qalmağındır.

* * *

Məncə, şeytan deyilən, həqiqətən, yoxdursa, insan oğlu onu uydurubsa, elə özünə baxıb, özünü örnək alıb uydurubdur.

* * *

İnsanların ən çox qorxduğu – yeni bir addım atmaq, yeni söz söyləməkdir.

* * *

Böyük zəka və dərin ürək üçün ağrı-əzab qaçılmazdır. Həqiqətən, böyük insanlar Yer üzündə ən böyük də kədərə sahibdirlər.

* * *

Ağrı və kədər vicdan və geniş ürək üçün həmişə vacibdir.

* * *

Böyük düşüncələr böyük zəkadan daha çox böyük ürəyin məhsuludur.

* * *

Gözəllik harmoniyadır; əmin-amanlığın rəhni ondadır...

* * *

Sözlərimi yadda saxlayın: heç vaxt nə süjet, nə intriqa uydurmayın... Həyat xəyallarımızda uydurduqlarımızdan qat-qat zəngindir! Həyata sayğı göstərin...

* * *

Yalanı bir tək yaramazlar danışır.

* * *

Yalan danışa-danışa dünyanın o başına gedərsən, amma geri dönə bilməzsən.

* * *

Madam ki istəyirsən hörmətini saxlasınlar, ən əvvəl və başlıcası – özün özünə hörmət elə.

* * *

Mərhəmət duyğusu bütün bəşəriyyətin mövcudluğunun ən başlıca və ola da bilsin, yeganə qanunudur.

* * *

Həqiqətən sevən qəlbdə ya qısqanclıq sevgini öldürər, ya da sevgi qısqanclığı... ”

* * *

İnsan xoşbəxt olduğunu bilmədiyi üçün bədbəxt olur.

* * *

Hər şey haqda heç olmazsa bircə nəfərlə öz-özümlə danışırammış kimi danışmaq istəyirəm.

* * *

Yaddaşınızı umu-küsülərlə doldurmayın, yoxsa gözəl anlar üçün orada yer qalmaya bilər.

* * *

Mən hətta düşünürəm ki, insanın ən yaxşı tərifi belədir: iki ayaq üstə dayanan, yaxşılıq bilməz və nankor məxluq.

* * *

Hiss eləmişəm ki, darısqal mənzildə fikirlər üçün də darışlıqdır.

* * *

Bütün dünyanı məğlub etmək istəyirsənsə, özünə qalib gəl.

* * *

Biri gözlərini səndən qaçırırsa, əmin ol ki, o gözlərdə sənə aid nəsə var…

* * *

İçimdə ürəyim danışan zaman mən susmağı bacarmıram.

* * *

Kitab oxumağı tərgitmək elə düşünməyi tərgitmək deməkdir.

* * *

Rahatlıqla xoşbəxtlik olmur; xoşbəxtlik böyük əzablar bahasına qazanılan nemətdir.

* * *

İnsanı məhv etmək üçün çox şey lazım deyil; sadəcə, onu inandırmaq gərəkdir ki, gördüyü işin bir kimsəyə faydası yoxdur.

* * *

Əclaflar vicdanlı adamları sevirlər – bunu bilmirdinizmi?

* * *

Həqiqətən, böyük adamlar Yer üzündəki böyük kədəri hiss etməlidirlər.

* * *

Siz qızarırsınız, bu, gözəl qəlbin əlamətidir.

* * *

Axmaq olduğunu dərk edən kəs artıq axmaq deyil.

***

Sağlam düşüncəyə qarşı dayanmağı bacarmaq üçün, həqiqətən, böyük adam olmaq lazımdır.

* * *

İztirablar və göz yaşları – axı bunlar da həyatdır.

***

Yetkinlər bilmirlər ki, uşaq hətta ən çətin anda belə olduqca vacib məsləhət verə bilər. İlahi! Bu sevimli bala sizə elə sadəlövhcəsinə və xoşbəxtanə baxarkən onu aldatmağınız axı ayıbdır!

* * *

Bəlkə də, yanılıram, amma mənə elə gəlir ki, insanı gülüşündən tanımaq olar və qətiyyən tanımadıqlarınızdan birinin ilk görüşdə gülüşünü əgər bəyənibsinizsə, onda cəsarətlə deyin ki, bu, yaxşı insandır.

* * *

Nə ki yalanla başlayıb, yalanla da sona yetməlidir.

* * *

Məqsəddən məhrum və ümidini itirmiş bir insan çox vaxt sıxıntıdan qəddar canavara çevrilir.

* * *

Özümüz çarəsiz olduğumuz zaman başqalarının çarəsizliyini daha güclü hiss edirik.

* * *

İnsan təbiətən zalımdır və zülm etməyi sevir.

* * *

İnsan hər şeyə öyrəşən məxluqdur və düşünürəm ki, bu da elə onun ən yaxşı tərifidir.

* * *

Ah, dostum! Bədbəxtlik – yoluxucu xəstəlikdir. Zavallı və biçarə olanlar daha da çox yoluxmamaq üçün bir-birlərindən uzaq durmalıdırlar.

* * *

Göy üzü o qədər ulduzlu, o qədər aydın idi ki, baxınca istər-istəməz özündən soruşmalı olurdun: bu qədər pis insan belə gözəl səma altında necə yaşaya bilirdi?

* * *

Günəş olun, hər kəs də sizi görəcək.

* * *

Ürəyindən onun mənə verə biləcəyindən də artığını istəyə bilmərəm.

* * *

İnsanlar elə bir-birlərinə zülm vermək üçün də yaranıblar.

* * *

Bir heyvan əsla insan qədər zalım ola bilməz; bu ustalıqda, belə məharətli zalımlıq ancaq insanda olur.

* * *

Cəhənnəm insanın ürəyində sevginin bitdiyi yerdir.

* * *

Fəqət sevinc və səadət insanı gözəlləşdirir.

* * *

Əxlaqi məhrumiyyətlər bütün cismani əzablardan belə ağırdır.

* * *

Kimlər ki yaxşı danışmağı bacarır, onlar da qısa danışırlar.

* * *

Həqiqəti o adamlar dilə gətirirlər ki, itiağıllı deyillər.

* * *

Cəlladlıq indiki insanların hələ ana bətnində ikən az qala hər birinin təbiətində var.

* * *

İnsanlar əməlisaleh mömin bəndənin tənəzzülünü və rüsvay olmağını sevərlər.

* * *

Xatirələrin gözəl olanları da, kədərli olanları da insanı hüznləndirir.

* * *

Bəzən insanları iztirablarındakı bənzərlik qədər heç nə bir-birinə bağlamır.

* * *

Bir insanın ömür boyu ürəyinizdə yer eləməsi üçün bəzən bircə baxışı belə yetir.

* * *

Birlikdə heç gülmədiyin bir kimsəni həqiqətən sevə bilməzsən.

* * *

Mən mənimlə gözümün içinə baxaraq danışanları sevərəm!

* * *

Dünyanı gözəllik xilas edəcək

Tərcümə və tərtib edən:
Cəlal Məmmədov

Bahəddin SALMAN

ÖZÜNÜ DOĞAN ADAM

Doğulmaq, yaşamaq və ölmək. O necə doğulduğunu hiss etmir, insan kimi yaşamağı unudur və əzablar içində ölür.

J.Labrüer

O gecə bəzi şeylər qəfildən öz adiliyini pozdu. Əvvəl Fiday yaşayan küçənin, sonra başqa iki küçənin də işıqları söndü. O an payız bitdi, qış başladı. Külək necə əsdisə, binadakı bəzi mənzillərin yaxşı örtülməmiş pəncərələri çilik– çilik oldu. Pərdələr dil kimi çölə uzandı. Qulaqlarında zingildəyən və hardan gəldiyi məlum olmayan kilsə xorunun səsi azmış kimi, bu səsləri də eşidəndə Fidayın bədəninə qəribə bir xof düşdü.

– Axı bu nə həngamədir? – deyə öz-özünə pıçıldadı. Ardınca get-gedə zilə qalxan miyoltu eşitdi. Qaranlıq mənzili və həmin an az qala içindən çıxıb qaçmaq istədiyi bədəni ovsunlayıcı vahiməyə büründü. Eşitdiyi son səs qapı qonşusu, rus əsilli yetmiş səkkiz yaşlı Marinanın Peyzek adlı boğaz pişiyinin səsi idi. Marina iki gün əvvəl binanın blokunda qarşılaşarkən Fidaya təntənəli şəkildə belə demişdi:

– Mənim fərasətli qızım Peyzekin bu gün, ya sabah ana olacağını bilirsən?

Fiday onu zərrə qədər də sevindirməyən bu xəbəri süni təbəssümlə qarşılayıb, – Jaketinizi tərs üzünə geyinmisiz, Marina xala, – deyə pilləkənlərlə evə qalxmış və on il saxladığı ağ-qara rəngli Temza adlı ölmüş pişiyini xatırlayıb məyus olmuşdu.

– O, doğrudanmı, ləçər "qızının" doğduğundan xəbərsizdir?! – deyə düşündü. Kilsə xoruna qoşulan miyoltu yavaş-yavaş həngaməyə çevrilirdi. O özünü dəmir xaçı dişləri arasında sıxıb, caynaqları ilə insan sinəsini cırıb dağıdan və o xaçı həmin yerdə basdırmaq istəyən vəhşi pişiyin burnu üstündə hiss edir, onun fısıltılarını, nəfəs aldıqca burun dəliklərinin necə yığılıb-açıldığını xəyalına gətirirdi. Əllərini qulaqlarına sıxıb eyvana çıxdı. Başını yuxarıya qaldıranda bir anlıq duruxdu.

– İlahi, bismillah!!! – qorxudan, soyuqdan tir-tir əsdi, dişləri şaqqıltı ilə bir-birinə dəydi.

Sürətlə hərəkət edən buludlardan biri ağzı açıq, uzun, ağ saçları sağa-sola dağılmış, gözləri cadulu qadına bənzəyirdi. Qadının sağ əlini dişləri arasına almış canavarın gözləri Fidaya zillənmişdi. Onun ardından gələn bulud isə köpmüş qarnına ilanların darışdığı iri bədənli kişiyə bənzəyirdi. "Yəqin, ilanlar onu qarnından sancırlar!" deyə Fiday fikirləşdi. O biri tərəfdə üz cizgilərindən vasvası ciddilik süzülən gənc oğlan sağ əlində tutduğu, aydın görünməyən nəyinsə ucunu gicgahına söykəyərək, göy üzündə süzürdü. "Deyəsən, əlindəki tapançadır, bu dəqiqə özünü öldürəcək!" – deyə Fiday pıçıldadı və silahdan atəş açılacağını düşünüb gözlərini qıydı. Özündən asılı olmadan çılpaq ayaqlarının çox pis üşüdüyünü hiss edirdi. Qeyri– adi seyr halında olan gözlərini göydən ayırıb, ayaqlarına yönəltmək istəyirdi ki, başqa qorxulu mənzərə ilə rastlaşdı. Eyvanın önündə – parkın tən ortasındakı ağacın uzun, çılpaq budaqlarının altına tabut qoyulmuşdu. Tabutun kənarları öləziyən işıqla əhatələnmişdi, açıq qalmış orta hissəsi isə qaranlıq dərin quyunu xatırladırdı. Təxminən iki dəqiqə sonra arıq,

uzun bir adam közərən siqaretini sümürə-sümürə gəlib tabutun sağ tərəfində dayandı. Sonra aşağı əyildi, əlləri ilə tabutun kənarından yapışıb kədərlə ağlamağa başladı. Onun arabir sümürdüyü siqaretin közərtisində Fiday naməlum adamın burnunu görə bilirdi. Vaxt keçdikcə adamın öz-özü ilə danışığı da eşidildi. Fiday nə qədər çalışsa da, küləyin, Peyzekin, kilsə xorunun səsindən onun nə dediyini anlamadı.

– Eeeeeeh, rədd olun, uydurma gicbəsərlər! Rədd o-l...u...u...n!!! – deyə gözlərini tabutun önündə dayanmış adama zilləyib ikrah dolu qəzəblə bağırdı. Onun bağırtısı pişiyin səsi ilə üst-üstə düşdü.

Tabutun bir addımlığında dayanan naməlum adam zülmət gecədə küçəni ağuşuna alan bu bağırtının elə bil hardan gəldiyini əzbər bilirdi. Başını dikəldib baxışlarını səs gələn tərəfə yönəltdi. Onun bu hərəkətini görən Fiday cır səslə "Səni görüm zibilə qalasan!" deyə təngnəfəs halda otağa qaçdı. Bu dəfə çarpayının üstündə unutduğu mobil telefonun yanıb-sönən işığını gördü və qorxudan qışqırdı.

Ay Allaaaah! Axı sənin səsini nə vaxt batırmışam?! – əlləri əsə-əsə telefonu götürüb, "yes" düyməsinə basdı. Zəng edən Fəridə idi.

– Sən salamatsan? – qadın səmimi narahatlıq dolu səslə soruşdu.

– Başa düşmədim, nə demək istəyirsən?

– Sən niyə belə danışırsan?! Mən elə bildim, sən artıq ölmüsən! – qadın hönkürdü. Qəfildən zil səslə qışqır-bağır salan Peyzekin səsini eşitdi, ağlamağı dayandırıb, bir neçə saniyə qulaqlarını diqqətlə telefona şəkləyəndən sonra söhbətinə davam etdi:

– Sənin evindən uşaq səsi gəlir? Ay aman, sənin uşağın olub, hə?! Gözlə qaş arasında onu hansı küçədə qalmışdan qazandın?!

Peyzekin ah-fəğanı, doğrudan da, körpə səsinə bənzəyirdi. Qadının kinayə dolu sözləri davam etdikcə Peyzek də susmurdu.

– Ay Allah, uşağın səsi necə atasının səsinə oxşayır! Eyy, sən necə ikiüzlüsən?! Bəs deyirdin Uşaq kimi məsuliyyəti boynuna götürmək çiyinlərini qırar? Bəs çiyinlərin niyə qırılmayıb, ay oğraş, de görüm, niyə qırılmayıb?!

– Nə danışırsan e? Qulaq as, sən nəsə musiqi səsinə oxşayan səs eşidirsən? – buz kimi ayaqlarını bir-birinə sürtüb, dişləri ilə dodaqlarını həyəcandan gəmirməyə başladı.

– Hə, eşidirəm! Vicdanın çığırır ki, sən şərəfsizsən! Əgər sən ata olacaqdınsa, bu qələti mənnən niyə eləmədin, ay şərəfsiz?! Ah, özün də bilirdin ki, bizdən törəyən uşaq necə gözəl olacaqdı! Əgər uşağa görə səndən pul qoparacağımı düşünmüsənsə, sənin üzünə tüpürüm! Dayan görüm, düzün de, həm səndən doğduğu uşağa, həm də sənə baxa biləcək, səni pulla yemləyən imkanlısını tapmısan, hə?! – qışqırdı. – Sənin yolunda xərclədiyim pullar burnundan gəlsin! Ay Allah, sən bir cırcıramanın səsinə bax! Elə bil atasına söyüş, qarğış yağdırdığımı eşidib deyə, belə bağırır e! Get tez o əkdiyin yer almasının ağzını yum, yoxsa ərinməyib gələrəm ora, üçünüzü də... Dayan, dayan üçünüz demişkən, doğub atıb sənin üstünə, aylıq pul verir ki, uşağına baxasan? Heç o cırcıramanın səndən olduğuna əminsən? Səni aldadıblar, ay biqeyrət cəngavər! Elələrinə uşağının qanından olan ata yox, əfəlliyindən qapazaltı olan qoyun lazımdır. Bəs sən niyə mələmirsən, hə? Oy, bağışla! Gör bir mən nə danışıram e! Axı sən başı kəsilmiş qoyunsan, mələməyin Allahın yaradıcılığına ziddir.

– Qulaq as mənə...

– Asmayacam! Şərəfsiz!

– Onda cəhənnəm ol, dilotu yemiş ləçər!

Özünü heç cür ələ almağı bacarmayan qadının amansız ittihamlarından təngə gələrək, telefonu divara çırpdı. Otaq qaranlıq olduğundan bir neçə yerə bölünmüş telefonunun haralara düşdüyünü görmədi və çılpaq ayaqla qırıqların üstünə basıb, qorxuyla qışqırdı, özünü çarpayıya atdı. Əlləri ilə üşüyən ayaq barmaqlarını isitməyə başladı. Qəfildən kilsə xorunun, Peyzekin miyoltusunun kəsildiyini hiss etdi və qeyri-təbii dalğınlıqla gözlərini otağın pəncərəsindən göyə zillədi. Göy üzü ilə bağlı heç nə bayaqkı kimi deyildi. Əllərini ayaqlarından götürüb, üz-gözünü ovuşdurdu. Dərindən ah çəkdi. Su içmək üçün çarpayıdan qalxdı. Ayaqlarını ehtiyatla basaraq, otaqdan yenicə çıxmışdı ki, qapı döyüldü. Tərəddüdlə qapıya yaxınlaşdı.

– Kimdir?

İllərdir üst mərtəbədəki mənzildə yaşayan həm qonşusu, həm də yaxın dostu Fərrux idi.

– Deyəsən, evdə şamdan, çıraqdan heç nəyin yoxdur? – içəri daxil olan Fərrux qaranlıqda qapının kilidini axtarmağa çalışdı.

– Kilid vurmağa ehtiyac yoxdur. Gəl mətbəxə. Siqaretin var? – dostunun gəlişindən içinə xeyli rahatlıq çökən Fiday təmkinlə soruşdu.

– Hə, var. Elə indicə almışam.

Mətbəxə keçdilər. O həm üşüdüyündən, həm də mətbəxin işıqlanması üçün qazın dörd gözünü də yandırdı.

– Çay içəcəksən?

– Yox, çox sağ ol, – Fərrux siqaret qutusunu masaya qoydu, – bilirsən niyə gəlmişəm?

– Yox. – Fiday stəkana doldurduğu suyu başına çəkdi.

– Fəridə mənim yanımdadır! – gözləri ilə tavana işarə verib gülümsündü. – Kaş ki bayaqdan mənimlə necə sevişdiyini görəydin. Amma məsələ başqa cürdür. – Stula əyləşdi. – Sevişib qurtarandan sonra mənə sənin vəfasızlığından danışdı.

Fiday onun danışdıqlarına məhəl qoymayıb, masa əskisi ilə qazın üstünü silməyə girişdi. – Özümü qoydum gicliyə! Guya ki onun halına yanıram. Deyir, o mənimlə ancaq yataqda nəzakətlə davranırdı. Elə ki istəyinə çatdı, sifətindən zəhrimar tökülürdü! Mən ona evlənməyimizi, bütün bu haqq-hesaba özümüzə aid evimizdə davam eləməyi məsləhət görürdüm, amma o elə hey bu işlərə mənasız baxdığından danışırdı!. Adamın Allahı var, onu sevmədiyini, bundan o yana özünü zorlamayacağını lap başdan ona dediyini özü də boynuna aldı. Soruşdu ki, Fərrux, səncə, o mənə qarşı böyük səhv eləməyib? Qoydum özümü aktyorluğa. Cəld əynimi geyindim, səsimi əsdirə-əsdirə: "Bu saat yuxarı çıxıb, elə evindəcə o oğraşın payını verəcəm. Qoymaram sənin kimi qadının hissləri ilə bu cür oynasın!" – deyə siqaret almağa getdim, – qəhqəhə çəkdi. – A kişi, mən qapının ağzında ayaqqabılarımı geyinirəm, bu da başlayıb: "Qurban sənə, Fərrux, nə olar, mənə görə özünü zibilə salma!" Ha, ha, ha, ha. Necə bic qızdı... İstəyir ki, gəlib səni döyəm.

– Bic deyil, sadəcə, sənə inanıb! – Fiday əskini bir kənara fırladıb, masaya yaxınlaşdı, damağına siqaret qoydu və əllərini şalvarının ciblərinə sürtdü.

Çöldə bir quş həyəcanla sağa-sola uçurdu. Fərrux alışqanla onun siqaretini yandırıb, pərt halda təkrar stula əyləşdi. Dostunun Fəridənin tərəfini saxladığını düşünüb bir an susduqdan sonra zarafatla dedi:

– Hə də, sən onu daha yaxşı tanıyarsan! Qulaq as, səndən mənim bura gəldiyimi soruşsa, de ki, hə, gəlmişdi. Deyərsən ki, – başını qaşıyıb iki-üç saniyə bəhanə fikirləşdi, – hə, tapdım, deyərsən ki... "Fəridəni nə haqla incidirsən? " deyib, əclaf mənimlə yumruq davasına çıxdı. Canımı güc-bəlaynan qurtardım". Ha, ha, ha, ha... Məndə də qiyamət ideyalar var e... Görürsən?! Dediklərimi yaddan çıxarma, yaxşı?

– Aha. – Fiday barmaqları arasındakı siqareti sümürərək quşu izləyir, tez-tez geri dartınırdı. Buna səbəb quşun arabir onun pəncərəsinə yaxın uçub, həyəcanla geri qayıtması idi. Quş bunu elə sürətlə edirdi ki, elə bil dəli olub, ya da özünü bu saniyə pəncərəyə çırpacaq.

– Siqaret alandan sonra evə çıxacaqdım, amma dedim, gəlim səni də məsələdən xəbərdar edim. Baxma da, sabah onun ağzından nəsə eşidəndə çaş-baş qalmayasan.

"Bu quş zamanda azıb!" – Fiday fikirləşdi və siqaretin kötüyünü pəncərədəki dibçəyin torpağında söndürüb Fərruxa tərəf çevrildi:

– Ötüb keçənləri, ölən doğmalarını, ya da nə bilim, köhnələn hər şeyi yadına salmaq səni də incidir?

– Mən nə danışdım, bu nə cavab verdi! – Üzgözünü turşutdu – Yox, incitmir! Çünki xatırlamıram, – əllərini bir-birinə çırpdı. – Vəssəlam! – Fərrux cavab verdi.

– Amma mənim bir ilə yaxındı ki, halım hal deyil. Keçmişə ilişib qalmışam. Baxıram hamı, elə sənin özün də ancaq sabaha hazırlıq görürsünüz. Amma mən istəsəm də, bu cür edə bilmirəm. Keçmişə aid nə varsa, hamısını dərinliyinə kimi yada salıb, sonra da əzab çəkirəm. Qəribədir e, hər dəfə məktəbimizin yanından keçəndə nə sinif uşaqları, nə də bizə dərs deyən müəllimlər deyil, ancaq anam gəlir ağlıma. Hə, bir də kişi – atamı deyirəm. – Kədərlə gülümsünüb, söhbətinə davam etdi. – Sənə demişəm, ya yox, bilmirəm. İkinci sinifdə oxuyanda dərs qurtarandan sonra birinci mərtəbədə dayanıb kişini gözləyirdim. Qəribə səslər

eşitməyə başladım. Səsin arxasınca düşüb idman zalına qədər getdim. Səs basketbol topunun səsi imiş. Bu oyunla tanışlığım birinci dəfə onda oldu. Yuxarı sinif uşaqlarının hündür boyları, topun uzaqdan tora atılması çox xoşuma gəlmişdi. Sən demə, bir saatdır oturub onlara baxırmışam. Bərk acdığımı hiss eləyəndə kişinin niyə gecikdiyini fikirləşə-fikirləşə məktəbin həyətinə çıxdım. Yazıq kişi idman zalından başqa məktəbin hər tərəfində məni axtarırmış. Onu uzaqdan görən kimi sevincək maşınına tərəf qaçdım. Ona uşaqların oyunu haqqında həvəslə danışmaq istəyirdim. Amma o məni uzaqdan barmağı ilə hədələdi. Sonra da məktəbin darvazası ilə üzbəüz dayanan qaraj tərəfə qaçdı. Mən də təəccüblə onun hara qaçdığına baxa-baxa gəlib maşının yanına çatdım. – Çaynikdən özü üçün su süzdü. Su dolu stəkanın şəffaf üzündən quşa baxmağı da unutmadı. Quş elə bil sakit bir dənizin üstündə uçurdu. Sonra suyu başına çəkdi. – Sən demə, məni çırpmaq üçün ona nar ağacının möhkəm çubuğu lazım imiş. Qolumdan tutub, maşının arxa oturacağına itələdi, sonra da...

– Xəşilini çıxardı, hə? Ha, ha, ha...

– Hə, demək olar! – Fiday da kədərlə gülümsündü. – Əsəbi soyuyanda kişinin üzündə qəribə utancaqlıq gördüm. İndi fikirləşirsən ki, bu hardan yadına düşdü? Düşür də, nə bilim! İki gün əvvəl məktəbin darvazasının ağzında durmuşdum, – xəstəhal şəkildə stula əyləşdi. – Heç fikir verməmişəm, sən demə, nar ağacı çoxdan orda deyilmiş. Yerində kiçik mağaza tikiblər! – gözləri doldu. – Darvazaya söykənib ağladım...

– Burda ağlamalı nə var ki?

– Çünki ağac da yerində yoxuydu, başa düşürsən?! – üzünü qollarına yastılayıb, uca səslə ağlamağa başladı.

– Bəlkə, o çürüyübmüş, – Nə edəcəyini bilməyən Fərrux çaş nəzərlərlə ona yaxınlaşdı və əllərini onun çiyinlərinə toxundurdu. – Ya da ola bilər ki, bərk külək əsib, ağac da qırılıb. Hamı keçmişə aid nələrisə xatırlayanda kövrəlir, bu qədər ürəyinə salma! – sakit səslə dedi.

– Məsələ keçmişə aid nələrisə xatırlayıb kövrəlmək deyil! Hamı, hər şey zamanla buz parçası kimi əriyib gedir. Amma sən... – Fiday dikəldi və gözlərini Fərruxun gözlərinə zillədi. Bunu elə etdi ki, elə bil dünyanın ən günahkar adamı bu bir cüt gözdən çıxıb qaçacaqdı. – De görüm, heç uşaqlıqdan bizi öz evimizin qapısı ağzına, oradan da təkrar məhəlləyə daşıyan köhnə liftimizin bir gün təzəsi ilə əvəz olunacağını ağlından keçirmisən?!

– Onu elə başqasıyla dəyişsələr, yaxşıdır, əziz dost! – deyib qımışdı.

– Məncə, elə deyil. – xəyala daldı. – Məktəb vaxtı yeddinci mərtəbəyə aid yeddirəqəmli düyməni yandırıb əritməyimizi... bunu heç vaxt unutmamışam! Heç yaddan çıxara bilmirəm!

Fərrux sualedici nəzərlə Fidaya baxıb çiyinlərini çəkdi.

– Məncə, sən çox şeyi unutmamısan!

– Yadına düşmür?! – əlinin arxasıyla göz yaşını sildi.

Fərrux dinmədən başını yelləyib, stula əyləşdi.

– Hər dəfə barmaqlarımı yeddirəqəmli düyməyə toxunduranda dəmirə yapışmış, ərimiş damcılar məni dəhşətə gətirir. Elə bil o gün, o saniyələr, həmin vaxtda elədiyimiz şit zarafatların hamısı yeddirəqəmli düyməyə calaq olunub. Həmin düyməyə toxunanda liftin məni yeddinci mərtəbəyə yox, illər əvvələ – keçmişin titrəyən əllərinə tərəf apardığını hiss eləyirəm...

– Bəlkə, sabah gəlib mənim evimdə qalasan, hə? – Fərrux ayağa qalxıb qaza yaxınlaşdı, əllərini oda yaxın tutub, gözucu Fidayı süzdü. – Sənin üçün də dəyişiklik olar. Özü də, deyəsən, ancaq bizim rayonun işıqlarını keçiriblər, yəqin, səhərə yaxın yandırarlar. – dostundan cavab gəlmədiyini görüb, söhbəti dəyişmək üçün əlavə etdi. – Bayaqdan heç soruşmursan, sən heç bilirsən Fəridə nəyə görə mənnən yatır?

– Nəyə görə?

– Sənin acığına! – Fidaya sarı çevrilib qəh-qəhə çəkdi. – Ha, ha, ha...

– Sən fədakarlığa bax e! – acı-acı gülümsündü. – Özün yaxşı bilirsən ki, mənim onunla heç bir münasibətim qalmayıb. Əvvəllər biz ancaq seksə görə bir yerdəydik. Daha ondan da iyrənirəm – sol çiynini pəncərənin küncünə söykədi. Quş hələ də uçurdu. "Necə həyəcanla uçur! Görəsən, yorulmur? Lap kor adamlar kimidir, hələ onlardan da hissiyyatlıdır. Harasa dəyməmək üçün qanadlarında çubuq da

gəzdirmir, amma hiss edir... dəyəcəyi bütün təhlükələri hiss edir. Bəs mən kor olsaydım, ya da bu quşun yerində olsaydım?!" deyə fikirləşdi. Fərruxun nə danışdığını eşitmirdi. Gözlərini yumdu. Bir neçə saniyəlik də olsa, qaranlıqda həyəcanla uçan quşun nələr hiss elədiyini duymaq istədi. Hündür bir ağacın ən yüksək budağından özünü boşluğa buraxdı. Hara qonacağını bilmədi, çünki heç yeri görə bilmirdi, hər yer qaranlıq idi. Binalara, ağaclara, yanmayan işıq dirəklərinə dəyməmək üçün daha da hündürə qalxdı. Qalxdıqca küləyin daha güclü əsdiyini, qanadlarını zorla tərpətdiyini, uçmağın çətinliyini, öz naşılığını hiss elədi. Bir az da hündürə qalxmışdı ki, ayın gümüşü işığının səmanı necə sehrli bir nura bələdiyini gördü. Gözləri açıldı, küləyin yumşaq tüklərini necə oynatdığını, qanadlarını açdıqca onu incə şəkildə üşütdüyünü hiss elədi. Yüksəkliyin, geniş boşluğun bu yerində həzin bir səssizlik baş qaldırdı. "Deyəsən, bura Allahın iş otağıdır? Dünya adlı işini idarə eləmək üçün özünə yaxşı yer seçib. Quşlar, quşlar... Sizin dərdiniz daha ağır imiş... Siz öləndə həm göydən, həm yerdən köçürsünüz" deyə fikirləşdiyi yerdə buludlar topa halda ayın qarşısını kəsdilər. Heç tərpənib getmədilər də. Ayın gümüşü parıltısı yoxa çıxdı. Nə edəcəyini bilmədi. Sağa-sola qanad çırpıb, həyəcandan daha da yüksəyə qalxdı. Qəribə bir ürək bulantısı, yorğunluq hiss elədi. Dayanmaq istəyir, amma hara, necə qonacağını bilmirdi. Daha gücü tükənmişdi. Yavaş-yavaş aşağı enir, endikcə də ona doğma olan bir səs eşidirdi.

– ...Nc, nc, nc, deyirəm necə sarsaq adamsan e. Heç kişi də o cür qadını özündən aralı tutar?! Amma sənə halal olsun, onu mənə qısqanmadın. Ümumiyyətlə, sən qadın mövzusunda həmişə gözütoxsan.

...Səsə çatır, amma hansı səmtə uçduğunu, nələrin yanından keçdiyini, önündə nəyin durduğunu görə bilmirdi. Qorxusundan qışqırmağa başladı və nəyəsə dəydi. Diksinərək geri çəkildi. Ayağı stula ilişdi və yerə yıxıldı. Gözlərini yenicə açmışdı ki, quş zərblə pəncərəyə çırpıldı.

– Ay səni... – Fərrux cəld hərəkətlə ona yaxınlaşıb, aşağı əyildi. – Yarasaydı, qorxma.

Yerdən qalxmadan, süst halda Fərruxa tərəf çevrildi. Dostu ona lap yaxın dayanmışdı. Hər iki əlini onun çiyinlərinə dayayıb, gözlərinin içinə baxdı. – Yarasa deyildi, mənimydim! Quş olmağa ehtiyac yoxuymuş, indiyə kimi mənim ruhum koruymuş! – Fiday təngnəfəs halda pıçıldadı.

– Nə?

– Yarasa deyildi, quşuydu. – Fərruxdan tutub ayağa qalxdı.

– Bəlkə də. – Fərrux, ayağıyla stulu yerinə itələyib lağlağı ilə sözünə əlavə elədi. – Özün də yekə kişisən... Elə qorxdun... Sən lap ağciyərmişsən ki...

Fiday çənəsində keyləşmə hiss edirdi.

– Sən get... get evə, mən də uzanıb yatım! – əli ilə çənəsini ovxalayaraq otağa keçdi. Yorğanı qaldırıb çarpayıya uzandı, dizlərini sinəsinə sıxıb üstünü örtdü.

– Başa düşmədim, indi bu nə demək idi?! Sənə nə olub?

– Hələ də nə olduğunu öyrənə bilmədin?

– Dayan görüm, Fəridəyə görə incimisən məndən?

– Fərrux, get evə... arxayın ol, inciməmişəm. O ki qaldı Fəridəyə, əgər mənim acığıma sənnən yatıbsa, deməli, sən olmasan, acığa başqası ilə yata bilərdi. Əmin ol, qadınlar pis şeyləri həmişə nəyinsə, kiminsə acığına eləyir. Hələ arada Allahın qələmin oğurlayıb özlərinə yeni tale yazmağı da xəyal edirlər! On beş il əvvəl bir qız sevmişdim, yadındadır?

– Yadımdadır. – Fərrux qəribə bir maraqla gözlərini qıyıb çarpayının küncünə oturdu.

– Səndən çıxmayan iş... Hər nəysə... Sevmədim – ondan sonra heç bir qadını sevə bilmədim... Heç ciddi münasibətim də olmadı. Dörd aylıq münasibətimizin axırında mənə dedi ki, üzrlü say, bizim hisslərimiz qarşılıqlı deyil! Soruşdum ki, nə vaxtdan? Dedi ki, dörd aydır. Dedim, bunu dörd ay əvvəl desəydin, mənim üçün daha rahat olardı! Çox soyuqqanlı cavab verdi: "Nə fərqi var? Dörd il sonra deməmişəm ki, dörd ay sonra demişəm!" Bunu eşidəndə gözlərimdə anamdan eşitdiyim hadisə canlandı – məndən əvvəl doğacağı, ancaq doğa bilmədiyi, qarnında ölən dördaylıq uşağına görə babamgilin həyətində alma ağacından özünü asıb öldürmək istəyibmiş. Ona demək istədim ki, axı anam, üzünü görmədiyi dördaylıq uşağa duyduğu sevgiyə görə nə vaxtsa intihar eləmək

istəyib... Sən də qadınsan, sevginin möhtəşəmliyini başa düşüb məni anlamalıydın! Demədim! Nə həmin dəqiqə, nə də ondan sonra. Zaman keçdikcə başa düşdüm ki, bizdən fəqli olaraq, onların sevgisi bədənlərinin üç yerində – bətnlərində, ürəklərində, beyinlərində bir-birinə zidd, həm də elə əlaqəli dayanıb ki... – dərindən iç çəkdi.– Onlar həyatlarının ən uğursuz anını zamanla möhtəşəm saniyələrlə əvəz edirlər... Necə ki, qocalmış qartal, dağın hündür zirvəsinə qalxıb, dimdiyini daşa döyüb qırır, günlərlə, aylarla təzə dimdiyin çıxmasını gözləyir, sonra o dimdiklə caynaqlarını çıxarır, tüklərini yolur... ilan köhnə dərisini sərt yerə sürtüb çıxarır... qadınlar da özlərini yenidən doğmağı bacarırlar. Məsələn, anam öz uğursuzluğunu məni doğmaqla uğura çevirdi, sevdiyim həmin qız mənə qədərki uğursuz sevgisinin intiqamını məndən almaqla qadınlıq inamını özünə qaytardı – bəlkə də, o, bunu fərqində olmadan eləmişdi... Fəridə də uğursuzluğunu inadla uğura çevirmək istəyir, sənin üstündən özü özünə dəyər qatır, ya da başqa şeylər... Bax belə. Yatmaq... ancaq yatmaq istəyirəm. Bir-iki saat sonra siqaret almaq üçün aşağı düşəcəm. Kefim olsa, görüşərik! – sonra pıçıltı ilə əlavə elədi – Çətin... mən bütün yollarda azmışam!

Fərruxun getməsi ilə elə bil ki, ən böyük arzusu həyata keçdi. Bir neçə saatdır yaşadıqlarını xatırlamamaq üçün ona daim ruhi rahatlıq verən həmişəki xəyali məkanı – təbiəti, ordakı ab-havanı, ən əsası isə, təkliyi beynində toplamağa çalışdı. Bu yer heç vaxt heç kəsin ayağı dəyməyən uzun sıx ağacların çevrəsində dizə qədər qarla örtülmüş meşə idi. Burda onun kiçicik çadırı, əyninə geyindiyi boz rəngli qalın kürkü, gözlərinə qədər uzanan və qulaqlarını örtən papağı, həzin şəkildə əsən qış küləyi, arabir ağacların arasından öz işığını meşəyə salmaq istəyən günəşi, ayı, soyuq gecələri və buz kəsmiş sabahları var idi. Ayağa qalxıb hündür ağacların kökü üstündə bitən bitki yarpaqları topladı, ocaq qaladı, çaydanı qarla doldurub çay dəmlədi.

Qaynar çayı hortultu ilə boğazına sümürdükcə ağzından çıxan buxarı görüb ruhu uyuşurdu. Bir az sonra hündür ağacların ən uca yerinə söykənmiş ayın gümüşü şəfəqlərini, gah da ayaqlarını dizə qədər isidən ocaqdan atılan qığılcımları pərəstiş dolu baxışlarla süzüb, eşidilən canavar ulartılarını lirik piano musiqisinə bənzər şəkildə dinləməyə başladı. Canavar səsləri kəsiləndə gözlərini qaranlığa zilləyir, elə bil növbəti ifanı gözləyirmiş kimi sevinir, gülürdü. Yuxusu gəlirdi. Elə əsnədi ki, az qala üzü yanlardan çat verəcəkdi. Yerdən ovucladığı qar topaları ilə ocağı söndürdü.

Çadıra girib kürkünü çıxardı və hansı səmtdə olduğunu əzbərdən bildiyi qalın, yumşaq döşəyin üstünə uzandı. Çadır qaranlıq olduğu üçün heç nə görünmürdü. Əlini sağ tərəfə uzadıb enli xəzi üstünə sərdi.

– Bu nə gözəl, nə əvəzsiz rahatlıqdır... – deyə mızıldandı. Bütün bədənini ram edən yuxudan o qədər sərməst olmuşdu ki, üzündə xoşbəxtliyin, rahatlığın nuru peyda olmuşdu. Bu nur şəffaf şüşə kimi parıldayırdı. Naməlum bir səsdən hər şey qəfil dağıldı.

– Bu nədir, nə baş verir?! – qaşqabağını töküb, yatdığı yerdən qəzəblə dikəldi. Səs kəsmirdi. Dözməyib çadırdan çölə çıxdı. Az öncə qaranlıq olmasına baxmayaraq, ətraf sübhün tutqun işığına bürünmüşdü.

Qarşısında orta yaşlı, ağbəniz, üzü azacıq qırışmış, bəstəboy, gümüşü saçlı bir kişi dayanmışdı. Bu kişi əynindəki uzun, qara paltonun ətəyinə yapışmış qar dənələrini çırpaçırpa ona baxıb ikrahla deyinirdi: "Mən də heyrətə gəlmişdim". Paltosuna yapışmış qar dənələrini təmizlədikdən sonra qəhvəyi rəngli kaşmir şərfini boynundan çıxardı. Şərfi səliqə ilə qatlayaraq Fidayın üzünə baxmadan lağlağıyla dilləndi:

– Nədir, rahatlığını pozdum?

– Sən hardan çıxdın?! – deyə Fiday qaşlarını çatdı.

– Heç üzündəki cizgilərin eybəcərliyindən xəbərin var?

– Nə var ki üzümdə?

– İndiyə qədər hiss eləmədiyin, görmədiyin hal. Buna o tərəfdə qəzəb deyirlər. Doğrudan da, sən dünyaya gəlməyə hazır vəziyyətdəsən.

– Nə sarsaq-sarsaq danışırsan? Dünyaya gəlmək nədir?

– Çox nəzakətsiz adamsan. Kaş orda da bu cür davam eləməyəsən. Elə bilirsən, o dünyada

burdakı kimi hər gün eyni rahatlıqla, eyni həzlə yaşayacaqsan? – deyə üşüyən əllərini nəfəsi ilə isitməyə çalışan kişi gözlərində uçuşan şən təbəssümlə soruşdu:

– Hər şeydən, hər kəsdən uzaq bayaqkı rahatlığın yadındadır?

– Hə, yadımdadır.

– Bax o, sənin dünyaya gəlmədən yaşadığın əvvəlindi. Sən kiçik boy, daha çəlimsiz gövdəylə doğulanda bu həyatından ayrı düşdüyün üçün şikayətlə ağlayacaqsan. – Fidayın son sözünü ələ salırmış kimi dedi. – O göz yaşlarının səbəbi, belə bir rahatlıqdan qopmağın olacaq. Fəqərələrin, sümüklərin dartıldıqca sən hal-hazırkı – əli ilə onun boyuna işarə verdi – boyuna yetişəcəksən. Zaman keçdikcə sənə necə yarandığını izah eləyəcəklər, amma sənin əvvəllər harada olduğunu deməyə heç kimin gücü çatmayacaq. Sənin dünyaya gəlməyində rolu olan iki doğman... Onlar səni yedirib-içirib, geyindirib, özlərinə öyrədib, gözlənilmədən yoxa çıxacaqlar. Əvvəlcə yumşaq, tor basmış, sonra da dərisi codlaşmış ovuclarının içində itirdiyin o kəslərin istisini hiss eləyəcəksən. Təbii ki, bu hamıda belə olmur, amma səndə lap elə bu cür olacaq. Sevdiklərinlə dolu geri dönüşü olmayan keçmişin, səni laaaap – bu sözü xüsusən uzatdı – qoyun kimi mələdəcək! Ha, ha, ha, ha... Bu cür kövrəklik hamıda olmur, soyuqqanlı adamlar çoxdur. Ölənin, yox olanın geri qaytarılması mümkün olmayan bəh-bəhsiz dünya səni gözləyir. Hələ çox şey var e, məncə, bu qədəri bəsdi. Bax belə. Gəldim ki, bir azdan doğulacağını sənə çatdırım. Mənim də işim bundan ibarətdir – sənin kimilərinə doğulacağını xəbər vermək, bir də o tərəfə sancı ötürmək.

– Nə, yəni mən bu xoşbəxt həyatımdan ayrılıram? – kədərlə dodaqlarını büzən Fiday soruşdu.

– Əlbəttə! – kişi təsvirolunmaz əminliklə dedi və əlini paltosunun döş cibinə salıb, kiçik, yazılı bir kağız parçası çıxardı və ona doğru uzatdı: – Götür, burda səni nə gözlədiyini qısa şəkildə izah eləyiblər. Biləsən – insanın yaratdığı heç bir şey öz rəngini özü seçə bilmədiyi kimi, Allahın yaratdığı insan da öz taleyini özü yaza bilməz! Nə eləsən də, bu kağızda yazılandan kənara çıxa bilməzsən. Götür, götür, mən tələsirəm! O tərəfi qışqırıq götürdü, tələs.. Get, göbəyini kəssinlər. Ha, ha, ha... Axı insanlar analarından iki dəfə qopurlar – doğulanda, bir də anaları öləndə!

Tərəddüdlə kişiyə yaxınlaşdı, kağızı alıb orda yazılanları aydın səslə oxumağa başladı:

"Ağ vərəq üstünə həyat çəkdilər, qarasıqurası üstünə düşdü". Qorxu dolu gözlərini kağızdan ayıranda kişinin bu sözləri deyə-deyə, şən və qarşısıalınmaz qəhqəhələrlə uzaqlaşdığını gördü:

– Qorxma, balaca oğlan, mən sənin böyüməyini də görəcəm, buna əmin ol! – Kağızı yenidən oxumaq istədi, amma bu dəfə ora başqa sözlər yazılmışdı: "Qaranlıq səmada qorxu ilə qanad çırpan o quşun sübhdən başqa çarəsi yoxdur".

Çadır da, meşə də qeyb oldu. Amma kağız əlində idi. Özündən xəbərsiz, pıçıltı ilə kağızda yazılan sonuncu cümləni təkrarladığı vaxt bu naməlum kişinin, illər əvvəl oxuduğu məktəbdə qarovulçuluq edən, tənəffüs vaxtları çatanda zəngi basan, şən bir qoca kimi bütün şagirdlərin və valideynlərin sevgisini qazanmış mərhum Zakir dayı olduğunu xatırladı. Üzündə kədərli təbəssüm yarandı. Elə bu vaxt Zakir dayının verdiyi kağız parçası da qeyb oldu. Yatdığı yerdən dik atıldı. Boş ovuclarına baxdı. Titrək səslə bir neçə dəfə təkrarlamağa başladı:

– O quşun sübhdən başqa çarəsi yoxdur. O quşun sübhdən başqa çarəsi yoxdur... Bəs birinci cümlə necəydi?! – deyə tələsik ağlından keçirdi.

Çarpayısına bitişik çəkməcədən tələsik kağız-qələm götürdü. Nə qədər istəsə də, birinci cümləni xatırlayıb vərəqə köçürə bilmədi. Zakir dayının şirin zarafatlarını, məktəbdəki bütün uşaqlara göstərdiyi qayğını, səsini xatırlayanda içini çəkdi, əlləri ilə dizlərini qucaqlayıb kövrək səslə pıçıldadı:

– Zakir dayı, nə olar, zəngi vur!

Qəflətən dəhlizin işığı yandı, bir neçə saniyə sonra azan səsi, ardınca isə divarın o biri üzündən yaşlı Marinanın sevinc səsləri eşidildi:

– Axx, Boje... moya prekrasnaya doçka rodila detey! Poçemu tı ne razbudila menya, doçinka? Axxx, moi vnuki, moi koşki. Slava Boqu...

Əsmər HÜSEYN XAN

KEÇƏN GÜNƏ PEŞMANAM...

İllər asılır ayların ayaqlarından,
Sənsiz keçən günlər bir-bir düşür
Saralmış yarpaq kimi,
Təqvim varaqlarından...

Dərdi dərd çəkən anlar,
Sözsüz eşidən anlar.
Bir əbədi dostun olar dünyada –
Üzünə şax baxdığın tək həqiqət – aynalar...

İndi iki əlim, bir başım,
Keçən günə peşmanam.
Gələr, – deyib çox yol çəkdi gözlərim,
İnsanam ey, insanam...

İndi köhnə şəkillərdə
Gülümsəyir adamlar.
İndi bu yarımçıq ömrümü
O şəkillər tamamlar...

Mənim bütün şeirlərim
Ürəyimdən su içir.
Özümdən qaçdığım yollar da
Gəlib alnımdan keçir...

AYRILIQ ŞƏRQİSİ

Burda bütün şərqilər
Ayrılıqdan danışar.
Saralar təqvimlər də,
Fəsillərlə yarışar.

O da səndən uzaqda
Göy qurşağın izləyər.
Sənnsə buz əllərin
İsti nəfəs gözləyər.

Köz salar ürəyinə
Orda onun istisi.
Dolar ciyərlərinə
Ürəyinin tüstüsü.

Heyif, olmadı qismət, –
Deyərsən öz-özünə.
Gözlərin ta bir ömür
Su daşıyar közünə.

BURDA UNUTMAQ SƏNİ...

Burda unutmaq səni –
Dörd mövsüm payız kimi.
Yavaş-yavaş yox olmaq,
Unutduğun qız kimi.

Burda darıxmaq sənə –
Qəfəsdə bülbül olmaq.
Yanıb pərvanələrtək,
Öz oduna kül olmaq.

Burda gözləmək səni –
Gəmilər gələn yerdə.
Həzin bir yaz gecəsi
Lövbəri salan yerdə.

Burda qovuşmaq sənə –
Əzəmətli dağ olmaq.
Calanıb köklərinə,
Dönüb min budaq olmaq.

Burda qarışmaq sənə –
Ev olmaq, Vətən olmaq.
Dönüb günəşə, aya,
Aydınlığa tən olmaq.

SÖNƏN OCAQLAR

Yerdə yanan ağacların ahından
Alov aldı səmada buludları.
Bundan sonra yuvası yox, səsi yox,
Külə döndü quşların qanadları.

Yandı bütün yaşıl-yaşıl arzular
Bu atəşin közündə, ocağında.
Kəpənəklər, qarışqalar, böcəklər,
Bala dovşan ananın qucağında.

Ocaq ocaq söndürərmiş, öyrəndik.
Tüstü udan səmalar boşaldımı?
Bir bulud da dolmadı ki, ağlaya,
Tanrı, sənin gözlərin yaşardımı?

SƏNSİZ

Sənsiz yadların doğması,
Doğmaların yadıyam.
Sənsiz ünvansız evlərin,
Küçələrin adıyam.

Sənsiz qara kağız alan
Ananın göz yaşıyam.
Sənsiz adsız məzarların
Şəkilsiz başdaşıyam.

Sənsiz əsalı qocayam,
Yuxusuz körpə uşaq.
Sənsiz səninlə doluyam –
Xatirən qucaq-qucaq.

Sənsiz sahilsiz dənizəm,
Bir limansız gəmiyəm.
Sənsiz səfil, avarayam,
Kimsəsizlər kimiyəm.

RUHUM YANIR

Bu evin divarları
Min ildir ki, danışmır.
Qapının dəstəyi də
Heç bir əllə barışmır

Uzanan yola baxır
Darıxan pəncərələr.
Gözümün kökü kimi
Saralıb ağ pərdələr.

Divardakı saatın
Sanki nəbzi dayanıb.
Hər küncdə bir xatirə
Ruhumu əsir alıb.

Boş qalmış çərçivədən
Hüznün şəkli boylanır.
Gəl bir udumluq su ol,
Bu evdə ruhum yanır...

AZƏRBAYCAN ƏSGƏRİ

Nələr gördük, İlahi,
Nələrdən keçdik, Allah.
Biz vətənin uğrunda
Tarixə köçdük, Allah.

Min ilin qocasıdır
Dərdinin ömür yaşı.
Torpağında qan gölü,
Torpağında göz yaşı.

Hər qarışın bir tarix,
Hər tarixin bir zəfər.
Şəhid yatan torpaqda
Çiçək bitər, gül bitər.

Analar qurban deyər
Xınalı quzuları.
Ürəyində basdırar
Körpəcə arzuları.

Gözlərin aydın, Ana,
Qarşıda zəfər durur.
Sənin "körpəm" dediyin
Düşmənə qan uddurur.

Cəsarətlə keçir o
Neçə dağ, neçə dərə.
Sancır ulu bayrağı
Ən uca zirvələrə.

O sildi bu vətənin
Gözündəki kədəri.
Yaşa, yaşa, min yaşa,
Azərbaycan Əsgəri!

"QARAÇUXA"NIN *bəyaz edelveysi*

Nə yazacağımı dəqiq bilirəm deyə, yaxşı tanıdığım adamlar haqda yazmağı xoşlayıram. Yazdıqlarım gözlənilməz olsa belə. Mən həmişə danışdıqlarımı deyil, düşündüklərimi yazmağı xoşlamışam. Açığı, danışdıqlarımı heç yaza da bilmirəm. Necə deyərlər, gözlərim gördükləri və qulaqlarım duyduqları əvvəl barmaqlarımdan süzülməlidi. Düz danışmağı sevirəm, fəqət yazdıqlarımda daha çox dürüstəm. Özümdən və sözümdən əbəs yerə danışmıram. Elçin Hüseynbəyli kimi fikir adamı ilə müsahibəyə giriş etmək üçün özünə belə bir qısa hesabat verməli, hazırlıqlı olmalısan... İdman dili ilə desək, düşüncəni işlək vəziyyətə gətirmək üçün heç olmasa bir neçə cümləlik "isinmə hərəkətləri"ni yerinə yetirməlisən. Elə müsahibim də özünə dürüst hesabat vermək naminə vicdanla yaşayıb, vicdanla yazan qələm adamlarındandı. Daha çox tanınmağa layiq olan bu adamı az adam tanımır. Haqqında az yazılmayıb, özü də borclu qalmayıb ədəbiyyata, haqqında yazılanlardan on qat çox yazıb. Yazdıqları öz yerində, "Qaraçuxa"nın sinəsinin altında hələ nə qədər bəyaz səhifələr var gün üzünə çıxmalı...

Yazıçı Elçin Hüseynbəylinin yazdığı əsərlərin adlarını sadalamaq, hər biri haqda uzun-uzadı danışmaq, yaradıcılığı ilə bağlı mülahizələr yürütmək kimi bir fikrim yoxdu. Onu tanımaq üçün yazdığı əsərləri oxumaq lazımdı, vəssəlam. Başqa gəlişigözəl sözlər deməyi artıq hesab edirəm. Hamınıza onun əsərlərini oxumaq üçün səbirsizlənmək arzu edirəm. Necə ki mən düşüncələrimi mümkün qədər tez başa vurub müsahibəyə keçid eləmək üçün səbirsizlənirəm...

– Elçin müəllim, yurd itkisi, heç şübhəsiz, yazıçı düşüncəsində mənəvi ağrılarla müşahidə olunur ki, bu da bilavasitə onun əsərlərinə sirayət edir. Bunu uzun illər sizin

yaradıcılığınızda müşahidə etmişik. Bəlkə, bu üzdəndir ki, vətənpərvərlik və müharibə mövzularında yazdığınız əsərlər daha səmimi və daha gerçəkçi təsir bağışlayır. İndi zəfər qazanmışıq, yurd yerlərinə böyük dönüş başlayıb. Yoxluq və məhrumiyyətlər kədər gətirdiyi kimi, vətənin bütövlüyü, yurda dönüş də özüylə böyük sevinc gətirməlidi. Bilmək istərdim, keçmişin kədərini qələmə almaq çətin idi, ya cari və gələcək sevinci?

– Açığı, mən hələ otuz ilin kədərini yaşayıb qurtarmamışam. Ona görə bundan sonra da əsərlərimdə o kədər duyulacaq. Ötən otuz ildə biz o itkini canımızdan, qanımızdan, düşüncəmizdən keçirmişdik. Artıq biz o itkinin gətirdiyi kədərə, o kədər də bizə uyğunlaşmışdı. Hər şey tanış idi bizə, oturub yazırdıq. İndi qələbədən nə və necə yazmaq çox çətindi mənə. Belə deyim də, elə bil ki, öz evin var və o evdə bütün qayda-qanunları sən diktə edirsən. Ancaq səni həmin evə buraxmırlar. Otuz il sonra getdik, o evin qapısını qırdıq, girdik evimizə. İndi baxırıq ki, bu evin içində heç nə yoxdu. Bizim xatirələrimizi yaşadan və canlandıran ancaq həmin yerin aurası və ab-havası var. Başqa heç nə yoxdu. İndi biz yenidən yurd yeri binə etməliyik, özümüzə bir ev tikməliyik. Mən indiyəcən düşüncəmdə yaratdığım xəyali bir evin içindəydim. Və mənim üçün o xəyali evdə yaşamaq və yazmaq çox rahat idi. Nəyin harda olduğunu, əyər-əskiyi bilirdim. İndi isə tikəcəyim yeni evə təzə mebellər almalıyam, düzən verməliyəm. Nəhayət, evə uyğun yerimi rahatlamalıyam ki, oturub sevincimi qələmə alım. Birdən-birə kədərdən sevincə keçid eləmək çox çətindi. Zəfərə qədər yazdığım əsərlərdə olduğu kimi, hazırkı düşüncələrimdə də kədər və sevincin sərhədi tamamilə aradan götürülüb. Açığı, nə edəcəyimi bilmirəm. Zəfərdən sonra da bir çox məqalə və yazı, eləcə də "Əsgər barmağını əmən körpə", "Arxadan vurulacağını gözləyirmiş kimi" iki hekayə yazmışam. Hər iki hekayədə yenə də insan, yenə də itki, yenə də faciə və müharibənin gətirdiyi fəlakətlər... Hələ ki vəziyyət belədi...

– Müharibə demişkən, müsahibələrinizdə deyirsiniz ki, mən həm müharibədən yazıram, həm də müharibədən yazmıram...

– Biz müharibənin içində olmuşuq. Mənim əsərlərim müharibədən danışsa da, orda müharibə yoxdu. Orda müharibənin ağrısı var, itkisi var, insan faciəsi var. Otuz illik dönəmə sadəcə, təqvim kimi baxmaq olmaz, burda az öncə sadaladığım ağrılar, itkilər, faciələr, insan taleləri var. Həm də bu, hər iki tərəfdə mövcuddur, həm biz tərəfdə, həm də ermənilər tərəfdə. Sadəcə olaraq, ermənilər həm də psixoloji xəstədirlər. Biri var, hansısa millətə başqa bir millət otuz il zərbə vursun, biri də var, öz millətinə əsrlər boyu özün zərbə vurasan. Ermənilər özlərinə elə zərbə vurublar ki, mübtəla olduqları xəstəlikdən sağala bilmirlər. Əslində, özləri bilirlər xəstə olduqlarını. Ancaq müalicə oluna da bilmirlər, bacarmırlar. İradələri çatmır ki, şəfa tapsınlar.

– Müsahibəyə qədər, təkrar da olsa, "Don Juan"ı, eləcə də "Metro vadisi" və "Yolayrıcında qaçış" kimi əsərlərinizi oxudum. Adını qeyd etdiyim, eləcə də əvvəl oxuduğum bir çox əsərlərinizin ümumi və ortaq nöqtəsi var ki, ya dolayısıyla müəyyən məqamlar, ya da sonluqlar-finallar oxucu üçün qaranlıq qalır. Sanki əsər boyu hazırlıq gedir ki, sonda oxucu öz təxəyyül və fantaziyalarını işə salsın. Bu məndə oxucularınızın hazırlığına güvənirsiniz kimi təəssüratını yaratdı. Sizcə, Azərbaycan oxucusu siz təsəvvür elədiyiniz qədər yaradıcı və hazırlıqlıdırmı?

– Düzü, oxucumun hazırlığına bələd deyiləm, onun hansı hazırlıq səviyyəsində olduğunu ehtimal da etmirəm. Məsələ burasındadır ki, istənilən bir hadisənin sonunu, necə inkişaf edə bilər, sadəcə təxmin etmək olar. Gələcək kimi, heç bir insan taleyinin necə inkişaf edəcəyini də dəqiq müəyyən etmək mümkün deyil. Yəni sonu bəlli olmayan bir şeyə konkret proqnoz vermək çətindi. Bu, mənim düşüncəmdən qaynaqlanmır. Mən əsərlərimi bilərəkdən o cür yazmıram. Ola bilsin, bu, mənim yazıçı stixiyamdan qaynaqlanır. Konkret olaraq "Don Juan"la bağlı danışsaq, əsərin sonunda qapı döyülür. Bilinmir gələn dostu Bünyad bəydi, ya Anna. Yaxud gələn "Yeni Ermandada"dı. Ona görə bilinmir ki, Oruc bəyin taleyi də qaranlıqdı. Gah deyirlər, dueldə

öldürüldü, gah deyirlər, sarayda başı eyş-işrətə qarışdı. Ona görə də əsərin finalı da o cür olmalı idi. Yaxud "Yolayrıcında qaçış" romanını götürək, bu, çaşqın insanlar haqqında yazılmış çaşqın bir romandı. Biz hara getdiyimizi bilmirik. Qloballaşma insanları çaşdırır. Və bu çaşqınlıq içində istəyirik ki, birdən-birə milli kimliyimizi unudaq, avropalı olaq. Ona görə də həmişə deyirəm ki, biz əqlən avropalı, qəlbən şərqliyik. Yəni biz dövlətin qayda və qanunlarını gözləyirik, ancaq bizim həm də öz daxili qaydalarımız var. Millətin, toplumun özünün diktə elədiyi, genimizin və yaddaşımızın diktə elədiyi qaydalar var.

– Əsərlərinizin bir çoxunda obrazlara proyeksiya edilmiş uşaqlıq xatirələriniz var. Bəzən xatirələriniz və xarakteriniz proyeksiya olunmuş obrazlarınızla sizi dəyişik salıram. Özünüzlə dəyişik saldığınız konkret belə bir obraz varmı?

– Bütün əsərlərimin obrazları mən özüməm. Hər bir obrazın rolu və missiyasını əvvəlcədən bilirəm. Mən bir filmdə beş rolu canlandıran aktyora bənzəyirəm. Dəyişməyi, çevrilməyi bacarıram. Həmişə deyirəm ki, həyat faktı ilə ədəbiyyat faktı arasında sərhədlər elə pozulmalıdır ki, hətta yazıçının özü belə ayırd elə bilməsin, bu olmuşdu, ya olmamışdı. Ola bilər, hansısa əsərimdən sual verəsən, cavab verə bilməyim. Bu da təbiidi, situasiyanın diktə elədiyi məqamlar ola bilər ki, həmin məqamlar yaddaşıma deyil, yazdığım əsərə həkk olunsun. Yazdığın həmin vaxt gördüyün yuxu da ola bilər. Ona görə yazıçıdan yazdıqlarının həqiqətən baş verib-vermədiyini soruşmaq, bir az yüngül desək, etik deyil. Ümumiyyətlə, yazıçı mükəmməl sənət adamıdı. O, yazdığı əsərin həm müəllifi, həm ssenaristi, həm rejissoru, həm aktyoru, həm də oxucusudur.

– Bildiyim qədəriylə, ondan çox pyesiniz səhnəyə qoyulub, ondan bir qədər də çox roman müəllifisiniz. Sizi tamaşaçı daha yaxşı duya bilir, ya oxucu?

– Oxucu ilə mənə daha rahatdı. Kitabın arxasında gizlənirsən, oxucu səni görmür. Onun reaksiyası səni az maraqlandırır. Yalnız səni nəticə maraqlandırır. Tamaşa isə belədir ki, nəticədən çox, tamaşaçının həmin vaxt verəcəyi reaksiyası maraqlandırır səni. Tamaşa real nümayiş olunur. Artıq orada yazıçı yoxdur, orada rejissor, aktyor, səs rejissoru, rəssam, işıqçı, qrimyor və s. var. Yəni səhnədə sən tək deyilsən, kollektivçilikdi. Ola bilər, tamaşaya baxarkən müəllifin özü də narahatlıq keçirsin ki, əsərin səhnə təsviri özünün istədiyi kimi deyil. Bəzən rejissorlar mənim əsərlərimi də elə yozumda qoyurlar ki, bəyənmirəm. Elə bu səbəbdən dəfələrlə rəhmətlik Hüseynağa Atakişiyev təklif edirdi ki, öz əsərini bir dəfə də özün səhnələşdir, sənin səhnə görümün tamam fərqlidi. Hər dəfə cəhd edirəm, alınmır, başım açılmır, bu yazıpozu işi imkan vermir. Düzdü, pyes asan yazılır, birnəfəsə, bir günə, beş günə... Onun yazılmasını ləngitmək olmaz. Pyes bir trans halında yazılmalıdır. Amma romanı yazmaq üçün daha çox vaxtın olur. OtururSan, yazırsan, bir az oxucunun başını yaxşı mənada qatırsan, bir az tovlayırsan, bir az intizarda saxlayırsan. Qarmağı atırsan, manevr eləyib qarmağa nə düşəcəyini gözləyirsən. Bəzən görürəm ki, deyəsən, balıq mən özüməm. Özüm oxucunun qarmağına düşmək üzrəyəm. Mən əvvələr deyirdim ki, qadın ürəyini ələ almaq balıq tutmaqdı. Sonra başa düşdüm ki, sən demə, ovlanan kişiymiş, balıqçı qadınmış.

– Ədəbiyyatın gələcəyi ilə bağlı çox zaman heç də optimist olmayan fikirlər səsləndirirsiniz. Əsas gətirirsiniz ki, dünya kataklizmlərlə üz-üzədi, ara qarışıb, məzhəb itib, ədəbiyyat insanların o qədər də marağında deyil-filan... Amma bununla yanaşı, durmadan yazır, hətta çox vaxt bir neçə əsər üzərində paralel olaraq işləyirsiniz. Ədəbiyyatın gələcəyi ilə bağlı pessimist olmaq və məhsuldar yazıçı olmaq. Necə izah edərdiniz bunu?

– Ədəbiyyatla bağlı, əlbəttə, pessimist olacam. Təsəvvür edin ki, bütün janrlarda yazırsan və qəfil başını qaldırıb özünə sual verirsən ki, bəs çörək pulunu hardan tapacaqsan? Cavab vermək çətindi. Ümumiyyətlə, hansı janrda yazırsan-yaz, bilməlisən ki, ədəbiyyatın bazarı yoxdu. Bir də ki bu pessimizm yeni deyil, keçmişin nostalgiyasından qaynaqlanır. Bizim gözləntilərimiz özünü doğrultmadı. Zaman

gəldi, özümüzə sual verdik ki, bizim oxucularımız niyə çox olmasın ki? Məsələn, Çingiz Abdullayevi çox oxunan yazıçı kimi qısqanırlar. Oxucuların onun kitablarını almaq üçün növbəyə durmasını qınayırlar. İndi mən neynəməliyəm ki, Elçin Hüseynbəylinin oxucusu azdı. Ona görə yox ki, mən zəifəm və maraqsızam. Sadəcə olaraq, bizim indiki oxucularla məkanımız eynidi, zamanımız fərqli. Bəllidir ki, zamanında məndən qat-qat zəif yazıçıların neçə min tirajla kitabları çap olunub. İndi elə güclü yazıçılar var ki, kitabları barmaqla sayılacaq qədər az satılır. Ümumiyyətlə, yazıçı oxucudan status baxımından üstündü. Və yazıçıya sizi niyə oxumurlar deyə, sual vermək yersizdi. Necə yəni oxumurlar? Oxumalıdı axı! Mənim yazdığımı oxumur, daha yaxşısını gedib oxusun. Yazıçı dostumuz Firuz Mustafa danışır, deyir, əsas gətirirlər ki, indi yaxşı pyeslər yazılmır, ona görə tamaşaçılar teatra getmirlər. Deyir, yaxşı, onda Şekspirin, Cəlil Məmmədquluzadənin, başqa klassiklərin əsərlərinə baxmağa getsinlər. Deməli, yoxdu da. Biz teatr və mədəniyyət baxımından çox geriyik. Təsəvvür edin, Yunanıstanda teatr 2500 il əvvəl yaranıbsa, bizdə bu tarix 1873-cü ildən hesablanır. Eləcə də oxu mədəniyyətimiz. Yalnız sovet dönəmindən başlayaraq camaata mütaliəni təbliğ etməyə başladılar. Və ideologiyaya uyğun olaraq, yazıçı və şair şöhrəti yaratdılar. Sovetlər dağılan kimi bu sistem də ləğv oldu. Və qayıtdıq yenidən dırnaqarası öz xoşladığımız işlərlə məşğul olmağa.

Bəyəndik, bəyənmədik, XV əsrdə qərbdə universitetlər var idi. XVI əsrdə jurnal, nəşr olunurdu, ədəbi dərgilər meydana çıxmışdı. Bu o vaxtlar idi ki, Servantes Avropanın ədəbi dərgilərində Lope de Veqayla ədəbi çəkişmələrdə idi. Onda biz harada idik, nə işlə məşğul olurduq? O dönəmlərdə yalnız Şah Abbas Venesiyadan çap maşını gətirmişdi. Hansı ki, sonradan xəttatların daha gözəl yazmasını əsas gətirib onu da bəyənmədilər.

– İllər öncə qələmə aldığınız "Azıx" romanınızda İmranbəyin timsalında pafoslu, yalançı vətənpərvərlər tənqid edilir. Avropa mədəniyyətini, incəsənətini, oxucu və tamaşaçısını xatırlatdınız. Bəllidir ki,

şərqli kimi və Avropa insanından fərqli olaraq incəsənətin bütün sahələrində daha çox pafoslu nəsnələrə meyillənirik. Siz yazarkən kimlərə yönəlik yazırsınız, bir çox məqamlarda pafosu sevən öz oxucularımıza, ya hər şeyə praqmatik baxan dünya insanına?

– Mən, ümumiyyətlə, pafosu sevmirəm. Və çox nadir hallarda, həddən artıq emosional olanda pafosa qapıla bilərəm. Yazılarımda da şəraitə uyğun olaraq bu kimi şeylər ola bilər. Misal üçün, "Yenə iki od arasında" romanının və "Gözünə gün düşür" hekayəsinin sonunda bilərəkdən pafosa bənzər ümid yeri qoymuşam. Mən heç vaxt əsərlərimdə oxucuya konkret olaraq hər şeyin yaxşı olacağını demirəm. Elə bir situasiya yaradıram ki, orda bir işıq, bir qığılcım yaranır. Bununla yanaşı, müasir oxucunun düşüncəsinə cavab verə biləcək, onu maraqlandıra biləcək nəsnələr də ortaya qoyuram. Həyatı həyat kimi yazsaq, o qədər də maraqlı olmaz. Mən həyata, həyat epizodlarına, həyat hadisələrinə Elçin Hüseynbəyli kimi yanaşıram. Mənim qələmə aldıqlarıma oxucunun necə yanaşması öz işidir. Mən ənənəmə

sadiq qalıb hər şeyə Elçin Hüseynbəyli kimi yanaşmaqda davam edəcəm. Oxucunu düşünəndə də belə yanaşıram, düşünməyəndə də. İstər praqmatizm olsun, istər pafos olsun, adını nə qoyursan-qoy, hamısı özüməm.

– "Don Juan" romanından yaddaşımda qalan bir sual var. Hansı ki, müdrikin verdiyi həmin sualı prototipi özünüz olan qəhrəman cavablamaq əvəzinə söz oyunu kimi qiymətləndirir. İndi o sualı təkrar özünüzə ünvanlamaq istəyirəm: Gələcək keçmişdədir, ya keçmiş gələcəkdə?

– Keçmiş də, gələcək də bir-birinin içindədi. Keçmiş gələcəkdədi, gələcək də keçmişdə. Biz gələcəyimizi müəyyən etmək istəyiriksə, mütləq keçmişə nəzər salmalıyıq. O ki qaldı keçmişin gələcəyinə, bu, Hegelvari düşüncədi. Yəni hər şey spiralvari inkişaf edir, hər yoxuşun bir enişi, hər enişin bir yoxuşu var. Biz zamana konkret yanaşa bilmərik. Biz danışdıq qurtardıq, bu artıq keçmişdi. Bir saniyə əvvəl danışdıqlarımız keçmişdi. Bir saniyə sonra danışacaqlarımız da gələcək. Mən əsərlərimdə zaman və məkanları bütöv götürürəm. Məndə həm də bir az şüur axını cərəyanının elementləri var. İndiki zamandan müxtəlif zamanları düşünürəm. Ümumiyyətlə, yazıçı zamanı, məkanı, milliyyəti, genetikanı bütöv qavramalı və həyatın rənglərdən ibarət olduğunu qəbul eləməlidi. Müasir insanların hərəsi bir rəngdədi, yazıçı bütün rənglərin adamlarını görməli, duymalı, tanımalıdı. Çünki vaxt gələr, sənə qara rəngli adam lazım olar, zamanı da gələr, qırmızı rəngli adam. Misal üçün, mən rəng olaraq firuzəyi rəngi xoşlayıram. Ancaq niyəsə düşünürəm ki, bu rəngdə adam ola bilməz (gülür). Əgər varsa, düşünürəm ki, ən gözəl adamlar onlardı.

– Yazıçı, əslində, əsərləri ilə görünməlidi. Bu baxımdan da, maşallah, korluq çəkmirsiniz. Amma bəzən sizi az görünməkdə suçlayırlar. Adamların istədiyi kimi görünməlidimi qələm adamı: sosial şəbəkələrdə, televiziyada?..

– Tezis antitezis yaradır. Sən nə qədər çox görünsən, o qədər qısqanclıq yaradacaqsan. Populyarlığın özünün də total qısqanclıq yaratdığı bəllidi. Ola bilsin, indi səsləndirəcəyim fikir də müəyyən mənada qısqanclıq yaratsın, amma deyəcəm, hesab edək ki, sən aysberq kimi qəfil çıxırsan, hamı sənin dalğanda batır. Təzədən qayıdırsan okeanına. Otururs an, yeni dönüş üçün hazırlanırsan. Mən hərdən görünmək, nəsə ortaya qoyub görünmək istəyirəm.

– Bu günlərdə "Gözünə gün düşür" hekayəsi əsasında yazılmış "Vida" romanınız çapdan çıxdı. Təbrik edirəm. Hazırda yazı masanızda üzərində işlədiyiniz hər hansı başqa bir əsər varmı?

– Hazırda "Komadakı mən" əsəri üzərində işləyirəm və yəqin ki, Allahın köməkliyilə yaxın bir-iki aya yazıb bitirəcəm. Bu, fantasmaqorik, müasir texnoloji düşüncə ilə yazılmış bir əsərdi. Burada yuxu kimi virtual məkanlar daha çoxdu. Bundan əlavə, hazırlıqlarını başa çatdırdığım, hətta bir neçə fəslini də yazdığım yeni bir əsərim də var ki, bu da Şah I Təhmasibin qızı, Səfəvilərin yeganə qadın hökmdarı Pərixan Xanım və ya Pərixan Sultan haqqındadır. Çox az müddətdə hakimiyyətdə olub. Bir də Anar müəllimin tövsiyəsi ilə Əhməd bəy Ağaoğludan bəhs edən bir əsər yazmağı planlaşdırıram. Əhməd bəy Ağaoğlu bizim düşüncə tariximizdə, Qarabağ tarixində mühüm yer tutan, Türkiyənin özündə belə sayğı duyulan böyük şəxsiyyətdi. Belə bir şəxsiyyət haqda əsər yazmaq və ssenariyə çevirib bir film ərsəyə gətirmək, elə Anar müəllimin təbirincə desək, həm ədəbiyyatımız qarşısında, həm də ədəbiyyat tariximiz qarşısında mənəvi borcumuzu qaytarmağa cəhddir.

Daha sonra uşaqlar üçün "Banuçiçək Elflər səltənətində" adlı bir kitab üzərində işləməyi planlaşdırıram. Ola bilsin, haqqında danışdığım kitab digər əsərlərdən daha tez ərsəyə gəldi. Çünki ideyası da var, məkanı da, süjeti də. Əsər əsasında beynəlxalq bir layihə həyata keçirməyi də planlaşdırıram ki, bu da əsasən, türk arealını, türk dünyası ölkələrini əhatə edəcək. Yeri gəlmişkən, deyim ki, yaxın günlərdə uşaqlar üçün "Dənizin nağılları" adlı başqa bir kitabım da işıq üzü görəcək.

– Son zamanlar uşaqlar üçün yazmaq istəyiniz artıb sanki. Nədən qaynaqlanır bu?

– Mənim bir nəvəm var: Dəniz. Bu saat bizim həyatımız onun üzərində qurulub. Uşaqlığın da, gəncliyin də, atalığın da öz gözəlliyi və özəlliyi var. Baba olmaqsa tamamilə fərqli bir hissdi. Baba olanda insan həyatı tamamilə dəyişir. Sən hər şeyə fərqli yanaşırsan. Hər şeyə yazığın gəlir, hər şeyə mərhəmətlə yanaşırsan. Hardasa bir uşaq qışqırığı eşidirsən, elə bilirsən, öz nəvən ağlayır. Bir uşaq gülür, elə bilirsən, öz nəvən gülür. Özüm baba olana kimi "Baba nəvəsini niyə çox istəyir?" sualına əlli versiyada cavabım var idi. Amma baba olandan sonra gördüm ki, hamısı ehtimalmış, bu, birtərəfli sevgidi və izaholunmazdı. Bütün sevgilər izaholunan və müəyyən mənada, təmənnalıdı. Çox güman ki, elə bu səbəbdən uşaq mövzularında yazmağa meyillənirəm qeyri-ixtiyari.

– Amma son əsərlərinizin adları nədənsə pessimist auralıdı: "Vida", "Komadakı mən".

– Bəlkə də, bu, yaşla əlaqədardı. Cavan vaxtı hekayələrimə "Taleyə şərqi söyləyən", "Oyun", "Dezodorant qız", "Günahın gül üzü" kimi adlar qoyurdum. Deyirlər, insan cavanlıqda qiyamçı, qocalanda mühafizəkar olur. Cavan adam dəyər yaratmayan, ailə qurmayan, övlad sahibi olmayan biridi. Yaşa dolduqca adam müdrikləşir, nəhayət, dəyər qazanır və dəyərlər yaradır. Və istəyir ki, o dəyərləri qorusun, özü də bilmədən dönüb olur mühafizəkar. Amma əslində, əsl mühafizəkar yeniliyi dəstəkləyən və paralel olaraq dəyərləri qoruyan adama deyirlər. Yəqin, yaşıma uyğun olaraq şüuraltı yazdıqlarım da, əsərlərimin adı da mühafizəkarlaşıb.

– Yaşınız elə çoxdur ki?

– Dekabrın 23-ü 60 yaşım olacaq... Amma hesab edirəm ki, mənim yaşım yoxdu. Nə iyirmi il yaşamışam, nə əlli, nə altımış, nə də Adəm kimi səkkiz yüz il... İnsanın ömrü yaşla ölçülməməlidi. İnsan Tanrının bəndəsidi, onun yaşı yoxdursa, bəndəsinin də yaşı olmamalıdı. Biz öləndən sonra bizim mövcudluğumuzu sürdürən hansısa formada davamçılarımız olacaq da: torpaq olacağıqsa, ot, gül-çiçək bitirəcəyik. Çox istərdim ki, mənim torpağım gül bitirsin-heç vaxt üzünü görmədiyim edelveys gülünü. Dağlarda bitir bu gül-zirvədə. Uzun sözün qısası, öləndən sonra çiçək olmaq istəyirəm, amma bir şərtlə ki, həmişə qoxlasınlar, kimsə qıyıb qoparmasın.

Söhbətləşdi:
Taleh Mansur

Ramil MƏRZİLİ

BİR AZ DARIXMAQ...

Bir az da darıxmaq kimi
Əzbərlədim dərdi-səri.
Fikrimə qazdığım qəbir –
Yanağının çuxur yeri...

Bir az da darıxmaq kimi
Qəzəbi var sol yanımın.
Barmaqlarım addımlayır
Cığırlarını alnımın.

Bir az da darıxmaq kimi
Baxıram fotoşəklinə.
Həsrətin rəsmi ağ-qara,
Ayrılığın bəs şəkli nə?!

Bir az da darıxmaq kimi
Yanır siqaret halıma.
Külqabıdan kül ələnir
Bu bozumtul əhvalıma.

Bir az da darıxmaq kimi
Masamın üstü qarışıq.
Qədəhlərlə öpüşürəm,
Xəyal günaha bulaşıq…

Bir az da darıxmaq kimi
Ölümün qoxusu gəlir.
Açılmır göz qapaqları,
Ömrümün yuxusu gəlir...

GECƏLƏR MƏNDƏ YATIR

Eh, yenə də sənsizlik, eh yenə də dərd-ələm,
Yenə barmaqlarımı çəkib aparır qələm.
Nə aman verir ələm, nə qoyur ki dincələm,
Qəribə dərdlərim var –
Yuxuma haram qatır...

Doğruya üz tuturam, yetdiyim mənzil yalan,
Külək içimdən əsir, bağrımın başı talan.
Xəfif pıçıltımda da ömrü boyu kar olan
Şeytanın qulaqları
Gəlib səsimə çatır...

Min ildi yol gedirəm taleyimin köçündə,
Mənim həsrətim var ki, sən boyda, sən biçimdə.
Savab bilib getdiyim əməllərin içində,
Allah, hayana baxsam,
Günah gözümə batır...

Mənəm... Öz ürəyimdə ağrı-acı bitirən,
Yaşamının içindən ölümə köks ötürən.
Kədərimin rəngini Yer üzünə örtürəm,
Mən gecələr yatmıram,
Gecələr məndə yatır...

GEDİRİK...

Min tişədən keçir ömür,
Heykəl gəlib, büt gedirik.
Acımamış xəmir kimi
Ha yapılsaq, küt gedirik.

Yerim fani, göyüm fani,
Nə görürsən, deyim fani.
Əyinlərdə geyim fani,
Lüt doğulub, lüt gedirik.

Aç qapını, gələn mənəm,
Göz yaşıyla "gülən" mənəm.
Nə olsun ki, ölən mənəm,
Bax içimə, cüt gedirik...

HƏR GECƏ FİKRİMƏ QONAQ OLURSAN

Alıb gözlərindən kədər baxışın,
İçimdə bəsləyib dərd eləyirəm.
Asılıb qalmışam xatirələrdən,
Kəndiri kəsməyə güc diləyirəm.
Titrəyir bədənim, tutulur dilim,
Düşüb yıxılıram baxışlarından.

Çəkib dodağından təbəssümünü,
Ovcumun içində bükələyirəm.
Bağrıma basıram saçının ətrin,
Saçından gecəyə rəng ələyirəm.
Göz yaşım çevrilir leysana, gülüm,
Seçilmir payızın yağışlarından.

Oyub gözlərimi yuxusuzluğa,
Gecənin gözunə nur çiləyirəm.
Bu körpə ağrını, bu yetim eşqi
Büküb xatirənə, söz bələyirəm.
Hər gecə fikrimə qonaq olursan
Süzülüb alnımın qırışlarından...

HƏSRƏT BÜRÜYÜB DÜNYANI...

Sən baxma ki, günbatanı günçıxandan
sərin olur,
Sən baxma ki, enişləri yoxuşlardan dərin olur,
Sən baxma ki, vüsalları həsrətindən şirin olur,
Həsrət bürüyüb dünyanı...

Sən baxma ki, eşq yükünü çəkənlərin
gözü nəmdir,
Sən baxma ki, sevənlərin bu dünyada
bəxti kəmdir.
Sən baxma ki, doğru yolun sağı dərddir,
solu qəmdir,
Tanı, doğru yolu tanı...

Sən baxma ki, taleyini vuranlar var,
yıxanlar var,
Sən baxma ki, bu sınaqdan üzüqara
çıxanlar var.
Sən baxma ki, tənhalıqdan öz əlini sıxanlar var,
Göstər görüm, əlin hanı?!

Sən baxma ki, şair ömrü başdan-sona
hədər olur,
Sən baxma ki, bu həyatın son akkordu
kədər olur.
Sən baxma ki, bir gün gələn həmin yolla
gedər olur,
Gözlərində gəzdir qanı,
Ciddiyə alma dünyanı...

PAYIZ ETÜDLƏRİ...

Taqqıldayan saat
zamanın işarəsidi.
Qarşıdakı göstərici –
ömrün dayanacağı...
Şüşəsilənin əlləri
alın yazısını silir yağışın,
göz yaşıma əlləri çatmır.
Radiodakı mahnı darıxmağımın səsidi.

Ömür yozulmayan yuxu,
Dəyişən fəsildi elə,
Həyatla ölüm yarışarsa,
Bəlkə, ömrün taqəti kəsildi elə.
Bu gecənin qaranlığında mənim kimi azanı var,
Ömrümüz də dəyişkəndi, baharı var, xəzanı
var,
Min bir yerə yozanı var...

Çəkil!
Çəkil gözümün önündən,
Qarşımı görmürəm...
Boğazımdakı qəhəri aç!
Nəfəs ala bilmirəm.
Çəkil gözümün önündən,
Ölümümə yol alacaqsan,
Çəkil!
Yoxsa qəzam olacaqsan!..

REKVİYEM...

Bəzən elə yanarsan,
Gecələr səssizliyin qoynunda uzanarsan.
Bir "sabahın xeyir"ə möhtac olar ürəyin,
Gəlməz gözlədiyin də...
İçindəki şaxtadan yerindəcə donarsan,
Özünü bu dünyanın ən bədbəxti sanarsan.

Bir daha görmək üçün min bir yalan uydurub,
özün də inanarsan...
Həqiqəti danarsan.
Gülüb acizliyinə
Özündən utanarsan...

Gəlməz səsi-sədası, gün dönüb gecə olar,
Yolunu gözlədiyin,
Anını izlədiyin,
Bilməzsən necə olar?!

Gecəsi uzun olar gəlməyən sabahların,
Yarımçıq yuxularda ona tərəf qaçarsan...
Beləcə sabahları bu kabusla açarsan,
Özün öz qucağında yorular, usanarsan...

Hər yazılan mesaj da, hər döyülən qapı da,
elə bilərsən, odur.
Ürəyinin doğması, ürəyinin yadı da
elə bilərsən, odur,
Damağının dadı da elə bilərsən, odur.
Bu qədər yox içində
hər şeyi itirərsən, heç nəyi qazanarsan.

Gəlməyəni gözləmək ağır olar, İlahi.
Nəfəs qədər özləmək ağır olar, İlahi.
Adını sayıqlayıb, yastığı qucaqlamaq,
hönkür-hönkür ağlamaq,
bütün arzularını açılmadan bağlamaq
ağır olar, İlahi.

Elə sınıxmışam ki, güzgülərə də yadam,
külü göyə sovrulan ocağı sönmüş odam.
Fəryadım qulağımı batırır eee, ay adam...
"Harda qaldın, ay qadam?!"

Qayıt, qurban olduğum,
həsrətin dağa dönüb
qəlbdə şişmədən qayıt!
Təqvimin son səhifəsi
qopub düşmədən qayıt!

TAVANACAN BƏSMİDİR?

Kükrəsə bu dərdi-sər,
Tufan qopar, yer əsər.
Kim bu naləni kəsər,
Qulağımda səsmidir?!

Ürək cavan, ruh qoca,
Baxma ağaran saça.
Sənsizlik səndən uca,
Tavanacan, bəsmidir?!

Tutmaq olmur dəmimi,
Ağlayıram sənimi?!
Ayrılıqlar səmimi,
Həsrət niyə rəsmidir?

Sətir-sətir azmadım,
Qələmlə gor qazmadım.
Bu şeiri mən yazmadım,
Hisslərimin rəsmidir...

AKAPELLA

Yağış yağır sənsizliyin üstünə,
Elə darıxıram... Havam çatışmır.
Sənin saçlarının sığal izləri,
Mənimsə getməyə yuvam çatışmır.

Yuvasız, yaralı qartal misalı,
Bu taydan o taya uça bilmirəm.
Qürurum dolaşır ayaqlarıma,
Qalxıb sənə doğru qaça bilmirəm.

Bu necə darıxmaq, bu necə möhnət?
Gözümdə boğulmur, qəlbimdə yanmır.
Mənim gözlərimdən içimə boylan,
Bulaq elə süzür, yaşı dayanmır.

Divarlar üstümə-üstümə gəlir,
Alışa bilmirəm sükut səsinə.
Darıxır telefon qulağım üçün,
Əlim də həsrətdir "yes" düyməsinə.

Bircə zəngin gələ, darıxdım deyə,
Söküb ürəyimi ovcuna qoyam.
Qaçam küçənizin tininə qədər,
Həsrətin sonuncu akkordun sayam.

Sığınıb bu eşqin şimşək səsinə
Dönürdüm yolunda dumana, çənə.
Mən idim gedəni ayrılıqların,
Sənsə məndən getdin, halaldır sənə.

İllərdi yol gələn ölüm kimiyəm,
Ağlım fikrə yatmır, əllərim işə.
Sən demə, gəlişlər fərqli olsa da,
Gedişlər eyni cür olur həmişə.

Getdiyin yolları tez qayıt deyə,
Arxanca su səpir bir cüt bulud göz,
Sevənlər öləndən sonra dincəlir,
Dözə bilirsənsə, bir azca da döz...

UŞAQLIĞIMA ELEGİYA

Böyümək istəməmişdim…
Uşaqlığımı oğurlayan hər kəs müqəssirdi.
Böyüdükcə əyilməyi,
əyildikcə görünməməyi,
görünmədikcə unudulmağı istəməmişdim.
O uşağı qaytarın mənə.
Körpə gözləriylə gülən –
məftildən araba sürən o uşağı...
Mən həyat sürməyi də bacarmıram heç.
O uşağı qaytar mənə, İlahi…

O mənim kimi deyildi,
O, çooox xoşbəxt idi.
Onda yurdu, yuvası da, onda suyu, havası da,
Dərmanı da, dəvası da
özündəydi o uşağın.
Dünyanın gözünü qamaşdırardı
gözlərinin işığı.
Onda xoşbəxt idi o da,
Dünyanın bütün uşaqları da.
Onda yaxın idi bütün uzaqları da...
Əlini uzadanda çatardı babasına,
Çatardı nənəsinə.
Nənəsi alıb onu sıxardı sinəsinə.
Bir noğul, bir nağıl onu uçurardı göylərə,
Öpərdi nənəsinin yanağından, əlindən,
Tullanıb asılardı babasının belindən.
Hələ onda qırğını, qan-qadanı bilməzdi,
Hələ onda ayrılıq, ölüm qonaq gəlməzdi.
Sağ idi nənəsi də,
Babası da sağ idi,
Dayısı, bibisi də, xalası da sağ idi.
Onda atasının da ayaqları iki idi,
Nə protez ayağı, nə çəliyi var idi –
"üçüncü ayaq" kimi,
Yolların qulaqlarını batırardı təpiyi,
təkməsi də,
Qapısının ağzında cüt idi çəkməsi də...

Onda hələ məzar-məzar itirməmişdi
doğmalarını,
Şəkil-şəkil boylanmırdı
Qara daşın sinəsindən əzizləri.
Barıt qoxumurdu onda havası,
Uçub dağılmamışdı hələ yuvası.
Kəndi də, kəsəyi də özündəydi o uşağın,
Yaşamaq ehtirası gözündəydi o uşağın...

Hələ onda atasının qara, şəvə saqqalına,
Anasının saçlarına düşməmişdi bəyaz dənlər.
Onda yuxuları da qaçqın düşməmişdi
doğulduğu o kənddən,
onda qayıdırdı bütün gedənlər...
Üzündəki nur yağışın onda infarkt bəzəmirdi,
Hələ onda anasının yaşı qırxın altındaydı.
Xəbərsizdi onda uşaq
Ululların üstün örtən torpağına
Bir az sonra qan yağacaq, yurdu qırğın
altındaydı...

İndi onun əcdadları yatan torpaq yağıdadır,
İndi onun vətən adlı naləsi var, harayı var.
Yoxdu onun uşaqlığı,
Yoxdu onun xoşbəxtliyi,
İndi onun əvəzində Vüqarı var, Tunarı var,
Nurayı var.
Darıxmışam o uşağın bapbalaca əllərriyçün,
Darıxmışam o uşağın sevinəndə topuq vuran
şirin-şirin dillərriyçün...

Qoşularaq o uşağın dincliyinə
İstəyirəm çıxıb gedim gəncliyimdən.
Mən savaşmaq istəyirəm,
Mən bezmişəm dincliyimdən...
Verin mənə o uşağı,
Utanıram gəncliyimdən!!!

Frans SİLLANPYAA: ÜÇ DİKTATORA BİR MƏKTUB

Ədəbiyyat üzrə 1939-cu ilin Nobel mükafatçısını bu gün, demək olar ki, heç kəs tanımır. Elə mükafat verilində də vəziyyət belə idi. Oz ölkəsində çox məşhur olsa da, bir-iki qonşu ölkəni çıxmaq şərtilə, vətənindən kənarda bu yazıçını tanıyan yox idi. Ədəbiyyat sahəsində ən nüfuzlu mükafatı ilk cəhddən qazana bilən ədiblər az olub. Namizədlərin çoxu bir neçə dəfə nominant olandan sonra laureat ola biliblər. Elələri də var ki, adları dəfələrlə namizədlər sırasına düşsə də, mükafatı ala bilməyiblər. XX əsrin birinci yarısında belələrinə misal olaraq Emil Zolya (Fransa), Maksim Qorki (Rusiya), Georq Brandes (Danimarka), Emil Verxarn (Belçika), Karel Çapek (Çexiya), Cek London (ABŞ) kimi dünya şöhrətli yazıçıların adlarını çəkmək olar. Onlardan daha dəyərli iki ədibin – dünya ədəbiyyatında "yeni dramaturgiyanın banisi" kimi qiymətləndirilən, pyesləri bu gün də dünyanın ən nüfuzlu teatrlarının səhnəsindən düşməyən, hekayələri dünyanın bütün dillərinə tərcümə olunmuş, neçə-neçə davamçıları Nobel mükafatına layiq görülmüş rus yazıçısı Anton Çexov və Norveç yazıçıısı Henrik İbsenin adları heç zaman namizədlər siyahısına da düşməyib. Reallıq budur, ədalətli olsa da, olmasa da...

1939-cu ildə mükafata layiq görülmüş fin yazıçısı Frans Sillanpyaanın adı 1930-cu ildən başlayaraq səkkiz il dalbadal namizədər sırasına düşsə də, mükafatı başqaları almışdı. Amma fasiləsiz olaraq səkkiz dəfə bu siyahıya düşmək də hər kəsin hünəri deyildi. Nəhayət, doqquzuncu şansda bəxt onun da üzünə güldü. Hərçənd ki, rəqibləri sırasında məşhur fransız şairi Pol Valeri, danimarkalı ədib, 1944-cü ildə Nobel mükafatı alacaq Yohannes Yensen, bütün Avropada tanınan alman nasiri və rəssam, 1946-cı ildə Nobel mükafatı alacaq Herman Hesse kimi görkəmli yazıçılar vardı. Namizədlər arasında rusiyalı mühacir yazıçı Mark Aldanov rekordçu kimi xüsusi maraq doğururdu. Bu, onun on üçüncü və sonuncu namizədliyi idi – sonra daha nominant olmadı və mükafatı da ala bilmədi...

F.Sillanpyaa Nobel mükafatına "Fin kəndlilərinin həyatına dərindən nüfuz etdiyinə, onların adət-ənənələrini və təbiətə bağlılığını möhtəşəm şəkildə əks etdirdiyinə görə" layiq görülmüşdü. Maraqlıdır ki, Nobel Komitəsi ardıcıl ikinci dəfə idi ki, "kəndlilərin həyatını əks etdirmək" motivini mükafatın verilməsi üçün başlıca arqument kimi götürürdü. 1938-ci ildə mükafat Çin kəndlilərinin həyatının

təsvirinə görə ABŞ yazıçısı Perl Baka, bir il sonra isə analoji təqdimatla fin yazıçısına verilirdi. Qeyd etmək lazımdır ki, onun mükafata layiq görülməsi haqqında İsveç Akademiyasının təqdimatı və Nobel Komitəsinin bu təqdimatı təsdiqləyən qərarı F.Sillanpyaanın yaradıcılığı haqqında tam dolğun təsəvvür yaradır.

Frans Emil Sillanpyaa 16 sentyabr 1888-ci ildə o zaman Rusiya imperiyasının tərkibində olan Finlandiyanın cənubunda – Xamenküre qəsəbəsi yaxınlığındakı Kiyerikkale kəndində kiçik torpaq sahibkarının ailəsində doğulmuşdu. Frans Emil hələ balaca ikən atası fin kəndliləri üçün səciyyəvi olmayan bir addım ataraq oğlunu oxutmaq qərarına gəlir və gələcək yazıçı orta təhsilini Finlandiyanın ikinci böyük şəhəri olan Tamperedəki liseydə alır. Bütün fənlərə maraq göstərsə də, boş vaxtlarını yalnız mütaliəyə həsr edən Frans Emil məktəbi bitirəndən sonra ali təhsil almağa vəsaiti olmadığına görə varlı bir fabrikantın evində onun uşaqlarının fərdi müəllimi kimi çalışmağa başlayır.

İki ildən sonra təhsil haqqını ödəyəcəyini vəd edən həmin sahibkarın təkidi ilə Helsinki Universitetinə daxil olur. İstəyi həkim olmaq idi, buna görə də tibb-biologiya fakültəsini seçir. Lakin tələbəlik dövründə Helsinkinin ədəbi mühitinə yaxınlaşan, gənc ədiblərlə ünsiyyət quran Frans Emil hələ tələbəykən ilk şeir və hekayələrini yerli mətbuatda çap etdirməyə başlayır. Gəncin qəlbində yaradıcılıq işinə həvəs təbabətə marağı üstələyir və o, 1913-cü ildə təhsilini yarımçıq qoyaraq kəndlərinə qayldır və özünü bütövlüklə ədəbi yaradıcılığa həsr edir. 1916-cı ildə Frans Emil Sigird Salomyaki adlı bir kəndli qızı ilə evlənir, 1917-ci ilin aprelində dünyaya gələn qızlarının adını Saara qoyurlar.

Frans Sillanpyaa əsərlərini fincə yazırdı. Finlandiya şəraiti üçün bu amili vurğulamağın xüsusi əhəmiyyəti vardır. Məsələ bundadır ki, fin yazılı ədəbiyyatı iki dildə yaradılır – doğma fin və isveç dillərində. Tarix boyu qonşu İsveç dövləti Finlandiyaya siyasi, iqtisadi və mədəni cəhətdən çox güclü təsir göstərib. Bütün xalqlarda olduğu kimi, finlərin də şifahi xalq ədəbiyyatı (o cümlədən dünyaca məşhur "Kalevala" dastanı) tarix boyu yalnız öz dilində yaradılıb. Ancaq obyektiv reallıq belədir ki, fin peşəkar ədəbiyyatı meydana gələndə müəlliflərin bir qismi əsərlərini isveç dilində yazmağa başladı. Bu fakt həmin əsərlərin məhz fin ədəbiyyatı nümunəsi olmasını inkar etmir. Əslində, belə bir situasiya bizə də tanışdır. Bizim də orta əsrlərdə əsərlərini farsca, müasir dövrdə isə rusca yazan yazıçılarmız var.

Maraqlıdır ki, isveç və fin xalqları, həmçinin dilləri arasında etnik və linqvistik doğmalıq, yaxınlıq yoxdur. İsveç dili Hind-Avropa dilləri ailəsinin german dilləri qrupunun Skandinaviya yarımqrupuna aiddir. Norveç və Danimarka dilləri ilə yaxın, alman və holland dilləri ilə uzaq qohumdur. Asiya mənşəli fin dili isə iltisaqi dillər ailəsinin şimali Ural dilləri qrupunun Baltik yarımqrupuna daxildir. Karel, uqor, eston dilləri ilə yaxın, mari, mordva, udmurd dilləri ilə uzaq qohumdur. Ümumilikdə belə bir nəticəyə gəlmək olar ki, isveç və fin xalqları arasındakı yaxınlıq etnokulturoloji yox, geopolitik xarakter daşıyır.

F.Sillanpyaanın ilk yazılarında ənənəvi dini baxışlarla universitet təhsilindən irəli gələn müasir materialist dünyagörüşünün elementləri sintez şəklində özünü göstərir. 1916-cı ildə nəşr etdirdiyi "Həyat və günəş" romanı uğurla qarşılanır. Ədəbi tənqid qeyd edirdi ki, bu əsər debüt üçün kifayət qədər yüksək peşəkar keyfiyyətlərə malikdir. Qanlı müharibə getdiyi bir zamanda əsərin gənc qəhrəmanları bir-birinə və təbiətə bəslədikləri saf məhəbbət duyğularının qoynunda xoş günlər yasayırlar. Təkcə gənclik dövründə deyil, ustad yazıçı kimi məşhurlaşdığı illərdə də insanların mənəvi dünyası, fərdi duyğu və yaşantıları onu ictimai problemlərdən daha artıq maraqlandırır. Həyatı boyu şahidi olduğu çox ciddi ictimai-siyasi hadisələrdən, müharibə və inqilablardan bir dəfə də olsa, əsərləri üçün mövzu materialı kimi istifadə etməyib.

F.Sillanpyaanın təltif olunması haqqında Nobel Komitəsinin qərarında deyildiyi kimi, onun yaradıcılığı ilk növbədə fin kəndlilərinin həyat tərzi, təbiətə bağlılığı məzmununa görə

mükafata layiq görülmüşdü. "Həyat və günəş" romanından başlayaraq yazıçı insan qəlbinin dərinliklərinə nüfuz etməyə çalışır. Əsərlərinin qəhrəmanları cəmiyyətdə cərəyan edən ziddiyyətli, qanlı-qadalı hadisələr fonunda təbiətin gözəlliyindən, məhrəmliyindən zovq almağı, onun saf qüdrətindən həyat enerjisi toplamağı bacarırlar. Müəllif hadisələrin cərəyan etdiyi zamanda – inqilablar və müharibələr dövründə insanın insaniliyini qoruması üçün təbiətə bağlanmasını yeganə çıxış yolu kimi götürür.

Həmin dövrdə çap olunmuş digər bir kitabına – "İnsan övladları həyat axarında" toplusuna daxil etdiyi hekayələrdə müəllif avtobioqrafik detallara əsaslanaraq yoxsul tələbə oğlanın başına gələn əhvalatları təsvir edir. Bu novellalarda o, sosial problemləri ön plana çəksə də, siyasi-ideoloji motivləri çox qabartmamışdı. Ən uğurlu nəsr əsəri hesab edilən "Şərəfli yoxsulluq" (1919) romanında yazıçı cəmiyyəti vətəndaş müharibəsinə gətirib çıxaran qarşıdurmaların, ictimai ziddiyyətlərin köklərini üzə çıxarmağa çalışır. Əsərdə baş qəhrəman Yuxa Tayvolanın həyat yolu və onun fonunda fin cəmiyyətinin inkişaf tarixi 1860-cı ildən 1918-ci ilə qədər izlənilir. Bu roman 1930-cu ildə nəşr ediləndən sonra qitənin otuzdan artıq dilinə tərcümə olunaraq müəllifini bütün Avropada tanıtmağa başlayır. Elə həmin ildən də onun adı ilk dəfə Nobel mükafatına namizədlər sırasında çəkilir. Bu əsərin nəşrindən sonra yazıçı yoxsulluğun cəngindən də xilas olur. Onun kitabları vətənində və xarici ölkələrdə böyük tirajlarla çap olunaraq müəllifə yaxşı qazanc gətirir.

Sonrakı illərdə bir-birinin ardınca nəşr olunan "Xiltiy və Raqna" (1923), "Mələklərin qanadı altında" (1923), "Dağlarda ev" (1925), "Şükür sənə, İlahi" (1928) kimi hekayə kitabları müəllifin bütün Skandinaviyada tanınmasına səbəb olur. Bu minvalla 20-ci illər boyu məhsuldar çalışan yazıçının 1931-ci ildə irihəcmli "Haqqa erkən qovuşanlar" romanı nəşr olunur. Onun ardınca "Bir kişinin yolu" (1932), "İnsanlar yay gecəsində" (1934) romanları işıq üzü görür. "Bir kişinin yolu" əsərində müəllif belə bir qənaətə gəlir ki, həyatda öz yolunu tapmaq istəyən əsl kişi ilk növbədə öz əqidəsini və öz qadınını tapmalıdır.

F.Sillanpyaanın əsərlərinin cap olunandan dərhal sonra isveç dilinə tərcümə edildiyini, bu tərcümələrin eyni zamanda Norveçdə də yayıldığını, Kareliya və Estoniyada isə orijinaldan oxunduğunu nəzərə alsaq, oxucularının sayının Finlandiyadakından üç-dörd dəfə çox olduğunu anlamaq olar. Gənclik dövründə o, yazı üslubuna görə özünü 1920-ci ilin Nobel mükafatçısı, həmin illərin ən dəbdə olan müəllifi, Norveç yazıçısı Knut Hamsuna oxşatmağa çalışsa da, mütəxəssislərin rəyinə görə, əsərləri daha çox ingilis yazıçısı Çarlz Dükkensin üslubunu xatırladır.

"Haqqa erkən qovuşanlar" romanı isə müəllifinin şöhrətini bütün Avropaya yayır. Əsər atasının vəfatından sonra tamam kimsəsiz qalan bir kəndli qızının acı taleyindən, üzüntülü həyat yolundan bəhs edir. Kənd camaatı nə qədər onun qayğısına qalsa da, doğmalarının yerini heç nə vermir. "Özgə qapılarında" keçirdiyi iztirablı günlər nəticəsində vərəmə tutularaq erkən yaşlarında "haqqa qovuşur". Bu qəhrəmanın timsalında yazıçı tükənməkdə olan bir nəslin son nümayəndəsinin şəxsində mənəvi saflığın, təmizliyin sona yetdiyini, "haqqa qovuşduğunu" nümayiş etdirir. Bununla yazıçı təkcə dünyadan köçənlərin deyil, həm də dünyada qalanların qismətini göstərmək istəyir.

"İnsanlar yay gecəsində" əsərində müəllif eyni bir kənddə, eyni bir yay gecəsində müxtəlif personajların başına gələn hadisələrdən bəhs edir. Bir-biri ilə kəsişməyən, paralel cərəyan edən üç hadisə poeziyavari yüksək bədii üslubda qələmə alınmışdır. Epik əsər olmasına baxmayaraq, bu romanın yazı üslubu üçün lirik əsərlərdə daha çox müşahidə edilən daxili monoloq tərzi səciyyəvidir. Süjet xəttinin şaxəliliyinə, surətlərin çoxluğuna baxmayaraq, bu romanın əsas qəhrəmanı və əsas tərənnüm hədəfi Finlandiya təbiəti, Finlandiyanın bəyaz gecələridir. Ədəbi tənqid romanı yalnız ideya və məzmununa gorə deyil, həm də dil və üslub məziyyətlərinə görə yüksək qiymətləndirmişdi.

30-cu illərin əvvəllərində çap olunan kitabları F.Sillanpyaanı dünyada ən yaxşı fin

yazıçısı kimi tanıdır. Elə bu zamandan da yazıçı geniş ictimai fəaliyyətlə məşğul olmağa başlayır. 1917-ci ilin Oktyabr İnqilabına qədər çar Rusiyasının tərkibində olan Finlandiya da imperiya asılılığında olan digər ölkələr kimi müstəqillik qazanır. Lakin sonrakı üç ildə davam edən vətəndaş müharibəsi nəticəsində keçmiş imperiyanın başqa ərazilərindən (o cümlədən Azərbaycandan) fərqli olaraq, Finlandiyada "qırmızılar" (bolşeviklər) deyil, "ağlar" qalib gəldiyinə görə bu ölkəni yenidən Rusiyanın asılılığına qaytarmaq mümkün olmur. Amma cəmiyyətdəki "sollar" – "sağlar" parçalanması və onlar arasındakı kəskin qarşıdurma 30-cu illərə qədər davam edirdi ki, bu da fin xalqının öz taleyini müəyyənləşdirməsinə mane olurdu. Buna görə də F.Sillanpyaanın ictimai fəaliyyətinin əsas məqsədi ölkəsindəki bu qarşıdurmanı aradan qaldırmaq, milli barışığa nail olmaq idi. Fin xalqının milli özünüdərk amalının formalaşmasında, dünya dövlətləri ilə münasibətlərin nizamlanmasında, nəhayət, Finlandiyanın müasir dünyada ən yüksək həyat səviyyəsinə, firavanlığa nail olmuş ölkələrdən biri kimi yaşamasında F.Sillanpyaanın ideyalarının mühüm rol oynadığını finlər bu gün də etiraf edirlər.

Siyasi mövqeyinə gəlincə, yazıçı ömrü boyu heç bir partiyanın üzvü olmasa da, əqidəcə liberalizm tərəfdarı idi və bu səbəbdən də dünyanın bir sıra ölkələrində totalitar rejimlərin hökm sürməsi onu ciddi narahat edirdi. Məhz buna görə də yazıçı 1938-ci ilin sonlarında – Milad bayramı ərəfəsində Avropanın üç diktatoruna – Sovet kommunist rejiminin rəhbəri İosif Stalinə, Almaniya nasist rejiminin füreri Adolf Hitlerə və İtaliya faşist rejiminin başçısı Benito Mussoliniyə açıq məktubla müraciət edir. Müraciətdə onları öz xalqlarını və dünyanı fəlakətə sürükləməkdə ittiham edərək bu gün başında durduqları xalqların tarixdə onların yox, Dante, Höte, Tolstoy kimi, həqiqətən, böyük oğullarının adları ilə yer tutacağını bildirir. Həmin günlərdə dünyanın qanlı fəlakətlər ərəfəsində olduğunu anlayan, daxili narahatlıq keçirən humanist baxışlı xadimlər az deyildi, ancaq XX əsrin tiranlarına qarşı açıq ittihamla çıxış etməyə ondan başqa heç kimin cəsarəti çatmamışdı. Bu fakt həm də ona görə xüsusi maraq doğurur ki, F.Sillanpyaa təbiətən cəsur, mübariz bir adam deyildi, əksinə, hər şeyə ehtiyatla, hətta qorxu ilə yanaşırdı. Bu cəsarət də onda, görünür, müharibədən çox qorxduğuna görə yaranmışdı. Bu məqamda yazıçının məşhur bir kəlamı yada düşür: "Qaçılmaz ölüm qarşısında hətta qorxaq da cəsarətlənir". Hadisələrin gedişi fin yazıçısının öz qorxulu proqnozlarında haqlı olduğunu sübut etdi. Heç bir il keçməmiş militarist qarşıdurmaların nəticəsi olaraq, tarixin ən qanlı savaşı – İkinci Dünya müharibəsi başlandı. Qeyd etmək lazımdır ki, fin yazıçısının dünyanın ən nüfuzlu mükafatına layiq görülməsində bədii əsərləri ilə yanaşı, bu məktubun da həlledici rolu olmuşdu.

Müharibədən əlavə, həmin il F.Sillanpyaanın həyatı qəm və fərəh dolu iki hadisə ilə əlamətdar oldu. 1939-cu ilin yazında iyirmi ildən artıq birgə xoş günlər keçirdiyi ömür-gün yoldaşı Sigird sətəlcəm xəstəliyindən vəfat etdi. Bu hadisə onun bütün varlığını sarsıtdı, dərin psixoloji böhran keçirməsinə səbəb oldu. Hətta həmin ilin payızında ölkəsində ilk dəfə Nobel ödülünə layiq görülməsi belə yaşadığı acıların yanğısını azalda bilmədi.

Hətta həmin il mükafatın ənənəvi təqdimat mərasimi də keçirilmədi, çünki artıq dörd ay idi ki, müharibə başlanmışdı, dünyada həqiqi mənada qan su yerinə axırdı. Bundan sonra Nobel mükafatlarının verilməsində dörd illik fasilə yarandı. Xoş olmayan bir təsadüf ucbatından elə həmin illərdə F.Sillanpyaanın öz yaradıcılığında da məcburi bir fasilə yaranır. Həyat yoldaşının qəfil ölümü ilə bağlı keçirdiyi ağır psixoloji sarsıntı və çəkdiyi ağrıları alkoqol buxarında ovutmaq cəhdləri onun psixikasının tamam pozulmasına gətirib çıxarır və yazıçı 1941-1944-cü illəri ruhi xəstəliklər klinikasında təcrid şəraitində keçirməli olur. Müalicədən sonra – 1945-ci ildə çap etdirdiyi "İnsan həyatının gözəlliyi və iztirabları" adlı publisistik kitabı məruz qaldığı yaşantılar barədə düşüncələrini əks etdirir. 40-cı illərin axırlarında yazıçının üç cildlik xatirələri nəşr olunur. Bir

qədər özünə gələrək ədəbi fəaliyyətini bərpa etsə də, o, əvvəlki enerji və məhsuldarlıqla işləyə bilmir. 50-ci illərdə, əsasən, hekayə yaradıcılığı ilə məşğul olur.Bundan əlavə, ömrünün son iyirmi ilində Finlandiyanın Dövlət radiosunda həftədə iki dəfə efirə gedən radio verilişlərinin daimi aparıcısı kimi çıxış edir. Verilişlər ölkənin ən nüfuzlu ziyalısının cəmiyyət üçün lazımlı, insanlar üçün maraqlı saydığı mövzularda həmvətənlərinə müraciətlər formasında düşünülmüşdü. Bu verilişlər ona əlavə nüfuz, xətir-hörmət qazandırır və çox keçmədən bütün ölkə miqyasında onu "Baba" deyə çağırmağa başlayırlar.

Frans Emil Sillanpyaa 1964-cü il noyabrın 3-də 75 yaşında Helsinkidə vəfat edir. Ölümündən sonrakı onilliklər ərzində F.Sillanpyaanın həyat və yaradıcılığına münasibətdə təbii dəyişmələr baş verir. Ədəbi ictimaiyyət və oxucular onu ideal yazıçı saymaq xülyasından uzaqlaşırlar. Bu, ilk növbədə onun əsərlərinin ideya və məzmun istiqamətləri ilə bağlı idi. Çox dərin urbanizasiya prosesindən keçərək şəhər həyatının normaları ilə yaşamağa alışmış fin cəmiyyəti üçün patriarxal kənd həyatı və onu vəsf edən ideyalar daha maraqlı deyildi. Buna baxmayaraq, Finlandiyanın ədəbiyyat üzrə yeganə Nobel mükafatçısı F.Sillanpyaa fin ədəbiyyatı tarixində novator bir yazıçı kimi öz dəyərini bu gün də saxlamaqdadır. Çünki söz sənəti yalnız mövzu və ideyadan ibarət deyil. Ədəbiyyat ilk növbədə insan xarakterlərinin, insanın mənəvi dünyasının və psixologiyasının ifadəsi deməkdir. F.Sillanpaanın adını, sənətini yaşadan da budur.

Hər bir həqiqi ədəbiyyat kimi, onun əsərləri də öz xalqının tarixi yaddaşını, fin insanının mənəviyyatını, duyğular aləmini və düşüncə tərzini, finlərin bir toplum olaraq başqalarına nə ilə bənzədiklərini və nə ilə fərqləndiklərini dünyaya göstərməyə, tanıtmağa xidmət edir. Fin xalqını bilavasitə görüb tanımaq imkanı olmayan hər bir insan üçün Frans Sillanpyaanın əsərləri bu məqsədə xidmət edən ən yaxşı vəsait sayıla biiər. Deməli, o təkcə finlərə yox, bütün dünyaya lazımdır.

Frans Sillanpyaanın aforizmlərindən seçmələr

– Gündüzün təəssüratları gecənin röyalarını yaradır.

– Məhəbbət çətin sınaqdır – ona hər adam dözə bilmir.

– Hər bir insan gec, ya tez dünyada tamam tənha olduğunu başa düşür.

– Bahar keçmişi tez unudur.

– Həyat həm də ona görə gözəldir ki, bizdən könül sirlərimizi açmağı tələb etmir, əksinə, onları gizlətməyə kömək edir.

– Yaşlı adamın ölümü dünyadan can qurtarmaq kimi bir şeydir.

– İnsan ömrünə ölüm anından nəzər salsaq, onun necə qısa və cansıxıcı bir epizodu xatırlatdığını görərik.

– Yay səhərinin gecə baş verənlərdən əsla xəbəri yoxdur.

– Həyatın gözəlliyi poeziyanın həmişə can atdığımız idealı kimidir – sanki yanındasan, amma əlin çatmır.

– Bayramqabağı günlər bayramın ən gözəl anlarıdır.

– Həyatdakı bütün ciddi məsələlərin əsasında məhəbbət durur.

– Ailəsinin heç nədən qorxmadan onu gözlədiyini bilən kişi xoşbəxtdir.

İlham ABBASOV

Bəsti ƏLİBƏYLİ

AÇ ÖZÜNÜ, BAĞLAMA

(Kamranın hekayəsi)

Tələbə vaxtı bir qıza vurulmuşdum, di gəl ki qız nişanlıydı. Bu səbəbdən sevgim lal doğuldu və ömrümdə bir kəlmə də kəsmədim onunla. Amma düz beş illik universitet həyatım həmin sevginin güdazına getdi.

İş həyatıma başlayanda bir başqa qıza vuruldum və onda başa düşdüm ki, ilk sevgim, həqiqətən yaşanmış hiss deyilmiş. Yəni vurulduğun insanla bir dəfə də olsun oturub-durma, söhbətləşib kəlmə kəsmə, yalnız uzaqdan-uzağa baxmaqla olmaz. İkinci sevgimsə daha realdı birinciyə baxanda. Düzdü, şair demişkən, onda da vəsli-xumar bir şey olmadı. Amma tam xəyal gücünə də bir hiss deyildi. Qız özü də duyurdu ona vurulduğumu. Onun da mənə biganə olmadığı qarşılaşarkən üzündə dolaşan intizardan, dodaqlarına qonan sirli təbəssümdən bəlli olurdu. Uzun bir dəhlizin iki tərəfə ayırdığı eyni idarədə qapısı üz-üzə açılan otaqlarımız belə hər gün sükutun sehrli bir sözlə pozulacağını gözlədi. Lakin dilim qıfıllanmış kimi bu səfər də sükutu poza bilmədim... Qəribədi ki, həmin o ikinci dövr də hardasa beş il çəkdi və dalbadal iki nonsensdən sonra mənim sevgiyə münasibətim dəyişdi.

Necə deyim sənə, – pis-yaxşı, hər kəs şəkil çəkə bilir, amma hər kəs böyük rəssam ola bilmir. Hər kəs zümzümə eləyə bilir, amma hər kəs Bülbül, Zülfü, Xan kimi oxuya bilmir. Həyatımın on ilini alan iki lal sevgidən sonra anladım ki, sevmək özü də böyük bir qabiliyyət və istedaddı. Hər kəs kimisə istəyə bilər, amma hər kəs sevməyi bacarmaz. Həyatıma bu nəticədən baxanda gördüm ki, mən sevməyi bacarmıram, hətta sevsəm belə, o sevgini ifadə edə bilmirəm. Yaxşı ki, bu kəsirimi anlamaqdan doğan üzücü iztirablarım daha dağa-daşa düşmədən, dədə-baba qaydasıyla evlənib sakit bir ailə qurmağımla başa çatdı.

Bir neçə il sonra ermənilərin Topxanada törətdiyi təxribatlar, Meydan hərəkatı, ardınca 20 Yanvar qətliamı baş verdi. Hala-duruma, uşağa, qocaya baxmadan hər kəsin gülləbaran edilməsi, paytaxtın qana boyanması çox dərin bir psixoloji dəhşət içinə saldı məni. Uzun müddət şəhərdən matəm havası çəkilmədi, elə bil hamımızı güllələmişdilər. İçimizdə çox şeylər öldü o qanlı müdaxilədən sonra, elə şeylər ki, indi onların heç birini geri qaytarmaq mümkün deyil, necə ki, həlak olan insanlarımızı geri qaytarmaq imkansızdı. Bizim içimizdəki aləmi həlak etdilər o gün. 20 Yanvara qədər mənim içimdə tam ayrı bir aləm vardı, iyirmi yanvar gecəsi qırmızı ulduzlu tanklar, pulemyotlar küçələrə çıxan insan kütləsini tırtılların altında əzib biçdiyi, güllələdiyi kimi, mənim içimdəki o aləmi də güllələdilər. Ona görə mən öz həyatımı 20 Yanvara qədər bir cür təsəvvür edirəm, 20

Yanvardan sonra isə tamam özgə cür. O gün Azərbaycanda, təkcə fiziki cəhətdən deyil, mənəvi cəhətdən da bir çox ömürlərə son qoyuldu və yeni bir insan ortaya çıxdı. Gülü, çiçəyi, həyatı və ya kimisə sevmək, ona gül bağışlamaq, öz payıma deyirəm, mənə ağır gəlirdi o gündən sonra. İndi deyə bilmərəm, mənim yaşadıqlarım tamamən 20 Yanvarla bağlıydı, ya əvvəlki həyatımla da bir bağlantısı vardı. Hər halda, mənə belə gəlirdi ki, torpağımız qana boyandığından yalnız suların üstündəki göy üzü təmizdir. Və sadəcə, psixoloji durumdan deyil, məntiqlə baxanda da su üzündəki göy üzü torpaq üzərindəki göy üzündən çox təmizdir. Çayın üstündəki göy üzü isə çayın qırağındakı göy üzündən daha təmizdir. Mən bu hisslərə ədəbiyyatda rast gəlməmişəm, elə özümün yaşadıqlarımdı ki, sənə danışıram. O zaman bu cür misralar qaraladım cib dəftərimdə:

Daha mavi sular da vahiməlidir nəsə,
Yaşamaq mümkün deyil daha
nəfəs-nəfəsə…

Fikir verirsən, su özlüyündə bir nur olsa belə, o nurun özü də vahimə oyadırdı insanda. Nə başını ağrıdım, çox qəribə hallar keçirirdim o faciədən sonra. Bir dəfə, söz vaxtına çəkər, təxminən elə indiki kimi mayın əvvəlləriydi, əynimdə nazik plaş vardı, hava elə soyuq olmasa da, canımda bir üşütmə hiss edirdim. Filarmoniyanın bağıyla endim dəniz qırağına, açıq çayxanada oturub limonlu çay sifariş verdim. Çayçı çayı əlüstü gətirdi, amma nazik limon dilimləri bürüşüb şirəsi soğulmuşdu. Yumşaqca gülümsünərək, bunu dəyiş, – dedim,- bir az şirəli olsun. Bu dəfə bir diri limon gətirdi çayçı, gözümün qabağında dilim-dilim doğradı, bir çaynik çay da yanında. Çayı qaynar-qaynar içdim, limon dilimlərini isə çaya salmadan, üz-gözümü turşuda-turşuda yeyib bitirdim. Sanki limon aclığı gəlmişdi mənə.

Çaydan sonra dəhşətli bir aclıq hiss etdim. Yəqin ki, limon da öz işini görmüşdü. Harda yüngül bir şey yeyə biləcəyimi düşünə-düşünə hesabı masanın üzərinə qoyub qalxdım. Bir az gedəndən sonra baxdım ki, yeriməyə, harasa getməyə taqətim qalmayıb. Sahil məhəccərinə söykənib bir az dənizə, qağayılara tamaşa elədim.

Qırmızı bir gün çıxsa da, üşütməm getməmişdi. Yaxınlıqdakı skamyada oturub kürəyimi günəşə verdim. Günəşin şəfəqlərinin həlim sığalıyla bir vaxtda arxamda xəfif hənirti və xışıltı duyub ürpəndim. Dönməyə macal tapmamış, elə mən yaşlarda, amma saçı-başı ağarmış cavan bir kişi arxadan fırlanaraq gəlib önümdə durdu. İşlənmiş dəftər vərəqinə bükülü iki pirojki vardı əlində. Salam verdikdən sonra köhnə tanışlara xas bir təbəssümlə "İcazə versən, bu pirojkiləri bölüşərik" – dedi. Üzündə elə doğmalıq, səmimilik vardı ki, oğlanın ikinci təklifini gözləmədən pirojkilərdən birini alıb yedim.

Amma adam oturmadı, pirojkidən bir dişləm alıb söhbətə başladı:

– Sizi belə gördüm, gəncliyim yadıma düşdü. Vaxtilə mən də Bakıda oxumuşam, indi rayonda yaşayıram. Bir-iki günlüyə gəlmişdim, dedim, bir bulvara, xatirələrimə baş çəkim. Baxdım sizə… Açığını deyim ki, dəhşətli dərəcədə özünü bağlamış adama oxşayırsız. Amma bu heç də yaxşı şey deyil, aç özünü, bu qədər qıfıllı saxlama. İnsan özünü bağlayanda fəlakət baş verir, təklənir, həyat bağları qopur. Bir bax, görürsən ağaclar nə gözəl çiçək açıb, hələ çiçəklər ustündə arılara bax! Dur, gəziş, heç olmasa o çiçəklərdən qoxla. Bir də deyirəm, bağlama özünü…

Kişinin bu son sözləriylə mənim dönüb ona baxmağım arasında nə qədər vaxt çəkdi, bilmirəm, önümə baxanda onu görmədim. Mən insanların dalınca baxmağa utanmışam həmişə. Bu dəfə maraq güc gəldi, sağa-sola baxdım, gördüm yoxdu, adam artıq çıxıb getmişdi…

Həə, qımışırsan … Yəqin, fikirləşirsən ki, qara basıbmış məni. Amma mən tam əminəm ki, o, canlı adam idi. Mənimlə qardaşca bölüşdüyü qismətini, isti pirojkini də yedim, hətta bu dəqiqələrdə o pirojkinin bol kartoflu, azacıq bibərli dadını belə xatırlayıram. Nə demək istədiyimi anlayırsan də… O sürrealizm dediyiniz qarabasma, hallüsinasiya, qızdırmalı

təxəyyül kimi şeylərdən mənim də xəbərim var, üstəlik, özüm özümü də bilirəm, odur ki, buna mistik don-filan geydirmək fikrinə düşməyəsən.

Harda qaldım...hə, adam anidən peyda olub, anidən yox olandan sonra onun dedikləri, min ilin dostu kimi ərkyana tövsiyələri barədə uzun-uzun fikirləşdim. Həftəsonu yenə bulvara enib kürəyimi günəşə verdiyim o skamyanı tapıb oturdum, bir siqaret yandırıb damağıma qoydum, filtrsiz, acı siqaretin burum-burum tüstüsüylə bərabər, yeni düşüncələr də çıxdı gün üzünə. İndi mən buna şeir deyirəm də, sənə görə nə qədər şeirdi, özün biləssən:

Haranısa oyub gəlir, çalıb-çapıb soyub gəlir,
Dərd adamı sayıb gəlir,
dərdi qapıda saxlama.
Bezdirmə dərdi, bezdirmə, aç özünü,
dərdə bağlama.

Yəni, mənə belə gəlir ki, bəzən biz dərdi özümüzə çox doğmalaşdırmaqla bezdiririk onu. Yaxanı aç, burax, quş kimi uçub getsin də, həm dərd azad olsun, həm özün. İçində saxlayıb gizləyəndə vərdişli olursan dərdə. Vərdişsə pis şeydi, istər dərd olsun, istər sevinc. Həyat ağlı-qaralıdı, olduğu kimi qəbul eləmək lazımdı onu. Bəlkə də, tam deyə bilmədim, amma başıma gələnlər budu.

Aç özünü, bağlama. Sözə bax, sən Allah! Təkcə dərd deyil ki, insanın özünün düşüncələrində də bir tıxanma baş verir bəzən. Arxda suyun qabağını xəzəl, ot-ələf kəsib çiləkən yaratdığı kimi, düşüncə də duraqlayıb tıxanır. Bəzən də biz özümüz-söhbətdi eləyirik də – gərəkli-gərəksiz bir çox şeylərin quluna, köləsinə çevrilirik. Bu köləlik əxlaqın, adət-ənənənin, nəfsin, eqonun quluna çevrilmək kimi bir çox şeylərdə göstərir özünü. Bir şeyə nə qədər aludə və alışıq olursan, o qədər onun köləsinə çevrilirsən. Dərd də belədi, onu sinəndə çox gəzdirdikcə yaxana daha bərk yapışır. Çünki o da sevilmək, bir fağır kümə bulub yerini rahatlamaq istəyir. Başı qarğaşadan, azar-bezar və uğursuzluqdan açılmayan adamlar haqqında – filankəsin qaraçuxası yatıb – deyirlər ha, məncə, burda bədxah, bədnəzər, düşmən barmağı axtarmaq lazım deyil, altdan geyinib üstdən qıfıllanmaqla adam özü yatırır qaraçuxasını.

Artıq mən çox şeylərin üstündən adlayıb keçmişəm. Bircə azadlığı basıb keçə bilmədim, çünki azadlıqdan keçmək o möhtəşəm duyğunu tankların tırtılları altına atıb əzmək kimi bir şeydi. Hərçənd ki, biz azadlıq duyğusuna sahiblənmək üçün öz canımızı tankların altına atdıq, qul olduq, qurban olduq azadlığımıza. Demək, azadlığın qulu olmaq bütün hisslərdən üstündü və mən özümü bu üstün köləlikdən qurtara bilmədim, əslində, özüm də qurtulmaq istəmədim ondan. İndi, o nədi desəm, üzdə olmasa da, içində yenə güləcəksən mənə, eh, – ay Kamran, sən də mi kürsü pafosuna uydun? – deyəcəksən. Amma, vallah, yox, billah, yox. Özün bilirsən ki, mənnən deputat-filan olmaz. Mən olsam, professional bir riyaziyyatçı ola bilərdim, di gəl ki bir dəfə televizorda Səttar Bəhlulzadənin əsərlərinə baxanda riyazi aləmə açılan qapılar da üzümə bağlandı. İnsan əliylə yaradılan o möhtəşəm gözəllik içimdəki bütün maddi şeylərin üzərini birdəfəlik qapatmaqla bərabər, sanki mənə, ey adam, bəs sən hardasan, nədə təcəllisən? – deyə bir ismarış da verdi. Bax hələ Nəcib Fazil Qısakürək nə deyir: "Rüzgar bizim qapını hər gün aralar, keçər. Gördüyüm hər gözəl şey məni yaralar, keçər". Sanki mənim kimi içi duyğuyla dolu, amma o duyğuları bişirib ortaya çıxara bilməyən insanlar üçün deyilmiş sözdü. Nə olsun, ürək var, dünyanın bizə həyatı sevdirən gözəlliklərinə bir şey qata bilməmək iztirabı məni öz gözümdən saldı.

Adam ki öz gözündən düşdü, özündən, özgədən qaçar,
Yerişi-duruşu xoşuna gəlməz, öz gözündən düşən kəsi
Gül əzər, incidər çiçək, hər şey deyilmiş ürək…

Təbii ki, mən bu şeiri də tamamlaya bilmədim, 20 Yanvarda qırılan ömürlər kimi, yazdığım bütün şeirlər də yarımçıq qaldı…

Yavər HƏSƏN
(Rusiya)

O QATAR ÖMRÜMDƏN GEDƏN QATARDI

Baharlar payıza büküldü, getdi,
kölgələr ağacdan töküldü, getdi,
sonuncu adam da çəkildi, getdi,
sonuncu qucaq da itirdi məni.

Ömür qənşərimə yaralı düşdü,
mən düşdüm, – oralı-buralı düşdüm.
O evdən, eşikdən aralı düşdüm,
o doğma ocaq da itirdi məni.

O qatar ömrümdən gedən qatardı,
ömrüm o qatarda olsa, nə vardı...
Gözlərim yol çəkdi, o yol apardı,
apardı, uzaqda itirdi məni.

MƏN HƏLƏ HƏMƏNKİYƏM

Mən hələ həmənkiyəm, –
diriyəm ölü kimi.
Qoxlayıram dünyanı
cəhənnəm gülü kimi.

Gözüm gözümə özgə,
özüm özümə tərsəm.
Dünya küçələrini
gəzirəm sərsəm-sərsəm.

Cavab tapa bilmirəm
bu məndəki mənə mən.
Ömürdən min il keçib,
həmənkiyəm yenə mən.

Gözlərim sınıq ayna,
canım soyuq bir evdi.
Allah, mənə sevgi ver,
özümü mənə sevdir.

TƏKİ ÜRƏK OLSUN...

Mənimçün məhəbbət Allah kimidi,
fikrimdə, sözümdə hər zaman birəm.
Ürək, elə zənn et, özgə cibidi,
mən cibgir deyiləm, ürəyə girəm.

Mənim istədiyim gül ayrı güldü,
yada tikanı var, mənə qoxusu.
Biz vəslə yetməmiş ayrılıq gəldi,
səndə göz olmadı, məni oxusun.

Yeri kənar yerdə kənar qucaq gəz,
sənin ki sevginin hasarı yoxdu.
Məndən kənar dolan, məndən uzaq gəz,
əlimdə xoşbəxtlik açarı yoxdu.

Mən özümdə mənəm, sən özündə sən,
mənə də, sənə də – açıq qapılar!
Təki ürək olsun, sevə biləsən,
sevməyə hər zaman adam tapılar.

GETMİŞƏM

Ağıldan itkinəm, huşdan didərgin,
ağıldan qeyb olub, huşdan getmişəm.
Üstümə qar yağır – burum-burum qar,
mən elə bilirdim qışdan getmişəm.

Bağlanıb qapıtək yollar üzümə,
mən hardan yol tapım, gəlim özümə?
Kirpiyim ox olub, batıb gözümə,
kiprikdən inciyib, qaşdan getmişəm.

Fikrim bir qanadlı quş olan deyil,
uçub bir kimsəyə tuş olan deyil.
Ürəyim heç kimə daş olan deyil,
başım daşa dəyib, daşdan getmişəm.

Ey Sən, öz sözümdə, səsimdəyəm mən,
bircə Allah bilir, nə simdəyəm mən.
Zamansız bir aləm içindəyəm mən,
insanı qocaldan yaşdan getmişəm.

BAŞIMI BİR YANA QAÇIRAMMADIM

Dəmimdə qarlayan bahar fəslidi,
qəmimdə gül açan qışdı bu sevda.
Qonur gözlərimi qeyri nəzərdən
qoruyan kirpikdi, qaşdı bu sevda.

Söz-söz açılıram can kələfimdən,
çıxır qaranlığım dan kələfimdən.
Həqqi sevdiyimdən HƏQQ tərəfindən
könlümə kəsilən “iş”di bu sevda.

Özüm öz üstümə uçuram, qadın.
sirrimi mən Sənə açıram, qadın.
Başımı bir yana qaçırammadım,
başıma daş kimi düşdü bu sevda.



Fərqanə YUSİFQIZI
(Türkiyə)

ÜŞÜYƏCƏK SEVGİMİZ...

Görəsən, pəncərəmdə
Hansı fəsildi indi?
Nə fərqi var,
fəsillər
yenə həsrət qoxuyur.
Havanın istisi də,
Ayazı, sərini də
Sənin havanı çalır,
Ayrılıqdan oxuyur.

Dərdlərimin içində
Təzə dərdlər cücərib.
Hər budağı sən adda,
Hər yarpağı sevgimiz.
Yoxsan,
Dərbədər gəzir
Yollarında gözlərim.
Sevdalar məskənidi
Bizim görüş yerimiz...

Deyəsən, külək əsir,
Bağlayım pəncərəni.
Açıq qalsa, bilirəm,
Üşüyəcək şeirimiz...

YAĞIŞ YAĞAR

Yağış yağar ürəyimin küncünə,
Yağar, yağar, dərd-sərimi təmizlər.
Yağış yağar ürəyimin küncünə,
Susuz qalar təşnə torpaq, gen düzlər.

Yağış yağar gözlərimin içinə,
Gözüm dolar, boşalmağa tələsər.
Qoşularam bəxtsizlərin köçünə,
İzlər itər, arxamızca yel əsər.

Yağış yağar hisslərimin üstünə,
Hissim donar, sevdamızı isitməz.
Tənhalığım yaman durar qəsdimə,
İslanaram, yağan yağışsa kəsməz.

Yağış yağar, dayanmadan hey yağar,
Göyün yerə sevgisini bildirər.
Yagış yağar urəyimə, hey yağar,
Dərd-sərimi damla-damla öldürər.

DÖNSƏN, İSLANACAQSAN...

Getdiyin o payız günündən
Neçə-neçə mövsüm keçdi,
Amma mən, o payızdayam,
Mən o getdiyin yoldayam hələ.
Sarı-sarı,
Yarpaq-yarpaq tökülmüşəm.
Yağan yağışda damcı-damcı islanmışam,
Rüzgar-rüzgar üşümüşəm...
Mövsümlər bir-birini hey qovar.
Payız, qış, bahar, yay və yenə payız
Keçib gedər sıra ilə...
Keçməyən xatirələr var
və bir də
gecələr var keçib getməyən...
Payız mövsümləri var: heç bitməyən.
Daha pəncərəmə günəş boylanmır,
quşlar da sabahlar oyanmır.
Mənim də hafizəmdə çox yox,
üç-dörd parça xoşbəxtlik qalıb, vəssəlam...
Mövsümlərdən payızdı yenə də,
yenə yağmur var küçələrdə...
Dönsən, islanacaqsan,
gedərkən unutmusan,
çətirin qalıb məndə...

BU GECƏ...

Bu gecə gözləri açıq yatacam,
Görüm ki, yuxuma necə gəlirsən.
Təkliyi birgünlük silib atacam,
Sən bunu bacaran yeganə sirsən.

Bu gecə gözləri açıq yatacam,
Gözlərin zülmətdə işıq sacacaq.
Bu gecə yuxumu sənə satacam,
Bu gecə biz oyaq, hər kəs yatacaq.

Bu gecə gözləri açıq yatacam,
Bəlkə, mələklər də qonaq gələcək.
Gözünün sehrində itib batacam,
Ulduzlar sevinib yallı gedəcək.

Bu gecə gözləri açıq yatacam,
Əllərim uzalı qalacaq göyə.
Günəşə yalvarıb dilə tutacam,
Qoy sənli gecəmiz uzansın deyə...

İNDİ SƏNƏ YAXINAM

İndi sənə yaxınam,
Arada bir şəhər var.
Amma qovuşmaq üçün
Nə axşam, nə səhər var.

Şəhərlər arasında
Körpüdü göz yaşlarım.
Gözünə görünər hey
Hər yerdə baxışlarım.

Görməz tüstünü kimsə,
Bitər harayın, hayın.
Susuz yanar ürəyin,
Soyuyar isti çayın.

Hiss edərsən gəlmişəm,
Uzatsan, əlin çatar.
Bu sevgini uzağa
Çoxdan aparıb qatar.

Lap tutaq ki, görüşdük,
Borc alarsan vicdanı.
Bu sevginin məzarda
Axı quruyub qanı.

Bu şəhərdə sən adlı
Nə sevgi var, nə nifrət.
Unut baxışlarımı,
Daha eyləmə minnət.

İndi sənə yaxınam,
Arada bir şəhər var.
Amma qovuşmaq üçün
Nə axşam, nə səhər var.

TƏKİ VƏTƏN SAĞ OLSUN

İndi neynirsən, görən,
Yenə səndən yox xəbər.
Ürəyim səksəkədə
Aman, dəyməsin xətər.

Bax, yenə də sevdiyin
Yeməyi bişirmişəm.
Onu da sənə görə,
Bəlkə də, sevirmişəm.

Soyuq keçir havalar?
Danış, gəlsin sorağın.
Görəsən, üşümür ki
Çəkmələrdə ayağın?

Dostun gəlmişdi axşam,
Xeyli səndən danışdıq.
Uşaqlıq illərindən
Xatirəyə qarışdıq...

Gecə yuxu görmüşəm,
Əlindəydi yarağın.
Şuşada yellənirdi
Azərbaycan bayrağı.

Canım oğlum, möhkəm dur,
Evin dərə, dağ olsun.
Mən birtəhər dözərəm,
Təki Vətən sağ olsun!

KENDZABURO OE

(Yaponiya)

MƏĞLUBLAR

Hekayə

Maşın məktəbin qabağındakı meydançada dayandı, beş Amerika əsgəri və dilmanc maşından düşdü. Dilmanc yapon idi. Kənd əhli ürkək-ürkək və oğrunca gələnlərə sarı boylandı.

Dilmanc camaata yaxınlaşıb çığırdı:

– Hanı kəndxuda?! Çağırın onu!

Kəndlilərlə birgə baxışları ilə gələnləri izləyən oğlanın atası irəli yeridi. Oğlan həyəcanla atasının dilmanca verəcəyi cavabı gözləyirdi.

– Kəndxuda mənəm, – dedi atası.

– Biz axşam sərininə qədər sizin kənddə dincəlmək istəyirik. Sizi çox narahat eləməyəcəyik, işinizdə olun...

– Məktəbdə rahatlana bilərsiz, – kəndxuda ürəklə dilləndi.

– Qoy camaat gedib işləsin, biz də istirahət eləyək... – dedi dilmanc, şabalıdı saçlı əsgər onun qulağına nəsə pıçıldadı. – O deyir ki, mehriban qəbula görə çox sağ olun, – dilmanc izah elədi.

Şabalıdı saçlı əsgər istiqanlılıqla gülümsündü. Yığışanlar dilmancın sözünə məhəl qoymayıb yerlərindən tərpənmir, əcnəbi əsgərlərə yaxşı-yaxşı baxmağa çalışırdılar.

– Gedin işləyin, – dilmanc təkrarladı.

– Qayıdın işinizin üstünə, – dedi kəndxuda.

Nəhayət, adamlar həvəssiz-həvəssiz, arxaya boylana-boylana çıxıb getdilər. Məktəbin həyətində yalnız uşaqlar qaldı. Əsgərlərin gəlişi onları azca qorxutmuşdu.

Günorta isti dözülməz olanda əsgərlər çayda çimməyə getdilər. Uşaqlar sahildə oturub diqqətlə onlara tamaşa eləyirdilər. Axır ki, hardasa yubanmış dilmanc da gəlib çıxdı və tüksüz bədəni tünd sarıya çalan tərcüməçi qasığını tuta-tuta ehtiyatla suya girəndə uşaqlar bərkdən gülüşdü.

Əsgərlər ucadan danışa-danışa geyinib məktəbə qayıdanda dilmanc onların arasında deyildi. Bir azdan o, daşlı-çınqıllı yolla ayaqyalın gələndə əsgərlər də uşaqlara qoşulub gülüşdü. Hirsindən qapqara qaralmış dilmancsa əsgərlərə nə isə deməyə başladı və əsgərlər qəhqəhə çəkdilər, əsgərlərin qəhqəhəsini eşidib uşaqlar da gülüşdülər.

Dilmanc uşaqların yanına gəlib yalın ayaqlarını yerə vurdu:

– Mənim çəkmələrim hardadı?!

Uşaqlar gülüşməyində idilər.

– Bəsdi güldüz! – dilmanc qəzəblə qışqırdı. – Yəqin, siz oğurlamısız...

Uşaqlar gülüşlərini kəsib heyrətlə dilmanca baxdılar.

Bu dəfə o, sakitcə dedi:

– Hə, kim götürüb mənim çəkmələrimi?

Cavab verən olmadı. Əcnəbi əsgərlər məktəbin həyətindəki talvarda gündən gizlənərək ayaqyalın dilmancla uşaqların arasında nə baş verəcəyini gözləyə-gözləyə məzələnirdilər.

– Kəndxudanı çağırın! Qoy tez gəlsin! – dilmanc əmr elədi.

Kəndxudanın oğlu evə qaçdı, ata-anası öləziyən ocağın işığında bambuk təmizləyib dəstələyirdi.

– Nədi? – oğlunun nəsə demək istədiyini görüb atası xırıltılı səslə soruşdu.

– Dilmancın çəkmələri itib, bilmir neyləsin, – oğlan birnəfəsə üyütdü. – Səni çağırır...

– Mən neyləyim? – atası deyindi. – Nə bilim o əclafın çəkmələri hardadı? – desə də, qalxıb oğlunun ardınca çıxdı.

Camaat maşının ətrafına toplaşıb dilmancın hekayətini dinləyirdi, alnında tər damcıları puçurlanmış kəndxuda onlara yaxınlaşdığından dilmanc danışdığını təkrarlamalı oldu:

– Mən çimində çəkmələrimi oğurlayıblar, oğurluq sizin kənddə olub. Deməli, cavabdeh sizsiz... Qaytarın mənim çəkmələrimi...

Kəndxuda sakitcə kəndlilərə baxıb yenə üzünü dilmanca çevirərək başını buladı.

– Mən cavab gözləyirəm... – dedi dilmanc.

– Bu işin mənə dəxli yoxdu... – kəndxuda dilləndi.

– Sizin kənddə oğurlanıb, – dilmanc əl çəkmədi. – Deməli, məsuliyyət bütün kəndin üzərinə düşür...

Kəndxuda:

– Mən nə bilim oğurlanıb, oğurlanmayıb, – dedi. – Bəlkə, onları çay aparıb?..

– Mən çəkmələrimi pal-paltarımla eyni yerdə – sahildə çıxartmışdım, çay onları apara bilməzdi...

Kəndxuda bərkdən camaata səsləndi:

– Aranızda çəkmə oğrusu var? – cavab almadıqdan sonra dilmanca: – Görürsüz, yoxdu, – dedi.

Hiddətdən dilmancın nazik dodaqları titrədi:

– Məni axmaq yerinə qoyub baş-beynimi aparma!

Kəndxuda susdu.

– Çəkmələr orduya məxsusdu, – dilmanc onun üstünə düşdü. – Başa düşürsən hərbi əşyanı oğurlayanı nə gözləyir? – əlini yelləyib əsgərlərlə bir xeyli pıçıldaşdı. – Biz sahili axtaracağıq, kömək eləyin! – qışqırdı.

Sahildəki axtarışdan bir şey çıxmadı, hamı yenə yorğun-arğın məktəbin qabağındakı meydançaya yığışdı.

Dilmanc təzədən kəndxudanı çək-çevirə saldı:

– Yəqin, sən kəndinizdəki oğrunu tanıyırsan. Qoy boynuna alsın...

Kəndxuda:

– Bizim kənddə oğru yoxdu... – dedi.

– Yalan demə, elə bilirsən məni aldatmaq asandı? – dilmanc qəzəblə çığırdı. – Hərbi əşyanı oğurlayanı mən yerindəcə güllələyə bilərəm. Sən bunu istəyirsən?

Kəndxuda cavab vermədi. Dilmanc hikkə ilə ona baxdı. Şabalıdı saçlı əsgər dilmanca sakit-sakit nə isə pıçıldadı, dilmanc qeyri-ixtiyari başını tərpətdi, sonra çılğınlıqla şabalıdı saçlı əsgərə nə isə sübut eləməyə çalışdı və yenə üzünü camaata tutdu:

– Mən bütün evlərdə axtarış aparmalı olacam. Oğurluq çəkmələri gizlədən həbs ediləcək. Çəkmələri öz xoşuna gətirib qaytaransa əfv olunacaq. Yalnız üzr istəməyi kifayətdir...

Hamı bir-birinə dəydi. Dilmanc uşaqlara doğru bir addım atdı:

– Uşaqlar, bilmirsiz çəkmələr kimdədi? Düzünü deyən mükafatlandırılacaq...

Cavab almadıqda yenə əl-qolunu ölçə-ölçə əsgərlərlə əcnəbi dildə danışmağa başladı, nəhayət, şabalıdı saçlı əsgər başı ilə razılığını bildirib məktəbə girdi, dilmancsa başını dik tutub:

– Mən bütün evlərdə axtarış aparacam, – dedi. – Hərbi ləvazimatı oğurlayan cəzalandırılacaq. Ardımca gəlin! – əmr elədi. – Gözünüzün önündə olacaq axtarış... Hərbi əşya tapılmayınca heç kəsə özbaşına hərəkət eləməyə icazə verilmir.

Kəndlilər qımıldanmadı.

– Nəyi gözləyirsiz?! – qışqırdı o. – Deyəsən, mən dedim axı ardımca gəlin... Kömək eləmək istəmirsiz? – onun səsi açıq havada əks-səda verdi.

Kəndlilər əlləri qoynunda lal-kar durmuşdular. Dilmanc hirsindən əsir, gözləri qaynayır, qəzəblə ətrafa boylanırdı.

– Arxamca gəlin! Evbəev axtarış aparacam...

– Gedək, – kəndxuda razılaşdı.

Hamı dilmancın dalınca düşdü. Günün ən qızmar vədəsi idi. Hiddətlənmiş dilmanc yalın ayaqlarını isti daşların üstünə qoyub atılıb düşə-düşə elə yeriyirdi ki, uşaqlar gülüşməyə başladı. Əsgərlərin də dodağı qaçdı.

Axtarış qurtarmamış əsgərlər gedə bilməzdi. Onların bəzisi maşına söykənmişdi,

bəzisi məktəbdə dincəlirdi. Uşaqlar əsgərlərin sakitliyinə sevinirdilər. Axtarışın uzanmağı hamını darıxdırırdı, dilmancsa yorulmaq bilmədən axtarmağında idi. Yaşlılar onun evləri ələk-vələk eləməyinə kirimişcə baxır, uşaqlarsa məktəbin həyətində maşına söykənən əsgərlərin verdiyi saqqızı çeynəyirdilər.

Bu axtarış da, deyəsən, hamını bezikdirmişdi. Günəş dağların arxasında gizləndi, külək qalxdı, çəhrayı meşədə yaşıl otlar ürpəndi. Axşam düşürdü...

Dilxor olmuş dilmanc kəndlilərin müşayiətilə yorğun-üzgün məktəbin həyətinə qayıtdı. Onun yalın ayaqları tərdən və tozdan qapqara qaralmışdı. O, məktəbə girib baş verənləri əsgərlərə danışdı. Əsgərlər daha gülüb eləmirdilər, gözləməkdən yorulmuşdular, hamısı qaşqabaqlı halda silahlarını götürüb bayıra çıxdı.

Dilmanc camaata:

– Siz mənə kömək eləməlisiz... – bu dəfə onun səsində yalvarış da vardı. – Mənə kömək eləmək, qalib orduya yardım göstərmək deməkdi. Yaponlar qalib orduya yardım etmədən yaşaya bilməzlər. Siz məğlub ölkənin sakinlərisiz... Qaliblər sizin hamınızı güllələsə də, heç kim onları günahlandıra bilməz. Yalnız axmaqlar mənim sözlərimi qulaqardına vurar...

Hamı dinməz-söyləməz ona baxırdı.

Dilmanc yenə qəzəblənib barmağı ilə kəndxudanı hədələdi:

– Oğurlanmış əşya tapılmayınca biz heç yerə gedən deyilik. Əsgərlərə desəm ki burda qiyam üçün silah gizlədilib, onlar kənddə qalıb axtarışa başlayacaqlar. Əsgərlər sizin kənddə qalsa, gündüzlər dağlarda gizlənən arvadlarınızın, qızlarınızın başına nələr gələcəyini yaxşı bilirsiz axı... – dodaqlarını gəmirib baxışları ilə kəndlilərin arasından qətiyyətsizini axtarırdı. – Nədi, mənə kömək eləmək istəmirsiz?..

– Sizin çəkmələrdən heç kəsin xəbəri yoxdu. Yəqin, onları çay aparıb, – kəndxuda özünü ələ almağa çalışaraq yavaşca dedi. – Biz neyləyə bilərik ki?

– Əclaf! – dilmanc kəndxudaya yumruq vurdu.

Kəndxudanın təhər-tövrü bir elə pozulmadı, yalnız çənəsini ovuşdurdu. Qurumuş dodaqlarının arasından qan şırımlandı. Oğlan atasının sifətinə qızartı çökdüyünü gördü.

– Əclaf! – hirsindən təngnəfəs olmuş dilmanc təkrarladı. – Hər şeyə sən cavabdehsən. Oğrunun kim olduğunu söyləməsən, mən əsgərlərə deyəcəm ki, oğru elə sən özünsən. Qoy səni tutub qalib ordunun hərbi polisinə aparsınlar.

Kəndxuda dinməzcə dönüb ağır addımlarla aralandı. Oğlan hiss elədi ki, atası qəzəbdən boğulur. Dilmanc çığırıb kəndxudanı saxlamağa çalışsa da, o, uzaqlaşmaqda davam elədi.

– Dayan, oğru, qaçma! – dilmanc bağırıb yanındakı əsgərlərə əcnəbi dildə nə isə dedi.

Cavan əsgər də avtomatı ayağa çəkib xarici dildə nəsə çığırdı. Kəndxuda qanrılıb avtomatlı əsgəri gördü və qəfil varlığını bürüyən qorxudan var qüvvəsi ilə qaçmağa başladı. Dilmanc anqırdı, cavan əsgərin avtomatı gurladı. Kəndxudanın qolları havada yelləndi və o, üzü üstə yerə dəydi. Kəndlilər kəndxudaya sarı cumdular.

...Gecə düşdü, döşəməyə sərilmiş meyitin yanında oğlan və anası qaldı. Anası kişisayağı əllərini dizinə qoyub kirimişcə oturmuşdu. Oğlan da lal-dinməz pəncərədən qaranlığa baxır və qaranlıqda gah işaran, gah öləziyən kəndlilərin kölgəsini sezirdi. Nəhayət, kəndlilər qapını döymədən içəri girdilər. Oğlan əyilib başını anasının sinəsinə qoydu, anası oğlunun saçlarını oxşadı. Kəndlilər qapının ağzından qolboyun olmuş ana-balaya baxırdılar. Hər yan lal, sakitdi, elə bil otaqda kimsə yox idi. Kəndlilər səbirlə dayanmışdılar, ana-balanı isə sanki don vurmuşdu. Axır ki, oğlan qətiyyətlə anasının əlini kənar eləyib qalxdı və gələnlərə qoşulub evdən çıxdı.

...Səhər əsgərlər çayın qırağından dilmancın qaxaca dönmüş meyitini tapdılar...

...Və sonra heç nə olmayıbmış kimi maşına minib gedəndə şabalıdı saçlı əsgər onların ardınca etinasızlıqla boylanan fındıqburun oğlana qızılı kağıza bükülmüş konfet tulladı, oğlansa yerə düşən konfetə gözucu da baxmadı...

Tərcümə edəni:
Mübariz Cəfərli

ƏLİ ƏMİRLİ – USTAD DƏRSLƏRİ

"Ulduz" jurnalı ilə "525-ci qəzet"in birgə layihəsi

IV DƏRS: PYESİN ƏSAS KOMPONENTLƏRİ



Süjet və onun qurulması. Pyesi təşkil edən bütün komponentlər, onlar arasındakı qarşılıqlı əlaqələr nə qədər əhəmiyyətli olsa da, mənə görə, pyesin ən vacib, ən çətin komponenti onun süjetidir. Bunu başqa cür ifadə etsək, deyə bilərik ki, pyesdə əsas olan strukturdur. Təcrübə göstərir ki, bu gün Azərbaycan dramaturgiyasını yaradan dramaturqların əksəriyyəti, hətta kifayət qədər təcrübəli dramaturqlar belə çox vaxt strukturun əhəmiyyətini düzgün qiymətləndirmirlər. Halbuki, strukturu olan binanı inşa etmək daha asandır. Ev çox şeylərdən ibarətdir, əsas olan isə üçdür: döşəmə, tavan və divarlar. İlk baxışda bu primitiv misalın pyeslə heç bir əlaqəsi yoxdur, amma diqqət eləsək, görərik ki, süjet özü də konstruksiyadır. Fərq ondadır ki, bu konstruksiya öz təbiətinə görə intellektualdır, emosionaldır. O, tirlərdən, dirəklərdən deyil, fikirdən, ideyadan tikilir, kərpicləri isə sözlər əvəz edir.

Süjetin strukturu üç komponentdən ibarətdir: başlanğıc, orta və son. Bu üçtərkibli süjet strukturunu mən demirəm, iki min beş yüz il qabaq Aristotel deyib. Süjetin başlanğıcı o hissədir ki, ondan əvvəl heç nə olmayıb. Ən çətin məqam da elə bu başlanğıcdır. Nədən başlamalı? Pyesin ilk hadisəsini yazan dramaturq mütləq buna fikir verməlidir. "Doğrudanmı bu, başlanğıcdır? Bəlkə, yazdığın dörd səhifə artıqdır, elə beşinci səhifədən başlayasan? Əgər heç nə dəyişmirsə, doğrudan da, niyə beşdən başlamayasan?"

Süjetin xeyli mürəkkəb tərifləri var, mən tərif deməyəcəm, sadəcə, süjeti necə başa düşürəm və yazı prosesində ona necə əməl edirəm?

Süjet – pyesdə baş verən hadisələr zənciridir, pyesin əsas kateqoriyasıdır. Süjet əsas qəhrəmanın xarakterindəki toqquşma, münaqişə, qarşı-qarşıya dayanma və onun başqa personajlarla münasibətləridir. Süjet obrazın tam açılmasına doğru qət edilən hərəkətdir. Əslində isə əsas məsələ hadisələrin özündə deyil, onların necə təqdim edilməsindədir. Dramaturqun peşəkarlığı da məhz bu yerdə özünü göstərir.

Bir az əvvəl dedim ki, əsərin hardan, hansı hadisə ilə başlanmasının böyük əhəmiyyəti var, bəlkə də, başlanğıc pyesin həlledici hissəsidir. Burda öz təcrübəmə aid bir misal çəkim. Çox sevdiyim, amma səhnə üzü görməmiş "İki aktrisa üçün baş rol" adlı pyesimi bir vaxtlar Azdramanın direktoru İsrafil İsrafilova təqdim etdim. O, pyesi oxuyub, prinsipcə bəyəndi, amma pyesin lazım olan yerdən başlamadığını dedi, daha doğrusu, o hesab edirdi ki, pyesin ekspozisiya hissəsi çox uzanıb, heç bir hadisə də

baş vermir. Mən direktorun fikri ilə tam razı olmasam da, əsərə yenidən, məhz tənqidçinin gözü ilə baxdım və pyesi tamaşaçının diqqətini dərhal səhnəyə yönəldəcək bir hadisə ilə başladım. Deyim ki, bu dəyişiklikdən özüm də razı qaldım, baxmayaraq ki, əsərin oynanmasına mane olan obyektiv maneələr çıxdı ortaya. Ümumiyyətlə, çox vaxt keyfiyyətindən asılı olmayaraq, səhnə üzü görməyən əsərlər həmişə olub, olacaq da. Taleyin, qismətin tək insanlara yox, pyeslərə də dəxli var.

Onu da deyim ki, hər təzə pyesi yazmağa başlayanda heç vaxt ideya haqqında düşünmürəm, mənim üçün ən vacib olan maraqlı, orijinal süjetdir. Süjet ideyadan, konsepsiyadan deyil, təsadüflərdən, hadisələrdən, əməllərdən başlayır. İdeya isə süjetin özündən doğur. Ümumiyyətlə, yazanda mən dramaturgiyanın nəzəri məsələləri haqqında düşünmürəm. Bir dəfə özünü haqlı olaraq dram nəzəriyyəsinin bilicisi hesab edən mərhum professor Aydın Dadaşov dedi ki, bilirsən niyə sənin əsərlərin uğur qazanır? Mən bu niyənin cavabını ondan pis bilməsəm də, soruşdum: "Niyə?" Dedi, sənin əsərlərində fabula var, fabulasız pyes, dramaturgiya cansızdır, ölüdür. Mən də cavabında dedim ki, Aydın müəllim, mən yazanda fabula, kompozisiya, konflikt haqqında düşünmürəm, sadəcə, yazıram.

Dramaturji qaydaların əsiri olmaq yazıçı təxəyyülünü, yazıçı fantaziyasını buxovlayır. Bernard Şou demiş, qaydalar onları pozmaq üçün uydurulub. Bəlkə də, Şou haqlıdır, amma qaydaları o zaman poza bilərsən ki, əvəzində yeni və əhəmiyyətli bir şey yaradasan, lap elə Bernard Şounun özü kimi. Amma qətiyyən o fikrə düşməyək ki, dramaturq təkcə istedadına güvənməli, qəbul olunmuş qaydalardan, dram nəzəriyyəsindən sərf-nəzər etməlidir. Qəti şəkildə yox! Aşıq bədahətən şeir deyə bilər, yazıb-oxumağı bacarmayan adam da qoşma qoşar, bayatı çağırar, dramaturqa isə geniş mütaliə, münasib təhsil, hərtərəfli yüksək mədəni səviyyə, erudisiya və zəngin həyat təcrübəsi lazımdır. Ən vacibi isə dramaturq teatrı bilməli, onu sonsuz məhəbbətlə sevməlidir. Mən Azərbaycanda özünü həm də dramaturq hesab edən yazıçı tanıyıram ki, öz əsərlərindən başqa heç bir tamaşaya baxmır, çünki o, teatrı yox, teatrın gətirəcəyi şöhrəti sevir, ona susayır. Bəlkə, başqa səbəblər də var, onu bilmirəm.

Keçək süjetin əsas komponentlərindən birincisinə:

Ekspozisiya pyesin, dediyim kimi, başlanğıcıdır. Ekspozisiyada qəhrəmanların təqdimatı, hadisənin baş verdiyi məkan və zaman (kim, harada, nə vaxt), personajların qarşılaşması və bir-birlərinə münasibətləri

haqqında müfəssəl məlumat verilməlidir. Ekspozisiya qısa və orijinal yazılmalıdır. Ekspozisiya tüfəngdən açılan atəş kimi təsirli olmalıdır. Münaqişə vəziyyətində olan tərəflərin ilk toqquşması da məhz ekspozisiyada baş verir, nəticədə düyün yaranır, yəni ekspozisiya düyünün yaranması ilə bitir.

Düyün isə konflikti doğuran vəziyyətdir. Düyün konfliktli xətti-hərəkətdən əvvəlki iki hazırlıq mərhələsindən keçir: 1. konfliktli situasiya;

2. kolliziya (qəhrəmanlar anlayırlar ki, gectez aralarında münaqişə baş verəcək).

Pyesdə xətti-hərəkətin inkişafı ən böyük və vacib şərtdir. İnkişafın özündə kulminasiyaya hazırlıq gedir, konflikti gücləndirən hadisələr baş verir, yeni informasiyaların aşkarlanması od üstünə yağ kimi tökülür, mübarizə alovlanır, dartışma son həddə – kulminasiyaya çatır. Kulminasiyadan əvvəl peripetiya deyilən gözlənilməz hadisədən danışmaq istəyirəm.

Peripetiya – gözlənilməz hadisə düyündən kulminasiyaya qədər olan vəziyyəti gərginləşdirən komponentdir. Gözlənilməz hadisə dram əsərinin canıdır, onu baxımlı edən, tamaşaçını heyrətləndirən, sarsıdan, hadisələrə kəskin dönüş verə bilən, dramaturqdan yaradıcı fantaziya tələb edən elementdir. Əslində, gözlənilməz hadisə – peripetiya tamaşaçının yaxasından yapışan qarmaqdır, bu qarmaq onun diqqətinin başqa yerə yönəlməsinə mane olur, qalan müsbət məqamlar isə nəticədir, bu nəticəyə tamaşaçını hazırlamaq lazımdır, amma çalışmaq lazımdır ki, gözlənilməz hadisə göydəndüşmə olmasın, onun təbii motivi, səbəbi görünməlidir. Qəfil dönüş zorən, müəllif diktəsi ilə olmamalıdır. Ümumiyyətlə, qəfil dönüşə hazırlıq bir qədər örtülü, "niqablı" olmalıdır, bu hazırlıq bir az əvvəldən başlamalı, tamaşa boyu inkişaf etməli, yetişməlidir.

Dramaturgiyamızın banisi M.F.Axundzadənin, C.Məmmədquluzadə, Ə.B.Haqverdiyev və C.Cabbarlının dram əsərləri güclü peripetiyalarla zəngindir.

Kulminasiya konfliktin ən yüksək nöqtəsi, zirvəsidir, burdan o yanası yoxdur. Məsələn, çoxumuza məlum olan bir misal: saray qeybətlərindən, dedi-qodulardan, kübar cəmiyyətin istehzalarından, təhqiramiz atmacalarından cana doyan Puşkin şərəfini, ləyaqətini qorumaq üçün Danteslə duelə çıxır: onlar üz-üzə dayanıblar. Bu, ölüm-dirim savaşıdır. Hər iki rəqib bir-birini nişan alır. Əsəblər son həddə gərilib, tamaşaçılar hadisənin nə ilə bitəcəyini bilsələr də, onların əsəbləri daha çox tarımdadır. Bax bu məqam hadisələrin, mübarizənin ən gərgin nöqtəsi – kulminasiyasıdır. Əsl fəlakətin özü, yəni tapançanın açılması və Puşkinin ölümcül yaralanması artıq açılışdır. Çünki, bir qayda olaraq, kulminasiyadan sonra açılış gəlir.

Açılış yekundur, daha doğrusu, yekunlaşdırıcı inkişafdır, dediyimiz kimi, dərhal kulminasiyadan sonra gəlir.

Final isə pyesdə baş verən hadisələrin nəticəsi, yekunlaşdırıcı komponentidir.

Beləliklə, biz pyesin süjeti, süjetin özü və əsas komponentləri haqqında danışdıq. Amma bunlar hələ hamısı deyil. Pyesin özünün bütövlükdə komponentlərini saymaqla qurtarmır: personajlar, replikalar, dialoqlar, kompozisiya, səhnə və epizodlar, süjetin növləri, konflikt və onun növləri...

Əlbəttə, süjetin adlarını çəkdiyim və haqqında qısaca məlumat verdiyim komponentlərinin hər biri ayrılıqda bir neçə dərsin mövzusudur, onlardan yaradıcı prosesdə necə istifadə etmək isə artıq dramaturqun fəhmindən, zövqündən və intuisiyasından asılıdır. Öz işinin ustası olan peşəkar dramaturq pyesi yazıb bitirəndə məlum olur ki, ekspozisiya, düyün, konflikt, inkişaf, kulminasiya, açılış və final dramaturji qaydalara tam uyğundur. Hətta pyesin həcmi də öz-özünə 50-52 səhifəni aşmayıb. Bu, əlbəttə, peşəkarlıqdır. Dramaturgiyanı özünə hobbi deyil, peşə seçmiş bütün dramaturqlara bu peşəkarlığı arzulayıram.

Rəşid FAXRALI

NƏ GÖZƏL DURULAŞIB HƏKƏRİNİN SULARI!

Həsrəti olanlara elə gəlir ki, zaman ləng ötür. Min illər belə yaşanılıb. Zalım da belə yaşayıb, zalıma qılınc sıyıranlar da. Zalım zalımlığının səfasına sığınıb, qılınc sıyıranlar sıyrılmış qılıncların bir-birinə sarılan işığına. Qılınc sıyırma mübarizə əzmidi, qılıncların işığının bir-birinə çulğaşması mübarizə yolunun uğuru. 28 ildi mahiyyəti 2020-ci ilin sentyabrının 27-si olası günü arzulayırdıq. Düşmənin danışıqlardan yayınması atəşi heç zaman kəsməyən atəşkəsin birdəfəlik silkələnməsini, elan edilmədən başlayan və 28 il davam edən müharibəni Azərbaycanın ədalətli müharibə kimi davam etdirməsini zəruriləşdirmişdi...

İşğaldan azad edilən ərazilərmizdə bu gün Azərbaycan bayrağı dalğalanır – Zəfərin nəticəsi kimi...

Vətən müharibəsindən əvvəl birində mahiyyəti 27 sentyabrın mahiyyətinin eyni olası günü milli-xəlqi ruhun döyüş əzminin kükrəyiş günü, həmin fəsli milli-xəlqi ruhun fəsli adlandırmışdım. Ruhumuzun fəslinin tezləşməsini necə arzulayırdıq, necə! – bu niyyət yuxularımızda gecələyirdi, gecələri bu niyyətlə səhər eləyirdik...

Vətən müharibəsinə kimi səngərlərdə söhbətləşəndə nə deyirdi əsgərlər? – Ali Baş Komandanın əmriylə döyüşmək, torpaqlarımızı işğaldan azad edənlərin sırasında olmaq istədiklərini, İsa bulağından bir ovuc su içməyə, Cıdır düzündən üç çiçək dərməyə (niyə üç? – əsgərlərdən biri demişdi ki, birini müəllimimə verəcəm, birini evimizə aparacam, birini ... Fikrini tamamlamamışdı...) murazlı olduqlarını...

Vətən müharibəsinə kimi əsgərlərimizin döyüş əzmi, qələbə ruhu gündüzlər səngərlərin sinəbəndinə, gecələr işığına dönürdü. Bu əzm, bu ruh təmas xəttinin haləsiydi, Ana, Vətən, Ana Vətən deyənlər bu haləni məmləkətin niyyətinin eyni bilirdi...

Vətən müharibəsi labüd idi...

Vətən müharibəsi başladı.

Azərbaycan əsgəri hər döyüşü son döyüş bilib döyüşürdü...

Vətən müharibəsi vətənpərvərliyin işğalçılığa qarşı müharibəsiydi, xalqın müharibəsiydi, azərbaycançılığın ermənilikə döyüşüydü, sevginin nifrətlə, Xeyirin Şərlə qazavatıydı, min illərin o üzündən dikələn ruhumuzun müharibəsiydi...

Vətən müharibəsində Azərbaycan əsgərinin döyüş hazırlığı da, mənəvi-psixoloji hazırlığı da düşməni diz çökdürəcəkdi...

Döyüşlərin ilk günlərində Azərbaycan ordusu düşmənin illərlə hazırladığı, möhkəmləndirdiyi, təkmilləşdirdiyi müdafiə sədlərini darmadağın etdi...

2016-cı ilin aprelində Lələtəpənin zirvəsində qürurla dalğalanan bayrağımıza bağır basmışdım, bu anların zəmanətiylə yazdığım "Lələtəpə" poemasını Lələtəpəyə xitabən

Sağın da, solun da yollardı,
Burdan
Şuşaya aparan yollar görünür...

misralarıyla tamamlamışdım. O misralar bir istəyin göy qurşağı kimi 56 ay bu niyyətimin qılıqçısı olmuşdu. Onda Şuşaya da, işğaldan azad ediləcək rayonlarımıza da aparacaq yolların hamısının yolçusu olmaq keçmişdi könlümdən. İndi o yollardan biri ilə Cəbrayıla, Zəngilana, Qubadlıya gedirik. Vətən müharibəsində iştirak etmiş döyüşçülərimizlə işğaldan azad edilmiş ərazidə söhbətləşməyə – döyüşləri döyüşlər getmiş ərazilərdə xatırlayanların əllərini əllərimdə isitməyə...

Yollar boyunca maşında alışmadığımız bir səs eşidilir. Maraqlanırıq. Mayor Faiq Mehdiyevin dedikləri düşüncələrimi bürüyür: Vətən müharibəsində döyüşlərə gedən ağır texnikaların da yolu buralardan başlayıb. Döyüş maşınlarının keçdiyi yollarda tırtılların izi qalıb. Eşitdiyimiz səs maşınlar ötüb-keçəndə həmin izlərə dəyən yelin səsidi. "Nə gözəl avazdı!" – deyirəm. Gülümsünürük.

Vətən müharibəsindən əvvəl gecə yarısı səngərdə bir əsgərin oxumasını eşitmişdim. O anlarda mənə elə gəlmişdi ki, "Qarabağ şikəstəsi" gecənin içindən keçib İsa bulağında nəfəs dərəcək, Cıdır düzünün çiçəklərinin ləçəklərinə sığal çəkəcək, Qarqar çayının dalğalarına qarışacaq, orda ruhumuzun bayrağı kimi dalğalanacaq...

Bu avaz o əsgərin "Qarabağ şikəstəsi"nin davamıdı elə bil...

Bu yolla gedənlərə elə gəlir ki, Vətən müharibəsinin döyüşlərinə burdan qoşulanların sırasında o da olub – qürurlanır...

2016-cı ilin Aprel döyüşlərindən iki gün sonra burda birliyin qərargah rəisinin təqdimatıyla düşmənin 17 tankını sıradan çıxaran gizir Tahir Misirxanovla söhbətləşmişdim. Gözlərimi və ürəyimi həmin yer çəkir! Xatırlayıram ki, Tahir Vətən müharibəsində düşmənin 20-dən çox döyüş texnikasını məhv edib. Onunla söhbətləşməyə niyyətliyəm. Göy üzünə baxıram. Onda həzin-həzin yaz mehi əsirdi, indi o mehə dədə boyu verən payız küləyi əsir. Onda bu yolun davamını düşmən kəsmişdi, indi bu yol dövlət sərhədimizdə nəfəs dərir. Ona görə ruhumuzu bunca doğmalıqla telləndirir...

"Cocuq Mərcanlıdan Şuşaya" – yol göstəricilərindən biri belədi.

Ötən il sentyabrın 25-də Cocuq Mərcanlıdaydım. Döyüş növbətçiliyindən qayıtmış əsgərlərlə söhbətləşirdik. Lələtəpənin o üzünün göylərində bir topa qara bulud vurnuxurdu. Baxışlarım yükünü yağış bildiyim qara buluda sarı meyillənəndə mayor Haşim Haşimovun əli yaxınlığındakı əsgərin çiyninə enmişdi:

– O buludları da bu igidlər dağıdacaq! – demişdi.

Duyğulanmışdım. Bu şirin duyğular içində mahiyyəti 2020-ci ilin sentyabrın 27-si olası günə sarı boylanmışdım. Mayor əlini əsgərin çiynindən çəkmədən "Yaxın vaxtlarda söhbətimizi Tək ağacın yanında davam etdirərik. Döyüş yolumuz bizi ordan Şuşaya aparacaq..." – demişdi. İndi Tək ağaca yaxınlaşırıq.

Tək ağac bu adla da tanınır. Neçə payız ötəcək, neçə yaz gələcək, neçə yay olacaq, Tək ağacın budaqları bir az da böyüyəcək, gen kölgəsi bir az da genişlənəcək, Tək ağacın kölgəsi işğaldan əvvəl illərlə neçə-neçə yorgun yolçuya ətək sərib, neçə yorğun yolçunun hoyuna yetib. Ermənilik bu kölgəliyi də işğal edib. Tək ağacı 28 ilin işğal pərsənginə görə hiddətlə xatırlayanlar indi onu Azərbaycan əsgərini qələbəyə yetirən döyüş yolunun başlanğıclarından biri kimi ehtiramla xatırlayacaq. Neçə-neçə belə Tək ağaclar, Cüt ağaclar da işğaldan azad edildi...

Xeyli qabaqda bir uçulmuş (uçurulmuş) tikili var. Vətən müharibəsinə kimi düşmənin xüsusi təyinatlılarının dayaq məntəqəsi formatında təmas xəttinin son mövqeyi olub, "Qırmızı Manqa" adıyla tanınıb. Vətən müharibəsinin ilk günlərində Azərbaycan əsgəri "Qırmızı Manqa"nı da çığnayıb keçib. "Qırmızı Manqa"dakı xüsusi təyi-

natlıların, onlara köməyə gələnlərin əksəriyyəti döyüşdə öldürülüb, sağ qalanlar qaçıb; zamanında ermənilinin sığındığı, döyüşdə mərmilərin uçurub dağıtdığı bu tikili yada düşəndə lənətlə xatırlanacaq...

Düşmən "Qırmızı Manqa"dan Laçınacan 28 il əkib-biçdiyi taxıl zəmilərini ötən il biçə bilmədi, Azərbaycan əsgərinin Zəfəri ermənilinin murazını gözündə qoydu...

O torpaqları bu il biz əkdik-becərdik, biz biçdik...

Cəbrayıl rayonunun Zeyvə, Quyucuq kəndlərinin görünüşü ürək ağrıdır. Böyük Mərcanlı da, Mərzə də, Niyazqullar da... bu görkəmdədi. Yaxınlaşmaq, hər evin daşına-divarına toxunmaq keçir könlümdən. Divarlar bu toxunuşu tanımadığı yol adamının təsəllisi bilərmi, görəsən? Görəsən, bu təsəlli onun bircə yarasını qaysaqladarmı? Bu yaralar evlər dikələndə qaysaqlayacaq...

Yadıma yeniyetməliyimdə Faxralıda eşitdiyim bir deyim düşür: "Kişinin düşməni də olar. Xoş o kiçinin halına ki, düşməni kişi adamdı". Bu sarıdan, bəlkə də, dünyanın ən uğursuzu bizik. Heç bir xalqın belə nadürüst düşməni olmayıb. Neçə ay əvvəl belə sıxıntıları Ağdamın Güllücə kəndində də yaşamışdım. Bəşəriliyin düşməni olan ermənilik ayağı dəyən yerləri uçurub dağıdıb. Evlərin damları, qapıları, pəncərələri sökülüb aparılıb. Apara bilsəydilər, daşlarını da apararardılar. İşğalın ilk illərində qarət darvazalar, evlərin qarət qapıları, qarət pəncərələri İranın sərhədlərə yaxın ərazilərdəki köhnə, təzə bazarlarına necə çatdırılırdı? – düşündürücü sualdı...

Görəsən, gəlib işğaldan azad edilmiş kəndləri görənlər qayıtdıqdan sonra təmsil etdiyi dövlətə, dövlət qurumuna nə təklif edir?

"Ürək yanmasa, gözdən yaş çıxmaz..." deyiminin fəlsəfəsini dərk etməyənlər bu uçurulub dağıdılmış evlərin harayını eşidə bilməz. Görəsən, gördüklərinin "niyə?"sini dərk etməyənlər özündən bircə dəfə də olsa soruşubmu, soruşurmu: Nəyə gəlmişdim? Müharibələr tarixini xatırlasın. Bu miqyasda döyüşlər binaları, evləri beləmi dağıdıb? –xatırlasın, gördüklərini yadına düşənlərlə müqayisə eləsin: faşistlər belə etməmişdi, amerikalılar Vyetnamda belə etməmişdi, sabiq SSRİ Əfqanıstanda belə etməmişdi...

Cəbrayılın Soltanlı kəndindən keçirik. Göz tutduqca uçurulmuş evlər görünür. Bircə Böyük Vətən müharibəsində həlak olanlara ucaldılmış abidə nisbətən salamatdı. Abidənin bu görkəmdə qalmasına sevinirəm və düşüncələrimdə suallar vurnuxur: ermənilik bunu niyə dağıtmayıb, görəsən? – Soltanlı kəndində ağır döyüşlər gedib, düşmən bu istiqamətdə şox ciddi müqavimət göstərib. Azərbaycan ordusu düşməni burda da çığnayıb keçib. Düşmən döyüşdən qaçanda bu abidəni uçurmağa vaxt tapmayıb, yəqin.

Soltanlı kəndi işğaldan oktyabrın 19-da azad edildi.

Karxulu kəndində iki-üç bina uçurulmayıb. Mayor Fuad Mehdiyev deyir ki, salamat qalan binalarda erməni zabitləri yaşayırmış. O evlərin yiyələri divarlarına hopan ermənilik niyyətini təmizləməmiş evinə yiyə durmaz, gümanındayam. Yol yoldaşlarım fikrimi bəyənirlər...

Yol boyunca bütün kəndlərin ad göstəricisi görünür...

Xudafərin adı mənə ötən ilin 17 oktyabrını, bir də 2 noyabrını xatırladır: Xudafərin körpüsünün və Xudafərin kəndinin işğaldan azad edildiyi tarixlərdi. Gördüklərimiz onda yaşadığımız sevinci azalda biləməsə də, qəlbimizi qana döndərir. Budur ermənilik! Erməni faşizmi budur! Ay demokratiya deyən dövlətlər, ay işğalçıya havadarlıq edən dövlətlər, ay bu siyasətiylə özünün şərəfini "beş quruşa" endirənlər, gəlin, Xocalıda gördüklərinizə görə çoxunuz səsinizi çıxartmadınız, çıxartsaydınız, ermənilik bunca qudurmazdı! Siz də günahkarsınız, bəşəriliyə vurulan zərbələrə görə siz də günahkarsınız! Günahkarsınız! Görəsən, səsim harayacan çatacaq?!

Ermənistan Azərbaycanda minlərlə uşağın uşaqlığını, yeniyetmənin yeniyetməliyini, minlərlə qocanın qocalığını işğal etsə də (ermənilin əzablarını erməni uşaqları, erməni yeniyetmələri, erməni qocaları daha böyük yaşayacaq, həm də illərlə...), heç birinin ruhuna, ruhunun əsgəri olan vətənpərvərliyinə yaxın düşə bilmədi; qadirlik ocaqdı – yad nəfsini, yad nəfəsini tanıyır, tanıdığına görə yandırıb külə döndərir. Təbiət də bu qadirliyin yedəkçisinə dönür – əsən yellər coşqudu, daşan sellər qəzəbdi. Bu coşqu, bu qəzəb 28 il zəngilanlıların da ümidinə ümid, inamına inam kimi bir qətiyyətin min illərlə yaşadılmış kəsəri oldu: İşğalın ömrü vətənpərvərlik qılıncı sıyrılanacandı. Vətənpərvərlik qılıncı ermənilin qollarını kəsdi, bir də tərpənsə, boynunu vuracaq...

İşğal dərd deməkdi. Dərdinə dirsəklənənlər dərdin ağrı-acılarını həmişə ümidinin, güvəncinin tərcümanı olan bir bayatıyla yumşaldıb, zəngilanlılar da onların sırasında:

...dərdi dara,
Dərdi üz, dərdi dara ...
Ömrüm-günüm, üzüldük,
Çəksənə dərdi dara...

28 il gecələrini bu bayatıyla səhər eləyənlərin – dərdəcar anaların şükranlığını eşitməyə niyyətliyəm. Yurdunda ocaq çatan ana görüncə nəfəsimi nəfəsinə yetirəcəm, əllərindən öpəcəm, kövrəkliyini qılığa tutacam: "Dərd dara çəkildi, ay ana, oğullar dərd gətirəni dərdə saldı, ermənilin murazı gözündə qaldı.." deyəcəm. Ana gözaltı göy üzünə baxacaq...

İşğal müddətində ermənilərin gediş-gəlişlərini asanlaşdırmaq üçün kəndin üst tərəfindən saldığı yolla gedirik (ermənilər bu yolu nə məqsədlə salıb, görəsən? – işğal niyyətinin tərkib hissəsi kimi...). Bir xeyli aralıda təzə yol çəkilir. Bu yol işğaldan azad edilmiş rayonlarımızı birbiriylə, hamısını mərkəzlə rahatlıqla birləşdirəcək...

Babaylı kəndindəyik. Bir ömrün timsalında min-min ömrün göy üzünə çəkilmiş işığına gəlmişik. Bu işıq xatirə biçimli işıqdı, 28 il qaranlıqla mücadilə aparmış işıqdı. Bu işığı göy üzündən Şəri zəbun edənlər endirib. Bu işığın evlərin daşına-divarına sarıldığını necə duymayasan?..

Yoldan o qədər də uzaqda olmayan bir tikili görünür. El arasında Günbəz kimi tanınan bu tikili neçə yüz illərin tikilisidi. Deyilənə görə, burdan itib-batmış Şəhri-Şərifana yeraltı yol var (Şərifan və Şabran adları arasında bunca doğmalıq könlümü telləndirir, düşüncələrimi tərpədir. Belə təsadüf olurmu?!). Başqa bir gümana görə, burda övliya dəfn edilib. Hər iki halda Günbəz tarixi abidədi. Uzaqdan Babaylı kəndinin nişanvericisinə bənzədirsən. Tarixini nəzərə alanda Babaylının Günbəzini də tarixin bələdçisi bilirsən...

Babaylının görkəmi könül qubarlandırır. Yaxınlaşdıqca ucalığı aydınlığıyla sezilən uçuq binanın məscid olduğunu az sonra biləcəm. İşğala qədər Qarabağda, ətraf rayonlarda 67 məscid olub. Ermənilər o məscidlərin 63-nü tamamilə dağıdıb, 4-nü yararsız hala salıb. Yararsız hala salınmış məscidlərdən biri də Babaylıdadı. 1993-cü ilin noyabrından üzü bu yana azan səsi gəlməyən məscidin divar daşları da tökülüb, görəsən, təmirə qədər duruş gətirə biləcəkmi? 28 il "Allahu-Əkbər!" sədası bu kənddə də eşidilməyib: doğmaları yoxuydu, yadlar düşməniydi. İlk azan verilən gün bu məscid dünyaya yenidən gələcək...

Bir vaxtlar sobalarının tüstüsü göy üzünü pərdələyən – göy üzünün örpəyinə dönən Babaylıda ruhun ittihamı bildiyim bir sükut vurnuxmaqdadı. Bu sükut kənd yenidən qurulanacan, babaylılar Babaylıya qayıdanacan tövşüyəcək...

Babaylıda bircə salamat ev yoxdu, bircə qapı qalmayıb ki, döyəsən, ağrı-acını yumşaltmaq üçün ev yiyəsini səsləyəsən. 28 il kənd sükutun əsiri olub, sükut – işğalın. Sükut işğaldan qurtuldu, kənd sükutdan qurtulur, qurtulacaq.

Kəndi bu görkəmdə görəndə "Fəryad" bədii filmindən bir məqamı (görüntünü) xatırlayıram: balaca erməni Mamikonun təsadüfən yandırdığı evi əsir düşmüş azərbaycanlı (İsmayıl) söndürür. Bu görüntü azərbaycançılığın ermənilyə mənəvi ittihamıydı. Bəşərilik naminə, faciələrə səbəb olmasın deyə, ermənilyin yandırdığını azərbaycançılıq söndürür. Ötən əsrin sonlarında ermənilyin yandırdığı işğal ocağını Azərbaycan ordusu döyüşdə, döyüşlərlə söndürdü. Birdəfəlik söndürdü...

Yol yoldaşım (və iş yoldaşım) Vahidgilin evlərini ötüb keçmişik.

Vahid geri qayıdır. Mən də onunla dabanbasma...

Gözləri dolub-boşalır Vahidin. Çaşqınlıqla sağa baxır, sola baxır, arxaya baxır. Məscidi görəndə dayanır. Və dodaqlarını bir yanıqlı ah yandırır: "O, Qasım dayının evidi. O, İbrahim dayının evidi, yuxarıdakı ev Fərmanındı, bizim evimiz odu, odu bizim evimiz..." pıçıldayır. Bu pıçıltıda bir gizilti də var, sızıltı da – ata yurdunun görkəminə görədi bu sızıltı, gizilti. Bu pıçıltı dünyanın üzqaralığının ifadəsidi...

Bu məqamlarda M.Şoloxovun "İnsanın taleyi" əsərini xatırlayıram. Vahidin hisslərini Sokolovun keçirdiyi hisslərlə eyni bilirəm. Var səsimlə qışqırmaq istəyirəm: Ermənilik xisləti səbəbindən insan evini tapa bilmir, ay Allahı sevənlər! Düşmənin düşmənçiliyi onun kəndini, kəndin evlərini uçurub dağıdıb, tanınmaz hala salıb...

Sokolovun çaşqınlığı alman faşizminə, Vahidin çaşqınlığı erməni faşizminə ittihamdı. Sokolovun ittihamının hökmünü Böyük Vətən müharibəsində qazanılan qələbə verdi, Vahidin ittihamının hökmünü Vətən müharibəsində Azərbaycan ordusunun qazandığı Zəfər...

Bu düşüncələrlə baş-başayam...

Həsrətlilər yoldan doqqazlarına çatınca elə bilir ki, bir ömürlük yol yorub...

Vahid evlərinin qənşərində diz çökür, torpağı öpür, baxışları göy üzündən, əlləri uçub dağılmış evin divarlarından üzülmür. Daşı-divarı öpür Vahid: "Bu, atamın ruhunun yerinə, bu, anamın ruhunun yerinə, bu, Əvəzin, bu, Qulunun, bu, Loğmanın yerinə, bu, özümün yerimə. Bağışla bizi, ata yurdum, bağışla, səni qoruya bilmədik, qada bəd gətirdi. Zərrəcə günahımız olmasa da, bağışla... Bağışla..."

Vahid 28 il doğma səsə, doğma nəfəsə tamarzı qalan tut ağacına sarılıb. Onu ana əvəzi bağrına basıb hönkür-hönkür ağlayır: "Anam əkmişdi səni, səni anam beşinci oğlu bilirdi. Qaçqınlıqda fikri-zikri sənin yanındaydı. Anamız yoxdu, ağac qardaşım, anamızı qaçqınlıq sıxıntıları, qaçqınlıq dərdi apardı...", – ürəklə dinlənilərsə, eşidilən pıçıltıdı...

Vahid həyətlərində uşaqlığının, yeniyetməliyinin izlərini axtarır sanki. Tapa biləcəyini güman etməsə də, axtarır...

Qəlbim qana dönür. Minlərlə Vahidlər bu günə düşüb, düşür, düşəcək. Ata yurdu ömrün başlanğıcıdı. Ömrünün başlanğıcını bu görkəmdə görənlərin ruh qardaşı kimi o ağrıları mən də yaşamışdım, indi həmin ağrı-acıları tifaqı dağılan, odu 28 il əvvəl söndürülən ocaqla diz-dizə, göz-gözə yaşayıram...

Yolçəkənlərin səsi hələ buralara çatmır...

Yeni yol çəkilir. Bu yol Qubadlıya aparacaq, Laçına aparacaq. Başlanğıcı ürəyimiz olan bu yolla Cəbrayıla, Zəngilana, Qubadlıya, Laçına rahatlıqla tikinti materialları daşınacaq, şəhərlər, qəsəbələr, kəndlər yenidən qurulacaq. Babaylı da yenidən qurulacaq. Babaylılar dikələn Babaylıdan – tarixin yaxşı tanıdığı kənddən dünyaya barmaq silkələyəcək: "Gədələrinə yiyəlik elə, sərsəm dünya!.."

Kəndin yollarından biri nazilib, nazilib, cığıra dönüb, cığırı ot basıb. İşğaldan azad edilmiş yüzlərlə kəndin minlərlə cığırı bu gündədi. 28 il gediş-gəlişə həsrət qalan yolun-izin, cığırın cücərtdiyi ota dərd otu deməyim, bəs nə deyim?

Gözlərdə yaşa döndüm,
Çəkmədim haşa, döndüm...
Dərd cücərdən yol gördüm,
Quruyub daşa döndüm...

Yiyəsi ola-ola, yiyəsiz qalan evlərin dərdini sözə çevirmək mümkünmü?

Zəfərin hökmüylə bu evlərin də yiyələri qayıdacaq, damı sökülmüş, qapı-pəncərəsi yağmalanmış, divarları uçulmuş evlər günahsız günahkarlarını qınamayacaq. Ata yurdundan iraq düşənləri 28 il gündüzlər xəyallarına, gecələr yuxularına sarılan həsrət yaşadıb. Babaylılar da 28 il bu taleyin cəfakeşi olub. Məmmədqulu kişi çaylaq daşları yığıbmış həyətinə. Bir ev də tikəcəkdi. Son nəfəsi buna yetmədi. Səliqəsi pozul-

mayan daş qalağı Vahiddən bir yaş böyükdü. O daşlar 60 il əvvəl necə yığılmışdısa, eləcə də durur. Rəngi qaralıb daşların. Üstündən keçən illərmi qaraldıb, xiffətmi? Həsrət pərsəngli vaxt, zaman xiffət deyil, bəs nədir?..

"Sənin ruhunun xeyir-duasıyla evimizi tikəcəyik, ay ata. Bu daşlar təzə evimizin divarları olacaq...", – kəlmələri 28 yaşlı həsrətin son nəfəsindən sonra ata yurduna sədaqətin ilk niyyətidi, bilirəm...

Vahid həyətlərindən bir qoşa ovuc torpaq götürür. Anasına Babaylıdan göz torpağı aparacaq, anasının ruhu rahatlıq tapacaq. "Surunuz yerisin, a altmış yaşlı sonbeşiyim. Gətirdiyin bir ovuc torpaq mənim ruhuma ehsandı. Mənim qəbrimdən də bir ovuc torpaq götürərsən, atanın qəbrinə səpərsiniz, ata yurdunun da gözləri yoldan yığılsın..." – Vahid bu səsin doğmalığına sarılmış kimi dayanıb baxır evlərinə. Anasının ruhunun da əvəzinə baxır, qardaşlarının – Əvəzin də, Qulunun da, Loğmanın da gözləriylə baxır...

"Elə bil kənd balacalaşıb. Elə bil torpaq dikəlib, yollar gödəlib, bulaqlar quruduğundan ağaclar torpağın təkinə çəkilib...", – köz-köz yanan kəlmələr dərdin bürüncəyinə dönür. Bilmək olmur gileydimi, əndişədimi, bilmək olmur kimə ünvanlanıb...

Gözlərim Vahidin gözlərindən üzülmür. Tək olsaydı, bəlkə də, bu anlarda göz yaşları yanağını yandırardı. Bayaq dizi də, üzü də torpağa döşənəndə iki qolunun qənşərinə iki damla göz yaşı düşmüşdü. Bilmədim, o iki damla yaş kövrəklik yaşıydımı, şükranlıq yaşıydımı?.. O yaş deyirdi ki:

Otuz yaşlı nar ağacım,
Gileyinmi var, ağacım?..
Səndən ayrı
günlər acı, aylar acı, illər acı...
Səni ana əvəzinə əzizləyim, nar ağacı...

Vətən müharibəsində döyüşlər müqəddəs olduğu üçün döyüşçülər ruhən hiss etdilər ki, şəhidlərin ruhu da onların sırasındadı...

1993-ün yayında-payızında vurnuxan qadabəlanın sıxıntılarını cəfakeşləriylə nəfəs-nəfəsə mənim də yaşadığım, görəsən, Zəngilanın yadındadımı? Bu qada-bəlalar böyüyəndə, kimlərsə hələ işğaldan neçə ay əvvəl köçürülməsi üçün Zəngilana yüzlərlə yük maşını göndərəndə, təxribata uyub köçənləri görəndə bir şeir yazmışdım: "Ağlar günə qalıbsan, ağla, Rəşid Faxralı...". Oktyabrın sonlarına yaxın Sahib, Yavər, Sərvər, Surxay, Dilqəm, Mehdi, Əli,.. ürək ağrılarıyla şeirin sızıltısını pıçıldayırdı. Onda Zəngilanın göylərində qara buludlar vurnuxurdu ...

"Həsrət" sənədli filminə yazdığım şeirə Aydın Ağasiyev musiqi bəstələmişdi:

Şəhidlərin göy üzündən enib gələr,
Axar suya, daşan selə dönüb gələr...

Vətən müharibəsində zəngilanlı şəhidlərin də ruhu döyüşənlərin sırasında olub...

28 il sonra yenə Zəngilandayam...

1993-cü ilin sentyabrın i-i idi. Düşmən gələndə Molludan ayaqyalın qaçan uşaqlarını axtarırdı ata. Ağalıda kənddə qalan yeganə adamdan – Şükürdən buralardan anası ilə bərabər ayağı yalın, başı açıq dörd uşağın keçdiyini görüb-görmədiyini soruşanda varımdan yox olmuşdum (aradan 28 il keçəndən sonra Ağalını yenidən görürəm. Ağalıda Azərbayvan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Ağıllı kənd" salınır. Tikinti tamamlanmasa da, indidən Ağalının yaraşığı göz doydurur. Ermənilinin izini azərbycançılıq silib-süpürür...). Dörd cüt ayaqqabı vardı torbasında. Ata uşaqlarını kənd-kənd axtarırdı. Biçarə atanın bir çiyninə Seyidağanın, bir çiyninə mənim əlim enmişdi. Üçlükdə ruhu candan aralayan bir "Off..." yaşamışdıq. Mollulu atanı görsəm, qoşa qollarım kürəyində çarpazlaşar. İkilikdə bir şükranlığa sarılarıq...

28 il əvvəl Şüküratazda torpağa dirsəklənən, torpağı ovuclayan əsgərdən soruşmuşdum:

– Nə düşünürsən, əsgər?

Bir anlığa duruxmuşdu, baxışları Şüküratazın o üzünə dikilmişdi. Bircə kəlmə demişdi:

– Torpağı....

Görəsən, həmin əsgər bu mahiyyətli mükaliməni xatırlayırmı? Görsəm, yenə soruşaram: "Nələr düşünürsən, qardaş?" Gülümsünər, yenə "Torpağı" – deyər. "O vaxtlar torpağı işğal hədələyirdi. İndi Azərbycan əsgərinin işğaldan azad etdiyi kəndlərdə quruculuq işlərinin əsgəri olmağı...". "Onda da gözəl düşünürdün, indi də gözəl düşünürsən..." – deyərdim...

28 il əvvəl İcra hakimiyyətinin qarşısında polkovnik Firudin Şabanovun çıxışını, kapitan Bayram Məmmədovun dediklərini xatırlayıram:

– Üç tərəfdən mühasirədəyik. Bakıdan kömək göndərilmir. Zəngilanı özümüz müdafiə etməliyik. Döyüşə getmək istəyənlər yaxın gəlsin.

Beş-altı dəqiqənin içində 50-dən çox kişi sıradaydı. Polkovnik Şabanov yaşı 50-ni aşan kişini fikrindən daşındırmaq istəmişdi. Baxışlarının dərinliyində qəhər çırpınan kişi xahiş həddində:

– Üz vurma, komandir, mən də gedəcəm. Şəhid olmuş oğlumun əvəzindən döyüşəcəm, – demişdi.

Onun dediklərini kameraya köçürməyə ləngimişdik. Vətən naminə belə səslənişlərdə bir ilahilik olduğuna kimsə şübhə edə bilməz, görəsən, o səs ötən ilin payızında Zəfərin qüdrətinə sayğı kimi, Zəfəri ziyarət kimi yer üzünə enibmi?..

28 oktyabrın buludlu səhərində döyüşçü oldu həmin kişilər, ordan döyüşə getdilər. Onlardan hansını görsəm, "Koroğlu daşı"nda Baloğlan Süleymanovun özünü düşmən tankının altına atdığını xatırlayıb-xatırlamadığını soruşardım. Sezilməsi çətin olmayan qəhər içində "Xatırlayırıq..." deyərdilər...

Görəsən, ötən ilin noyabrına kimi bu tərəflərdə torpağın rəngi beləydimi, çəkinə-çəkinə boy göstərən çiçəklərin ləçəklərinin düzümü beləydimi, çiçəklər göy üzünə beləmi baxırdı, bulaqlar beləmi axırdı, ağacların budaqları yelləri yelləndirirdimi, ufacıq otları telləndirirdimi, şimşək çaxırdımı, yağış yağırdımı?.. Mənə elə gəlir ki, illərlə buralarda göy qurşağı görünməyib, torpaq çiçək əvəzinə dərd cücərdib. Buralarda torpağın rəngi indi-indi özünə qayıdır. Belə qayıdışa ruhun cana qayıdışı desəm, məni qınamayın.

30 ildi bir vəfa borcu gündüzlər düşüncələrimdədi, gecələr yuxularımda gecələyir...

1993-cü ilin oktyabrın 30-da Arazın ləpədöyənindən dönüb bir də baxdığım yerlərə 28 ildi yol gəlirəm. Onda Arazın ləpədöyənində anadan olan Arazlar zəngilanlıların həsrətiylə yaşıddı. Zəngilanlılar Zəngilana dönəndə dizləri də, üzü də torpağa döşənəcək.

Düşmən Oxçu çayının sularını ermənilik niyyətiylə zəhərləyir. Zəngilanlılar qayıdışda Oxçu çayının axışına heyranlıqla baxacaq, baxışları suların axışına qoşulacaq...

Dizi torpağa döşənənlər, var bədəni torpağın indi-indi qaysaqlayan yaralarına sarğı olanlar ürəyinin gözüylə ruhən eşitdiyi Dədə alqışının işığında göy üzünə baxacaq: "Surunuz yerisin!". Baxacaq və "Alqışın bizə bu anları yaşadanlaradı, Dədə!" – deyəcək. Bunlar da Zəfərin hökmüdü...

Zəfərin hökmüdü ki, işğaldan azad edilmiş torpaqlarımızdayıq. 28 ilin o üzündə qalanların xatirə kövrəkliyinə sığınıb sabahları düşünürük. Əminik ki, işğaldan azad edilmiş bütün kəndlərimiz yaxın vaxtlarda yenidən qurulacaq, camaat ev-eşiyinə dönəcək.

Məqamında ötüb-keçən, ata yurduna tələsən zəngilanlıları görüncə köksüm ürəyimə darlıq edəcək. Qayıdanlar bu qayıdışa ruhun cana qayıdışı deyəcək.

Zəfərin hökmüdü ki, o payızdan bu yana Zəngilanda da gen dərələr sellənir, çöllər-düzlər güllənir, gur bulaqlar dilə gəlib dillənir, ağacların budağında perik yellər yellənir...

Gizir Mehdi Mirzayev demişdi ki, kənddə Qəfəs nənədən savayı kimsə qalmayıb. Bilməmişdim, onda kəndmi tənhalaşmışdı, Qəfəs nənəmi?.. Kəndin də, Qəfəs nənənin də tənhalaşması qəlbimi qana döndərmişdi. Sonralar bilmişdim ki, kənd işğal olunanda ermənilər Qəfəs nənəni öldürüb. Ata ocağına sədaqət naminə şəhid oldu Qəfəs nənə...

Qəfəs nənənin qəbri düşmənin dağıtdığı evləridi, indiyəcən ruhunun dolaşdığı yerdi – ata yurdudu, ata yurdunun göyləridi, ona görə də göyləri müqəddəsliyə beşik bilmişik.

1993-cü ilin sentyabrın sonlarıydı. Seyidağaydı, Etibarıydı, İlqarıydı, məniydim. Mahrızlılarsız Mahrızlıda əsgərlərlə söhbətləşirdik. Əli əl isitmişdi, əl əldə isinmişdi. Zəngilanı müdafiə edən döyüşçüləri, şəhidləri xatırlamışdıq...

Əsgərlərlə Vətəndən danışırdıq, torpaqdan danışırdıq, beş-üç nəfərin qorxaqlığına görə kən-

din belə boşalmasına, mal-qaranın damlarda mələrtisinə, evlərin, evlərə görə kəndin belə yazıqlaşmasından danışırdıq. Düyünlənən yumruqlar görürdük, çatılan qaşlar görürdük, avtomatın qundağını sıxan barmaqlar görürdük. Gördüklərimiz ümid işığına dönürdü. Bu işıq Mahrızlıdan üzü Qubadlıya, Cıdır düzünə, Şuşaya gedən yollara qarışırdı. Bu yollar əsgərlərin baxışlarından keçirdi. Başlanğıcı əsgər ürəyi olan yolun sonunda narahatlıqla bir şükranlıq var-gəl edirdi. Döyüşlərin əzəli əsgəri ruhdu. O ruhun cazibəsindəydik. O anlarda düşmən Mollu istiqamətindən həmlə etmişdi. Qrup komandiri kimi Mehdi Mirrzayevin əmri ilə əsgərlərimiz müdafiə döyüşünə qoşulmuşdu. Bir-iki dəqiqənin içində düşmənin qarşısında atəş zolağı yaratmışdılar. Biz də atışırdıq. Hansı səmtdən atış aparmaq istəyirdimsə, Baloğlan ya sağımda-solumda, ya da qarşımda peyda olurdu. Döyüşdən sonra Mehdi demişdi ki, Baloğlan səni qorumaq üçün belə edirmiş; min illərdi qonağın yeri ev yiyəsinin ürəyi olub. Müharibədə də...

Baloğlan döyüşlərdə şəhid olmuşdu...

Baloğlanın da 28 il tənhalıqdan sıxıntılar çəkmiş ruhuna gözaydınlığı verəcəyik: Ruhun şad olsun, əbədiyyən 21 yaşında qalacaq qardaşım. Torpaqlarımız işğaldan azad edildi!..

Şəhid əsgərin ruhu dillənəcək, Mahrızlıda döyüşdən xeyli əvvəl mənim bir misramı (Ürəyimdə dərd ocağı qalandı) tamamladığı misranı (Biz gedərik, Ana Vətən qalandı) təkrarlayacaq. 28 il sonra yenə Zəngilandayam...

Zəngilanın müdafiəsindən mənim ssenarimlə sənədli film üçün bir görüntü çəkilməliydi: Günəş səhər erkən Oxçu çayına düşür.

Dan yeri qızaranda operator Etibar Şirinlə Oxçu çayının sahilindəydik.

Günəşin Oxçu çayına sarılmasını bu ələdüşməz səhərin beşik nəğməsi bilmişdim. Çay boyda işıq ömür boyda sevgiydimi? Bu sevginin möhürbəndinə – göz tutduqca uzanan işıq zolağının sonluğuna Zəngilana gəlişimizin salavatı demək keçmişdi könlümdən. Günəşin şəfəqləri Tanrının Oxçu çayına biçdiyi kaftanıydı elə bil. Gözəllik düşüncələrimə duruluq suyu olmuşdu. Mənə elə gəlmişdi ki, Günəş Oxçu çayında güzgülənir. Sonrakı ezamiyyətlərdə Günəşi Oxçu çayında güzgülənən görməmişdim. Görəsən, Zəfərdən sonra Günəş Oxçu çayında necə güzgülənir?..

Payızın sərinliyində günəş saçına sığal-tumar verir, yəqin...

Qayıdanda Günəşə bunca doğmalıq edən Oxçu çayına bir şeir pıçıldamışdım: Yol ver gedim, Oxçu çayı! Yəni gözəlliyini, ecazkar görünüşünü gözlərimdən üzməyincə səndən uzaqlaşa bilməyəcəm. 28 ildən sonra Oxçu çayını salamlayacam, görüncə suyunu gözlərimə sürtəcəm. 28 illik həsrətin qəhərini gözlərimdən Oxçu çayının suyunun aparacağı ümidi (və əminliyi!) ilə! Onda bilməz idik ermənilik Zəngilana da sədəmə toxunduracaq, 1 şəhəri, 5 qəsəbəni, 79 kəndi yerlə yeksan edəcək....

İşğal niyyətini, işğalçılığı 28 il günəş də lənətləyib, ay da. Haqqın, ədalətin, bəşəriliyin işığı qara niyyətlərin qan düşməni olub həmişə...

Ötən ilin noyabrından bu yana gündüzlər günəş, gecələr ay Oxçu çayında da, Həkəridə də, Bəsitçayda da güzgülənir...

Birinci Ağalıda salınan Qardaşlıq bağı çəkir diqqətimi. Əkilən ağaclar böyüyəcək, qol-budaq atacaq, ağaclar gözəllik düzümü olacaq, duyumlulara elə gələcək ki, ağacların yarpaqları göy üzünə sığal çəkəcək; 30-35 il əvvəlin qardaşlığı deyil bu qardaşlıq. 30-35 il əvvəl qardaşlıq siyasətin buyruqçusuydu, indi siyasət qardaşlığın qardaşıdı – Qardaşlıq bağı Zəfərin bağıdı. Gözlərinə su ver, qarı dünya! Bu bağ Birinci Ağalıda salınsa da, Azərbaycanı, Türkiyəni, Azərbaycanla Türkiyənin qardaşlığını alqışlayanların hamısının ürəyində göyərir!..

Qubadlının yaranışından dağa söykənən Xəndək kəndi görünür. Adama elə gəlir ki, bərk yel bərkisə, dağ kəndin üstünə uçacaq. Dağ uçmaz, dağın kökü çox dərindədi. Dağ ona görə dağdı, ona görə dara düşən dağı arxa-dayaq bilir; qaçaqlar ona görə dağa dağ qardaşım deyirdi.

Xəndək kəndinin söykəndiyi dağın duruşundan nə göz doyur, nə də könül (Məmməd İlqar deyərdi: Nə bir könül doyur, nə göz əl çəkir...). Dağ qollarını balınc eləyib uzanmış pələngə bənzəyir. Elə bil bir hovurluğuna nəfəs dərir, bir azdan duracaq, yan-yörəsinə göz gəzdirəcək, ovunun görünməyinə məəttəldi, görününcə üstünə atılacaq. Ovlanasıların bir il əvvəl qaçdığını, bir də bu tərəflərə yön tutmayacağını bilmirmi? "Kim deyir ki, daşdı bu dağ, Xəndəyə qardaşdı bu dağ..." – pıçıldayıram. Kaş pıçıltımı dağ-pələng də eşidəydi, rəmzin (dağ-pələng) yozumu Azıxdadı, Qobustandadı...

Həkəri görünür. Mənbələr deyir ki, Həkəri başlanğıcını Mıxtökən silsiləsinin cənub yamacından, Şiştəpə zirvəsindən alan Şəlvəçay və Hocazsuçay çaylarının qovuşmasından əmələ gəlib. Gözəl çaydı (insanın gözəlliyi ürəyinin, çayın gözəlliyi suyunun təmizliyindədi...). Bir az aralı olsaq da, suyunun duruluğunu gözlərimizə, könlümüzə Tanrı töhfəsi bilirik. "Həkəri noyabrın 10-dan bəri belə duru axır",– düşünürəm. Göy üzündə görünən bir əlçim buludu yağış buludu bilirəm. Yağsa, aydınlıq yağışı deyərəm. Yağmır. Əsgərlərimizlə söhbətləşəcəyimiz anları ləngitmək istəmir. Tələsirik.

Dibçəyi həmişə çiçəklərə zindan bilmişəm...

Qubadlının Muğanlı kəndində bir görüntü məni varımdan yox eləyir: evin damı sökülüb, qapı-pəncərəsi aparılıb, divarları xeyli daş töküb. Hansı dəlisov rüzgarın hökmüdü, görəsən? – evin içində bir ağac bitib, göyərib, böyüyüb, divardan hündür olub. Ev bu gəlişi-bitişi arzulanmayan ağaca dibçəkdi elə bil. On illəri təbiətə vurğunluqla yaşamışam, ağacların kölgəsini illərimin sığalı-tumarı bilmişəm. Çiçəklərə görə dibçəkləri sevməmişəm, indi evə görə ağaca nə deyim, nə? Qınasam, suç olarmı?..

Göy üzünə baxıram. Uçaraqda bircə quş da görünmür. Görəsən, bu kəndlərin quşları qəriblikdən hələ dönməyibmi? Yuvasını tapa bilməyəndə təzə yuvamı qurub, gerimi qayıdıb? Təzə yuva qurubmu? Görəsən, o ağacda yuva varmı? Kəndin camaatı qayıdanda o ağacın yuvası nə olacaq?..

Evin yan-yörəsində ağac yoxdu, quruyubmu, kəsilibmi? – ağacsız həyət laylasız beşiyin eynidi. İllərdi ağacsız, beşiksiz, laylasız, tırınqısız, qımqımasız qalmış evlərin səssiz fəryadı eşidilməyib...

Yol boyunca İranın kəndləri görünür. Görünənlərin də, görünməyənlərin də hamısının damı, qapı-pəncərəsi yerindədi. Görəsən, o kəndlərdən buralar görünürmü? Görünürsə, necə görünür? Görənlər nə düşünür?..

Qubadlının Mahmudlu kəndi...

Ötən il buralarda döyüşlər gedirdi. Onda hamı kimi, mənim də ürəyim buralardaydı, indi ürəyim də burdadı, özüm də burdayam. Yaralanmış torpaq görürəm, sinəsinə dağlar çəkilmiş kəndlər görürəm, mərmi qəlpələri dəymiş daşlar görürəm, uçurulmuş evlər görürəm...

Yoldan beş-altı addım sağda Azərbaycanın Milli Qəhrəmanı polkovnik Şükür Həmidovun portreti çəkir diqqətimizi. 2016-cı ilin aprelin 6-da Lələtəpədə əlini sıxdığım, təbəssümünü təbəssümümə örtük elədiyim polkovnikin dedikləri bizi duyğulandırmışdı: Aprel döyüşləri Böyük Qələbəmizin başlanğıcıdı. Məni Şuşa işğaldan azad ediləndə təbrik edərsiniz.

– Bir də Qubadlı azad ediləndə. Onda həm də sizdən bir müsahibə xahiş edəcəm, – demişdim. Razılıqla gülümsünmüşdü. Əsgərlərə baxmışdı. Lələtəpədə gördüyüm (və baxışlarıma mətəris* bildiyim) baxışların eynini görürəm şəhid polkovnikin baxışlarında. Bu baxışlar yüz illərlə, min illərlə bir mətləbin carçısı olacaq: Sevin Vətəni! Qoruyun Vətəni!

Polkovnik Şükür Həmidov qəhrəman idi. 2016-cı ilin Aprel döyüşlərindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdü. 2020-ci ilin oktyabrın 22-də Qubadlının işğaldan azad edilməsi uğrunda döyüşlər başladı. Ağır məğlubiyyətlər düşmənin ordusunun döyüş ruhunu çilikləmişdi. Düşmən çarəsiz, müdafiə döyüşləri apara-apara geri çəkilirdi, geri çəkilə-çəkilə döyüşdən çəkinirdi. Yüzlərlə muzdlu, hərbi qulluqçu döyüşlərdən yayınmışdı, yayınırdı...

Polkovnik Şükür Həmidov da döyüşləri idarə edən zabitlərdən biri kimi döyüşənlərin sırasındaydı; döyüşürdü Şükür Həmidov, döyüşçüydü, polkovnik kimi döyüşürdü, Qəhrəman kimi döyüşürdü, döyüşənlərin özünün də, ruhunun da komandiri kimi döyüşürdü... Armudlu kəndinin yaxasında – doğulduğu kəndin yolları ayaqlarına yapışanda mərmi qəlpəsindən şəhid oldu. Şəhid olduğu yerdə nişanə qoyulub, yaxın vaxtlarda xatirə abidəsi də ucaldılacaq, yəqin; Azərbaycanda şəhidliyə, şəhidlərə dövlət səviyyəsində ehtiram olub, var, olacaq...

Nə gözəl durulaşıb Həkərinin suları!..

***Mətəris-daldalanacaq**

Qəfil qonaq

Fidan MALİK

Qapını astaca kimsə döydü.

İçəridə bir sükut vardı. Lakin kiminsə olduğu çox bəlli idi. Çünki nəbzinin döyüntüləri çöldən belə eşidilirdi.

Qapı bir də döyüldü. Amma bu dəfə daha ustufca, daha ustaca.

Azacıq fasilədən sonra qapı ehtiyatla açıldı. Düşünürdü, çox güman, ev yiyəsi: açsın, ya açmasın. Çaşqın idi.

– Gəlmək olar?

Bir az tərəddüddən sonra ev yiyəsi ürəyin ürkək səsi gəldi:

– Olar, buyurun.

Çöldəki içəri boylandı. Göz gəzdirdi ətrafa. Bir az dağınıq idi ortalıq. Küncdə qutular vardı – Balaca, böyük.

– Deyəsən, harasa gedirsiz? – soruşdu ev yiyəsindən gələn.

– Yox, onlar elə-belə... – Bir az sükutdan sonra dilləndi ev yiyəsi. – Yarımçıq qalmış planlar, arzulardı... Toplamışam. Atmağa da ürək eləmirəm. Siz buyurun, əyləşin, – deyə yer göstərdi ev yiyəsi gələnə ehtiyatla. Lakin içində bir narahatlıq var idi.

Gələn sevincək içəri keçdi. Əlini qutulara uzadıb, – İstəyirsiz mən atım? – deyə əvvəlcə ehtiyatla soruşdu ev yiyəsindən. Susduğunu gördükdə sanki ürəkləndi, – Buranı toplamaq, boşaltmaq lazımdır. Mən sizə kömək edərəm, narahat olmayın, – deyə əl qatdı özünə canfəşanlıqla, öz evindəki kimi.

Halbuki, ev yiyəsi çaşqınlığından susub qalmışdı. Lakin bir anda yoxa çıxdı narahatlığı. Özü də anlamadan qanı qaynadı. Ürəyi tez-tez döyünməyə başladı. Axı uzun zamandan bəri davam edən sükunəti pozulmuşdu. Ətrafa bir canlanma gəlmişdi. Bəlkə də, o səbəbdən idi... Hətta bir anlıq bu gələnin həyatına rəng qatacağını belə düşündü. Bu ab-havayla az qala razılaşacaqdı ki, bir anda evin tələşdən aralı qalan qapısından çaşqınlıqla onlara baxan ağılla göz-gözə gəldi. Onun gözlərində yazılanları birnəfəsə oxudu: " Ürək, bu kimdir? Bu gələndə bu nə tələş, bu nə rahatlıq?! "Atım", dedi. Eşitmədin? Nə cürətlə? Onlar sənə əziz deyilmi? Hərəsində bir xatirən, bir əməyin yoxdurmu? Onların sənin üçün dəyərilə belə maraqlanmadı".

Yatmışdı sanki, bir anda yuxudan oyandı. Amma yenə də ədəbindən üsulluca üzünü gələnə çevirdi.

– Yox, narahat olmayın, mən sonra onları özüm yerbəyer edəcəm, – dedi.

Ağılın gəlişi yeni gələni heç açmadı. Ev yiyəsinin qırımından da narahat oldu. Qarşısında bayaqkı çaşqın ürək yox idi. İndi ona daha əmin baxışlarla baxan biri dururdu. Çox arif idi bu qəfil gələn. Bir az ora-bura boylandı. Bayaqkı rahatlığından əsər-əlamət qalmamışdı.

– Ah, az qala unudacaqdım, mənim çox vacib bir işim var idi. Mən indi gedim, yenə gələrəm, – deyib tələsik, üsulluca çıxdı qapıdan – arxasına belə baxmadan.

İçəridə bir ağıl, bir də ürək qaldı. Ürək asta addımlarla açıq qalan qapıya doğru addımladı. Hüznlü idi sanki. Gözdən itənədək gedənin arxasınca baxdı. Arxadan çiyninə bir əl toxundu. Ürəksə halını belə pozmadan soyuqqanlılıqla ehmalca qapını örtdü. Dərin, rahat bir nəfəs alıb geri döndü. Ona təmkinlə baxan ağıla razılıqla gülümsündü.

Təranə DƏMİR

YER AXTARIŞI

Mənə bir az yer elə
Gözünün qarasında.
Kirpiyin çəpər olsun,
Gizlənim arasında...

Nə yellər qova bilsin,
Nə od yandırsın məni.
Nə yağış döyəcləsin,
Nə buz dondursun məni...

Dünyanın dərd-sərindən
Uzaq olum gözündə.
Düşüm dəniz gözünə,
Batım qalım gözündə...

YUXU

Bu nə qəribə yuxudur:
Qollarım ağac budağı,
Ayaqlarım daşdı, daş;
Gözlərim yol yorğunudur,
Sürünür o baş- bu baş...
Kimsə tutub ətəyimdən,
Dartır məni özünə,
Çırpınıram əllərində,
Döyür məni qamçısıyla
Hey üzümə- üzümə...
Neynirəmsə, ayaqlarım
Daşa dönüb, yerimir,
Bir səs gəlir – layladımı,
Ağıdımı... Bilmirəm,
Dolanıb yuxu gözümə,
Kirimir ki kirimir...
Hardan gəlir bu səs axı?
Yuxu axı boşdu, boş.
Hardasa bir qəbir yanır,
Torpaq isə yaşdı, yaş...

XƏBƏRİN VAR?

Xəbərin var,
Saçlarımda ağ çiçəyə
dönmüsən?
Hər telindən bir göz baxır
Mənə tərəf... Sənmisən?!

Pəncərəmi külək döyür
Əllərinin yerinə...
Səpələyir yarpaqları
Tellərinin yerinə...
Xəbərin var,
Toz basıbdır oxuduğun
kitablar?
Əlim gəlmir təmizləyəm,
Arasında izin var...

Xəbərin var?
...Eh, nə bilim,
Hardan olsun xəbərin...
Səssiz-səssiz yaşayırsan –
Mən olmayan gecələrin,
Mən olmayan səhərin...

MƏHƏBBƏTİN QIŞ TƏRƏFİ

Bizdə məhəbbətin qış
tərəfidir,
Bahara toxunmaq yasaqdır
bizə –
Başdan-ayağadək yasağıq,
yasaq,
Haradan yapışsaq, günahdı
bizə...

Bizim tərəflərdə çiçək
açılmaz,
Bizim sevgimizin yaz havası
yox –
Başına küləklər, tufanlar
döyür,
Küçə uşağıdır, yurd-yuvası
yox...

Eləcə baxarıq miskin, yaralı,
Gözümüz danışar, dilimiz
susar –
Dildə bircə sözü
danışammarıq,
Amma ürəyimiz min dastan
yazar...

Gətirə bilmərik birini dilə,
Bizim sözümüzün yasaqları
var –
Danışsaq, yeriyər, dünyanı
gəzər,
Bizim sözümüzün ayaqları
var...

Uçar üstümüzə bu sözlər
bizim,
Boğulub qalarıq sözlərin
altda –
Guya ki danışsaq, nə dəyişər
ki,
Neyləyə bilərik biz bu saatda?

Sən hələ baharı ötürməmisən,
Mənsə payızımdan keçirəm
qışa –
Uzatma əlini, tuta bilmərəm,
Qayıt baharına, məni bağışla...

SƏN OLAN YERLƏR

Sən olan yerlərin havası
təmiz,
Sən olan gecədə səhər işıqlı,
Sən keçən küçələr, yollar da
geniş –
Sən olan tərəflər güllü,
naxışlı.

Oralar sənlə gözəldi indi,
İndi o yerlərdən xoşbəxtlik
yağır...
Məni sən olmayan bu
cəhənnəmdən
Bir gün sən olduğun cənnətə
çağır.

Çağır incik qalan çiçək misalı:
Soyuqdan, küləkdən ləçəyi
qopmuş...
Leysana, yağışa tamarzı qalıb,
Dərd-səri bu çiçək üzünə
hopmuş.

Çağır nəğmə kimi, tərənə
kimi:
Səsim cingildəsin
qulaqlarında,
Bir gözəl, bir göyçək sevgiyə
dönüm –
Dil açım ağappaq
varaqlarında.

Sənsiz bu yerlərin baharı
soyuq:
Çağır o yerlərin qışına məni,
Çağır, bu üşüyən qəlbimi ovut
–
Çevir ürəyinin başına məni...

XOCALIYAM

Xocalıyam –
Üstüm- başım cırmaq-cırmaq,
Qan ləkəli...
Baxışımda bulud yatıb,
Gözlərim yerə dikili...
Xocalıyam –
Əsir ana:
Övladları dağda- daşda,
Meşələrdə
İlim-ilim itən, batan
Yetim ana, yesir ana...
Ağrılarımın üstündə
Ot bitib, ot –
Orası çat, burası çat...
Yanır bağrım bircə ovuc
Suya həsrət...
Diri-diri ölmüşəm mən,
Duyan yoxdu –
Yerə yıxıb dərdlərimə
"Ay Xocalı, vay Xocalı"
Deyə-deyə
Dizlərinə döyən yoxdu...

KÜÇƏ

Bu küçənin baxışları yorulub,
Heydən düşüb ayaqları
küçənin,
Hər tərəfi cırıq-cırıq,
nahamar,
Gözə girir yamaqları
küçənin...

Nələr görür, nə eşidir bu
yazıq,
Öz-özünü ağlamağa dili yox,
Üstü-başı dərd qoxuyur,
neyləsin,
Yığışdırıb toplamağa əli yox...

Sinəsində çeşid-çeşid iz qalıb,
Qocası var, cavanı var bu izin,
Hərəsi bir duz yüküdür, duz
yükü,
Çatanı var, azanı var bu izin...

Ayağını möhkəm-möhkəm
basanı,
Üsul-üsul keçəni var hardasa,
Milyonların arasında üşüyən,
Dərd-sərindən bezəni var
hardasa...

Nə sirlər var cadar-cadar
üzündə,
Ləpirində, izlərində küçənin,
Bu küçənin baxışları yuxulu,
Ölüm yatıb gözlərində
küçənin...

ƏLLƏR

Bu əllərin, görən, kimdi
yiyəsi?
Bu əllərin yazı hələ
gəlməyib...
Bu əllərdən qabaq gəlib
şilləsi,
Bu əllərin nazı hələ gəlməyib.

Bu əlləri kimlər atıb şaxtaya?
Əlcəyi yox, əsir, donur bu
əllər...
Bir sevgiyə həsrət qalıb hələ
ki,
Öz-özünə uçur, qonur bu əllər.

Bu əlləri kim aldadıb,
görəsən,
Kim çıxarıb yuvasından
onları?
Kim alıbdı sığalını bu əlin,
Kim alıbdı anasından onları?

Bu əllərin qələm tutan
vaxtıdır,
Kağız satan, qələm satan
vaxtımı?
Bədbəxt gəlib bu əllərin
yiyəsi,
Bu da yazı, bu da tale,
baxtdımı?

Bu əllərin zamanı yox,
dincələ,
Nə baharı, nə qışı var bu əlin...
Heç nəyi yox bu dünyada hələ
ki,
Özü boyda qarğışı var bu əlin.

Bapbalaca əllərini uzadıb
Bircə qırıq çörək umur hələ
ki..
Bütün günü əllərinin içində
Nifrət açır, nifrət yumur hələ
ki.

ADAM KİMİ

Adam kimi doğulduq,
Adam kimi ölmədik.
Mələk gəldik dünyaya,
Mələk qala bilmədik...

Babamız Adəm oldu,
Sonra şeytana döndük.
Məğrur gəzə bilmədik,
Dağda, daşda süründük...

Tamahımız aldatdı,
Nəfsimiz uddu bizi.
Hara qaçdıq, gizləndik,
Şeytanlar güddü bizi...

Behiştin qapısında
Bizə alma uzatdı.
Aldı bizi cənnətdən,
Qır quyusuna atdı...

Nəfsimizə qul olduq,
Adam ola bilmədik.
Adam kimi doğulduq,
Adam kimi ölmədik...

DUYĞULAR

Ölülərin bacasız damlarına
tökülən kirli yağış kimidi
duyğularım:
Tökülür qəbirdən aşağı
bulanıq,
Damcı-damcı, asta-asta...
Özümdən böyük şələmin
altında
əzik-əzik
olub özümdən yekə
qayğılarım...
Kimə gərəyəm axı, kim
istəyər bu boyda məni?
Atar üzüaşağı,
karvan ayırar mən qoşulan
yolda məni...

Boğazımda düyünlənmişəm:
...Açarım ötürülür əldən-ələ;
Üzümə vurur kədərimi
üstümdən keçdikcə küləklər
belədən- belə...
Nə ola, özülsüz damımın
sökük,
çartdaq yerindən bircə qırıq
işıq süzülə;
Görə qaranlıq küncdəki üstü-
başı tozlu məni,
çıxara əynimdəki mən
olmayan min üzlü məni...

Cırıb ata üstümdə nə varsa,
yandıra ocağın kor işığında:
Əl atıb saçlarımı yola ovuc-
ovuc,
pişik kimi cırmaqlayıb
qanada üstümdəki özümü;
Qırıq-qırıq, parça-parça,
tikə-tikə özümün qarışığımda
tuta, verə özümün əlimə
məni,
bələyə külə dönmüş külümə
məni...

Çingiz ABDULLAYEV

Təsadüf

Qış idi, növbəti dəfə dostum Rəhimlə Moskvaya, oradan isə Berlinə səfər edirdik. Qatarla. Kupemizdə əslən sabirabadlı Aslan adlı bir nəfər də gedirdi. 40-45 yaşı olardı. Bakı-Moskva qatarının köhnə alman vaqonlarında – sərnişini çox olmayan kupelər darıxdırıcı olduğu üçün yol boyu hamı bir-biri ilə tanış olur və maraqlı əhvalatlar danışırdı.

Mən də dəfələrlə səfərlər zamanı rastlaşdığım azərbaycanlıların Rusiyadakı durumundan, onların qazanc dalınca Rusiyaya getmələrindən, əziyyət çəkmələrindən danışırdım. Birdən Aslan sözümü kəsdi – "Siz əzab-əziyyət görməmisiniz ki!" – deyib, başına gələnləri danışmağa başladı.

Aslan:

"Sovet Ordusunda qulluq etdiyim zaman Əfqanıstana hərbi xidmətə göndərilmişdim. Əfqanıstan müharibəsi zamanı əfqanlar tərəfindən əsir götürülərək kəndlərin birində iki həmvətənim və bir gürcü ilə yeraltı zirzəmidə əsir həyatı yaşayırdım. Azərbaycanda bizim əsir düşməmiz barədə xəbər yayılmışdı və hamı elə bilirdi ki, bizi öldürüblər. Ancaq əsirlik zamanı bizi bir başqa kəndə aparıb tövləyəbənzər yerə atdılar. Aclıqdan qabaqdan qalan yeməkləri yeyirdik. İlk vaxtlar bizi sorğu-suala tutaraq SSRİ-nin Əfqanıstanı işğal etməsini bəhanə gətirib bizə olmazın əziyyət verirdilər. Çətinliklərə, əzablara dözərək azadlıq arzusu ilə yaşayırdıq. Oradakı ev sahibləri bir neçə müddət keçəndən sonra yavaş-yavaş bizə öyrəşmişdilər.

Gözətçimiz insaflı adama oxşayırdı. Başqalarından fərqli olaraq, bizimlə daha yumşaq rəftar edirdi. Arada imkan düşən kimi gizlicə bizə siqaret, çörək və su verərdi. Başa düşürdü ki, bizim heç bir günahımız yoxdu. Öz istəyimizlə əfqanlara güllə atmağa gəlməmişdik.

Dağətəyi kənddə yaşayıb işləyirdik. Bir gün iş vaxtı gözətçi təxmini məsafəni göstərib – "Siz bu dağ aşırımını 30 saniyəyə qaça bilərsiz?" – deyərək bizə kömək etmək istədiyini bildirdi. Uzaqdan çətin görsənirdi. Ancaq azadlıq istəyi bizi quş kimi uçmağa sövq edirdi. Sevincimizi sözlə ifadə etmək olmurdu. Axı dağın o tayı SSRİ ərazisi idi. Anlayırdıq ki, bu, bir şansdır. Ondan istifadə etməliyik.

Bir müddət sonra Pakistan əsilli gözətçi bizim üçün yüngül çarıq gətirib hazırlaşmağı məsləhət gördü. Axşam bizə yaxınlaşaraq türkləri çox sevdiyini və bunun üçün bizə kömək etdiyini söylədi. Təyin olunmuş vaxtda bizi zirzəmidən çıxardıb qaçacağımız yerə gətirdi. Ayrıldıq.

Bizə şərti işarə verəcəyini, hamımızın yaxşı bildiyimiz, Şərqi tərənnüm edən bir musiqi parçasını ucadan oxuyacağını söylədi. 10-15 dəqiqədən sonra o səsi, o parçanı eşitdik. Hazır idik. Həmin məsafəni 30 saniyəyə qaçmasaydıq, bizi vuracaqdılar. Yəqin, o 30 saniyə onların sərhəd zonalarında yaranmış boşluq postun dəyişməsi ilə bağlı idi. Bir göz qırpımında sanki

uçaraq sərhədi keçdik və nəhayət, ruslara rast gəldik. Bu dəfə də ruslar bizi sorğu-suala tutdular. Bir müddət sonra bizi Moskvaya göndərdilər. Aeroporta gəldik. Bakıya uçmaq üçün bilet almağa pulumuz yox idi. Hava limanında bir azərbaycanlı bizə bilet aldı. Azərbaycanda heç kim inanmırdı ki, biz sağıq. Hamı sevindi. Yeni həyata beləcə qədəm qoyaraq işləməyə başladıq.

O zamandan Xaçmazdan, İsmayıllıdan və Gürcüstandan olan əsgər yoldaşlarımızla dostluq edirik. Gürcü dostumuz Davidlə tez-tez əlaqə saxlayırdıq. Bir gün David zəng edib ailə həyatı qurmalarının 20 illiyi və qızı Ninonun 15 yaşının tamam olması münasibəti ilə bizi Qori yaxınlığında yerləşən kəndlərinə dəvət etdi. Dəvət Novruz bayramı ərəfəsində olduğu üçün biz də bayram xonçası ilə yanaşı, bir xalça da hədiyyə üçün özümüzlə götürüb yola düşdük. Həyat yoldaşım, oğlum Əli və mən Gürcüstana səfər etdik. Bizi təmtəraqla qarşılayıb qohum-qonşuya təqdim etdilər. Evlərindəki böyük otağı da bizə ayırmışdılar.

Ertəsi gün, adətləri üzrə, səhərdən məclis başladı. Arabir keçmişdəki çətin günlərimizi yada salıb söhbətləşirdik.

Birdən mənim gözüm Əli ilə Ninonun həyətyanı sahədə üzümləri dərib zənbilə yığaraq şirin-şirin söhbət etmələrinə sataşdı. Onlar həmyaşıd olduqları üçün öz dünyalarına qapılmışdılar. Sanki ətrafı görmürdülər. Bir neçə gündən sonra Azərbaycana qayıtdıq.

Zaman keçdi. Əli universitetdə təhsilini davam etdirmək üçün – "Ata, mən Almaniyada oxumaq istəyirəm" – dedi. Bir az duruxdum, sonra isə dedim: "Oğlum, indi Azərbaycan müstəqil ölkədir. Harda istəsən, gedib oxuya bilərsən. Əsas odur ki, savadlı olasan".

Günlərin bir günü Əli Mainz Universitetindən dəvət aldığını söylədi. Sən demə, dostum Davidin qızı Nino da elə həmin universitetdə oxumaq üçün Almaniyaya gedibmiş. Bunu biz Davidlə telefonla danışanda bildik, üstünü vurmadıq. Əli və Nino universitetdə tədqiqatçı alim, islamı qəbul etmiş Əhməd Şmide ilə tanış olmuşdu. Əhməd bəy eşidəndə ki onlar Qafqazdandır, bir gün onları evinə də dəvət etmişdi.

Əli:

Həftə sonu biz onun evinə getdik. Mart ayı olduğundan gedəndə Novruz şirniyyatlarını da özümüzlə götürdük.

Əhməd bəy bizi görüb çox sevindi. Xanımı Aişə türk olduğundan bizə çox isti münasibət göstərdi.

Çay süfrəsi ətrafında türk dünyası ilə ilişkilərindən, Qafqazdakı durumdan söhbət açdı. Sonra isə bizi yazı otağına dəvət edərək kitablarla tanış etdi.

Kitablar alman və türk dillərində idi. Birdən gözümüzə "Əli və Nino" əsəri dəydi. İkimiz də bir ağızdan: "Bu əsərlə tanışsınız?" – deyə soruşduq. Gülümsündü. "Əlbəttə, tanışam. Müəllifi bakılıdır" – dedi. Əsər barədə ətraflı danışdı. Mən Ninoya baxanda sanki röyalarda olduğunu hiss etdim. Doğrudanmı bu, bir möcüzədir, bəlkə, gerçəklikdir? Yoxsa bir təsadüfdür?

Şmide bu əsərin dünya şöhrəti qazanmasından və müxtəlif dillərə tərcümə olunmasından danışdı. Əsərin müəllifinin həyat və yaradıcılığı ilə məşğul olan Berlin Şərq Tədqiqatları İnstitutunun professoru Gerhard Hopp haqqında çox maraqlı açıqlamalar verdi. Müəllifin İtaliya həyatı ilə bağlı, Avstriyada birgə əməkdaşlıq etdiyi Baronessa Elfrede Erenfels haqqında çox maraqlı əhvalatlar danışdı. Əsərin Qafqazın simvolu ola biləcək qədər dünya çapındakı sədasından söhbət açdı. Qəfil Əhməd bəy isimlərimizi dəqiqliyi ilə bir daha soruşdu. Adımın Əli, qızın adının isə Nino olduğunu xatırlatdım. O duruxdu. Doğrudanmı bu, bir təsadüfdür? – deyə, fikrə daldı. Aişə xanımı çağıraraq: – "Sən bir təsadüfə bax! Bu gənclərin adı Əli və Ninodur" – dedi. Aişə xanım isə: - "O gün olsun ki, sizin düyününüzdə iştirak edə bilək" – sözlərini zarafatla söylədi.

Əhməd bəy hiss etmişdi ki, biz bir-birimizi sevirik. O da xanımının sözlərinə qüvvət verərək: "Hə, düz deyirsən, Qafqazda bir maraqlı milli toya getmək pis olmazdı" – dedi. – Sonra isə burda nə var ki, mən islamı qəbul edib Aişə xanımla həyat qurmuşam. Bir də ki dinin buna nə dəxli? Bütün dinlərə hörmətlə yanaşmaq lazımdır".

– Universitetdə tanış olmusunuz? – deyə sual verdi.

Mən isə atalarımızın dost olduğunu, Əfqanıstanda onların başına gələnləri qısaca danışdım.

Zaman keçdi. Universiteti bitirmək üzrə idik. Ancaq arabir Əhməd bəygilə gedib, onunla görüşüb bəzi şeyləri məsləhətləşirdik. Bir gün Şmidenin evinə gələndə qapının bağlı olduğunu gördük. Həyətində bir nəfər bağ təmizləyir, ağaclara su verirdi.

Bu zaman bizə yaxınlaşan adam – "Siz Allah, bağışlayın. Bir az gecikdim" – deyə bizimlə salamlaşdı. Bizə isə bu kişinin kim olduğunu dedi: "O, Əfqanıstandandır. Bağıma baxır, ağaclara qulluq edir. Əfqanıstan müharibəsindən baş götürüb qaçanlardandır. Yaxşı adamdır, artıq dost olmuşuq".

Günlərin bir günü Nino ilə evlənmək qərarını verdik. Bu haqda valideynlərimizə xəbər də göndərdik. Evdən "Gələrsiniz, baxarıq, məsləhətləşərik. Evlənmək oyuncaq deyil ki, adət-ənənəmiz var. Elçi getməliyik. Qız tərəfin razılığı olmalıdır" söylədilər. İstəyimizi doğmalaşan Əhməd bəyə də bildirdik. O da çox sevindi: "Dəvət etsəniz, toyunuza gələrəm. Həm Azərbaycanı, həm də Gürcüstanı görərəm".

Evə döndükdən bir müddət sonra valideynlərimiz də razı olub "Xoşbəxt olun!" dedilər.

Biz öz növbəmizdə, Almaniyadan hörmətli müəllimimiz Şmideni toya dəvət etmək istəyimizi bildirdik. Atam: – Əlbəttə, çox yaxşı olar. Elə mən də, dostlar da, David də bizi həyata qaytaran, xilaskarımız olan, Pakistanda yaşayan Qurban Səid Məhəmməd Əsədi toya dəvət etmək istəyirik. Görəsən, onu tapa biləcəyikmi?

Bir ay sonra Əhməd bəyə telefon açaraq onu və həyat yoldaşını toyumuza dəvət etdim. O çox sevindi. Toy öncəsi və sonrası prosesləri diqqətlə izləyəcəyini və bu adət-ənənəni lentə alacağını söylədi: Etiraz etməsəniz, mən özümlə dostum bağbanı da gətirərəm, sizin haqqınızda danışanda çox maraq göstərdi. Bakıya gedəndə özümlə götürməsini xahiş etdi. Sən demə, onun da Bakıda əfqan qohumları varmış. Həm də onları da görmək istəyir.

Şmide:

Bir ay sonra Gürcüstanda başlayan xeyir iş, qohumlarla görüş, qız toyu sonda Azərbaycanda davam elədi. Bakıda aeroportda bizi qarşılayan zaman yanımdakı əfqan dostum çox həyəcanlı idi.

Bizi qarşılayıb İçərişəhərdə "Altstadt" adlı qonaq evinə gətirdilər. İçərişəhərin dar keçidləri, sakitliyi, insanların məhəbbəti, qonağa hörmət bizi valeh etmişdi.

Ertəsi gün Şamaxıya, oradan isə Pirquluya yola düşdük.

Budur, atlılar faytonda bəylə gəlini mağara gətirdilər. Azərbaycanın el adəti ilə musiqi çalınırdı, stolun üzərinə qırmızı lentli güzgü də qoyulmuşdu. Kənd yeri olduğundan uşaq-böyük bir-birinə qarışmış, Almaniyadan gəldiyimiz üçün başımıza yığışmışdılar. Bizim türkcə mükəmməl danışmamız onları heyran etmişdi. Hamı bizimlə şəkil çəkdirmək istəyirdi.

Bu arada, dostuma evlənənlərin valideynlərinin başına gələnləri danışanda o, nəsə fikrə getmişdi . Bakıda hələ aeroportda qarşılaşanda qonaq Əlinin atasının tanış siması olduğunu demişdi.

* * *

Şmide bağbanla bərabər toyxanaya daxil olub mikrofonu əlinə götürdü, təbrik üçün söz deyəcəklərini, ilk sözü bağbanın deyəcəyini, onun isə həmin sözləri tərcümə edəcəyini söylədi. Qurban Səid xasiyyətcə danışmayan, susqun bir adam idi, odur ki, Şmide bir az da təəccüb qalmışdı. Bağban toy sahiblərini təbrik elədi, musiqi sifariş edib rəqs etməyə başladı. Şərqi tərənnüm edən məşhur bir musiqi. Əsirlikdə olmuş üç dostu da rəqsə dəvət etdi. Birdən Aslan sevincək qışqırdı ki, a kişilər, tanıdızmı kiminlə rəqs edirik?"

Dünya, doğrudan da, kiçikdi...

Nadir ƏZHƏRİ

"İSANIN QADINI" VƏ QADIN İFADƏSİNİN KEYFİYYƏTİ

(Feminist ədəbi tənqid)

Bu məqalədə məqsədimiz feminizmin doğru və ya səhv olduğunu sübut etmək deyil. Ədəbi tənqidin müxtəlif növləri var, bunlardan biri də feminist tənqiddir. Yazıda patriarxallıq tonundan qaçmaq üçün əvvəlcə nəsr, şeir və digər sənətlərdə patriarxallıq və ataərkilliyin xüsusiyyətlərini tanımalıyıq. Bu ədəbi tənqid bu istiqamətdə bir cəhddir.

Dünya ədəbiyyatında patriarxal dilin əlamətləri çoxdur. Roman və şeirlərimizdə bilmədən patriarxal dilin əsirinə çevrilirik. Bu mövqe təkcə kişi şair və yazıçılara deyil, həm də oxuduqlarına və gördüklərinə görə kişi qaydasında yazan bir çox qadınlara da aiddir. Bu çox vaxt şəxsi məsələ deyil və yüz illər boyu patriarxal düşüncənin ədəbiyyata dəyən zərəridir.

Bu yazıda Səxavət Sahilin "İsanın qadını" romanını yalnız feminist tənqid baxımından araşdırıram. Məqsədim romanın butun məzmunu və quruluşunu təhlil etmək deyil.

Feminist ədəbi tənqidə dair qeydlər

Bir çox feminist tənqid növləri var. Burada yalnız bu istinadla kifayətlənəcəyəm: Feminist tənqid mədəniyyət və sivilizasiyadan və qadına edilən zülmdən bəhs edir. Feminist ədəbi tənqiddəki kritik vəzifələrdən biri ədəbi əsərin personajlarını öyrənməkdir. Tənqidçi, qadın obrazları da daxil olmaqla, ədəbi əsərdəki personajların həyatındakı patriarxal mədəniyyət və sivilizasiyanın rolunu araşdırır.

Simona de Bovuar feminist ədəbi tənqidin formalaşmasında əsas şəxslərdən biridir. Virciniya Vulf ayrıca qadın yazarlardan və ataərkil, patriarxal toplumlardakı qadınların istedadlarının istifadəsinə mane olan qadınların mədəni, iqtisadi və təhsillə bağlı qadağalarından yazıb. Bu sahədə digər vacib şəxsiyyətlər də var və bunlardan bəhs etmək bu məqalənin əhatə dairəsindən kənardır.

Bəziləri feminist tənqidi əxlaqi tənqid hesab edir. Feminist tənqiddə qadınların öz ədəbiyyatlarını yaratmalarına və patriarxal ədəbiyyata tabe olmamalarına imkan verdiyinə inanılır. Həm qadınlara, həm də kişilərə qadının məhdud rollarını sosial və linqvistik baxımdan pozmaları tövsiyə olunur.

Amerikalı qadın ədəbiyyatşünas Sara Roz Şarp feminizm barədə qadınlara deyir: "Təcrübələrimizin və yalnız kişi təcrübələrini doğrulayan bir mədəniyyətdəki instinktlərimizin təkzib edilməsi ilə qadınlar əsrlər boyu "əsir" olmuşdular. Bədənlərimizin və zehinlərimizin həqiqəti bizə sirr edilmişdir. Bu səbəbdən bir-birimizə qarşı əsas borcumuz var: məqsədəuyğunluq naminə bir-birimizin reallıq hissini sarsıtmamaq…" Bu

izahatlar feministi və feminist ədəbi tənqidi ifadə etmək üçün çox kiçikdir və mən yalnız əsas məqamı qeyd etdim.

Fikrimcə, ayrı-seçkilik əleyhinə olduğu üçün feminist tənqid çox vaxt aqressivdir və ədəbi əsərə daha az heyran qalır. Bu səbəbdən romanın təkcə mənfi məqamlarını axtardığımı düşünməyin.

Məsələ burasındadır ki, feminist ədəbi tənqid birtərəfli və məhdud olsa da, buna ehtiyacımız var, çünki bu ədəbi tənqid gerçəklik sarıdan boş deyil və heç olmasa ortaya atdığı problem realdır. Biz kişi və qadın yazarlar patriarxallıq söhbətinin xüsusiyyətlərindən xəbərdar olmalıyıq. Bu, şüurun ən az təsiri olan patriarxal ədəbiyyat əvəzinə humanitar ədəbiyyat tapmaq cəhdidir.

Niyə "İsanın qadını" üçün feminist ədəbi tənqid metodunu seçdim?

Çünki müəllifin romanı qadınlar üzərində qurulmuşdur və feminist tənqid bu kitabın müəllifinə romanında qadın obrazları yaradarkən özünü patriarxallıqdan nə qədər uzaqlaşdıra bildiyini göstərə bilər!

"İsanın qadını" romanının feminist tənqidi

Qeyd etdiyim kimi, feminist ədəbi tənqidin müxtəlif növləri var (Feminist-psixoanalitik tənqid, feminist-simvolik tənqid və dekonstruktiv bir feminist tənqid kimi). Bu müzakirəyə sadə bir feminist ədəbi tənqidlə başlayıram.

Roman perspektivi

Romanın başlanğıcından əvvəl kitabda verilən izahı romanın perspektivi kimi gətirirəm:

"Romanın qəhrəmanı əyalətdən şəhərə xilas olmağa gəlsə də, həyatın gözlənilməz hadisələri ilə üzləşir. Uşaqlığında və yeniyetməliyində mental dəyərlərin, ziddiyyətli ailə ehkamlarının əsarətinə düşən qadın həyatını yenidən qurmaq, sərbəst yaşamaq istəsə də, şüuraltı olaraq atdığı addımlar onu fəlakətə daha da yaxınlaşdırır. Ata sözündən, adət-ənənələrdən çıxa bilməsə də, sonradan bütün bunlara etiraz edib öz gələcəyini müəyyən edir. İsa peyğəmbərin həyatına daxil olması düşüncələrini dəyişdirib gələcəyə inanmasına stimul verir. Özünü seçilmiş, məsih adlandırması isə ətrafındakılara qeyri-ciddi görünür, gülüş hədəfi olur. Ruhdan düşmür, yuxularına inanıb, Məsihin dediklərinə əməl eləməyə başlayır.

Geciksə də, "Təzə avtovağzal" ərazisindəki kəsilən şam ağaclarının şahidi olur, məsihlik qismətinin bir addımlığında durur. Həbsxanadakı cinsi istismar təkliflərinə yox deyib işgəncələrə, əzablara məruz qalır. Gördüyü dəhşətlər, yaşadığı acılar psixoloji durumuna təsir etsə də, inamını itirmir. Mənəvi iztirablar, maddi sıxıntılar iradəsini sındıra bilmir. Əksinə, gələcəyə nikbin baxıb arzularla yaşayır. Xoşbəxtlik dünyasının axtarışına çıxır.

Ailə təpkilərinə məruz qaldığından təkliyə çan atır, sərbəstliyini təkliyində axtarır. Kafedə işləyəndə yüksək pul müqabilində fahişəlik təklifinə yox deyir. Lakin fahişə ilə "yatmağa" pulu olmayan müştəriyə təmənnasız fahişəlik edir. Savadsızlığın və mentalitetin qurbanına çevrilən qadın özü kimi qurbanların ümumiləşdirilmiş obrazıdır. Müəllif mətnə real hadisələrlə yanaşı, təxəyyüldən doğan sujetlər əlavə etməklə obrazın xarakterini açmağa çalışıb. "İsanın qadını" ilə antik və dini-mistik mətnlər arasında paralellər aparanda romanın "ikinci nəfəs"i açılır, qaranlıq mətləblər aydın olur."

Təhlil planı

- Romandakı qadın obrazlarının funksiyasının təhlili
- Ənənəvi qadın dilinin təhlili

Yuxarıdakıları təhlil etmək üçün romandakı əksər personajlarda aşağıdakı detalları araşdıracağam.

1-Qadının müxtəlif vəziyyətlərdə orijinal, ya qeyri-orijinal olduğu

Əksər feministlər insan cəmiyyətinin çoxdan patriarxal cəmiyyət olduğunu düşünürlər. Bu cəmiyyətdə kişi mərkəzdə idi və bütün fəzilətlər ona məxsus idi və əksinə olaraq qadında bu fəzilətləri qazanmaq qabiliyyəti yox idi, o yalnız kişinin tamamlayıcısı qəbul edilirdi. Nəzəri olaraq, kişi "orijinal"idi və qadın "Orijinal olmayan" sayılırdı. Dünyadakı dominant kişi

mədəniyyətinə görə bu məsələnin müəllifin şüuraltına nə dərəcədə nüfuz etdiyini görəcəyik.

Sözün patriarxal kontekstinin ən böyük kişi və hətta qadın yazıçı və şairlərdə də mövcud olduğunu təkrar edirəm. Çox vaxt bu, şəxsi çatışmazlıq deyil, hətta feminist ədəbi tənqid baxımından tarixi və qlobal bir çatışmazlıqdır. Romanın qadın obrazlarını bu baxımdan araşdıracağam.

2-Qadının məntiq, ya duyğuya tabe olması

Bəzi feministlərə görə, insan cəmiyyətlərində bir çox ikilik mövcuddur və bu ikiliyin müsbət variantı hər zaman kişilərə aid edilmiş və mənfi variantı qadın olmuşdur. Patriarxal cəmiyyətdə kişinin həmişə müdrik, qadının isə duyğusal bir varlıq olaraq xarakterizə olunduğuna inanırlar və bir çox hallarda bu duyğusallıq ətrafdakıları azdırır.

Romanın qadın obrazlarını ağıl və duyğuya tabe olmaq baxımından araşdıracağam.

3- Qadının aktivliyi / Reaktivliyi

Bəzi feministlər inanırlar ki, patriarxal mədəniyyətdə kişi həmişə yaradıcılığın mənbəyidir, yenilikçi, aktiv və təsirlidir. Bunun əksinə olaraq, qadın yaradıcılığa yad olan duyğusal bir varlıqdır, həm də bir macəraya getmək üçün cəsarəti yoxdur, romanda buna baxacağam.

4- Qadın dili və ifadə tərzi

Qeyd etdiyim üç mövzunu izah etməklə yanaşı, müəllifin bu romanda qadın dilindən necə istifadə etdiyini də araşdıracağam. İndi romandakı önəmli personajların hər birinin vəziyyətini bu dörd meyara görə qiymətləndirəcəyəm.

Personajların təhlili

Bu izahatlar əvvəlcə yorucu olsa da, feminist tənqidin düzgün bir təhlili üçün lazımdır. Nəticə hissəsində bütün bu işlərin xülasəsi və hədəfi təqdim ediləcək.

Müəllif adlandırılan bir şəxs

1-Romanın əvvəlində və ortasında mötərizədə "müəllif" adlı bir personajı görürük. "Müəllif" romanın ilk dastançısı və əsas qəhrəmanı haqqında deyir: "... (Yalan deyir, onun rəsmi olaraq bir əri olub. – müəllif)..." Eyni etiraz da var: "…İkinci dəfə ərə gedəndə getdiyim oğlanı özüm bəyəndim (Yalan deyir, müvəqqəti bir yerdə yaşayıblar, Məhəbbətin kəbinlə bir əri olub – müəllif)..."

Bu müəllifin kişi və ya qadın olması bizə aydın deyil, lakin əsas qəhrəmanın əleyhinə etdiyi etirazların keyfiyyətindən məsələlərə kişi kimi baxdığı zənn olunur. Ancaq bu, dəqiq deyil (Müəllif adlı bir personaj özünün orijinallığını və qadının orijinal olmadığını sübut etmək istəyir).

Məhəbbət (əsas qəhrəman)

1. Kitab qadın bir dastançının dediyi ilə başlayır. O, (Məhəbbət) romanın əsas qəhrəmanıdır, cəmiyyətin adətinə görə, bir qadın kimi danışmır və normal şəraitdə qadına yaraşmayan sözlər söyləyir. Bu danışıq forması onu pis bir qadın kimi göstərir və özünü pis qadın hesab etmədiyi üçün bunu oxuculara izah edir. Bu qəhrəmanda qadınlar üçün qeyri-adi bir dilin şahidi oluruq. Burada Məhəbbət, patriarxal şəraitdə qadın hərəkətsizliyindən (reaktivliyindən) güclü təsirlənsə də, aktivist olmağa çalışır. Onda müsbət, lakin sübut olunmayan işarələr də görürük (Qadın aktivdir).

2. Sonra həmin adamda məlumatsız bir qadınla qarşılaşdığımızı hiss edirik, o, televiziyada kitab mükafatlandırma mərasimini görüb, pul qazanmaq və mükafat almaq üçün yazmaq istəyir (qadın, əslində, reaktivdir). "…Fikirləşdim ki, elə oturum yazım, sonra aparıb göstərim, görüm nə çıxır. Birinci yer olmasa da, heç olmasa, 2-ci, 3-cü yeri tutaram da. Yaxşı da pul verirlər. Görüm, bəlkə, içərilərində şorgöz münsif olsa, hərəkət eləyəcəm..." (Qadın hərəkətlərində hissə tabedir).

3. Məhəbbət həyatının başlanğıcı haqqında ən yaxşı təsviri müəllif özü yaradıb:

...Məhəbbətin uşaqlığı burnu fırtıqlı həmyaşıdlarından fərqlənməsə də, az-çox maraqlı olub. Həmişə özündən böyüklərlə oturubdurduğundan tez ayılıb, başı bəlalar çəkib.

Qaragünnülüyü də körpəliyindən onu qarabaqara izləyib. İməkləyəndə iməkləyib, yeriyəndə yeriyib. Gözünü açandan gəlin-qayınana davası, qonşu yabalaşması, arvad söyüşmələri eşidib.

Üstəlik, xalaları balaca Məhəbbətə söyüşlər, ədəbsiz sözlər öyrətdiyindən "dili" tez açılıb. Uşaq ağlı isə bu sözləri harda gəldi deməkdən çəkinmir, küçədə, bayırda kimi görürdüsə, öyrəndiyi "sözlərdən" "hədiyyə" eləyirdi. Atası qızının bu "qabiliyyət"ini hər dəfə eşidəndə şapalaqla "mükafatlandırır", qaranlıq otağa salıb tərbiyələndirmək istəyirdi. Bu valideynlərin gic-gic cəzaları var da!..." (Qadın burada orijinal olmayan və digərdir, yazar bu qeyri-orijinallığın səbəbini oxucuya izah edir).

4. Məhəbbətin romanı nəql etdiyi epizodlardan birində bu cümlələr onun aktivliyə meyilli olduğunu göstərir: "...Məni yandıran ayrı şeydi. Məndən soruşan yoxdu ki, sən nə deyirsən, razısanmı, bəlkə, heç razı deyilsən? Məəttəl qalmışam. Utandığımdan da heç kimə heç nə deyə bilmirəm. Mənə qalsa, fərqi yoxdu məni kimə verirlər. İstədiyim, sevdiyim olsa da, atamın qorxusundan nə deyə bilərəm ki?.." (Qadın aktivliyə meyillidir, amma ataərkliliyə tabedir).

5. Qadın qəhrəmanında irəliləmək istəyinin bir hissəsini bu ifadəsində oxuruq: "...Əslində, ərə getməkdən qabaq oxumaq, instituta girmək istəyirdim. Qonşuda Səkinə xalanın qızı öz başı ilə APİ-yə girmişdi. Yay tətilində kəndə gəlmişdi. O vaxt mən 9-da oxuyurdum. Onun tələbəlik şəkillərinə baxanda qıza paxıllığım tutdu..." (Qadın aktivliyə meyillidir, ancaq onun stimulu daha çox qısqanclıq və səthi hissdir).

6. Məhəbbətin beyin narahatlığı olan kiçik əmisi tərəfindən təcavüz edildiyi səhnədə təcavüz məsələsi ilə qarşılaşırıq. Stanford Fəlsəfə Ensiklopediyasına görə, erkən feminizmdə təcavüzə qarşı ilk addım "sükutu pozmaq" idi. Sonrakı feministlər təcavüzün daha ciddi qəbul edilməsinə və cinayətkarın məsuliyyətə cəlb edilməsinə çağırdılar. Bu səhnədən əvvəl, kitabın bir hissəsində romanı izah edənlərdən biri, "o məsələ" ilə əlaqəli məlumat verir. Romanda rəvayət edənlərdən biri (ehtimal ki, müəllifdir) oxucuya deyir ki Məhəbbət "o məsələ"ni (təcavüzi) dillə gətirmir. (Burada qadın reaktivdir və patriarxal şərtlər altında təcavüz qarşısında susmağa məcburdur).

7. Məhəbbət dəfələrlə İsanı yuxuda görür. Dua yazanlara inanmasa da, nəhayət, dələduz dua yazanın yanına getmək məcburiyyətində qalır. Dua yazan kişi onun haqqında erotik fikirdədir, lakin Məhəbbət münasibət təklifini rədd edir. Dələduz dua yazan kişi ona bir dua yazır, onu yaşıl bir parça ilə bükməsini və evindən asmasını söyləyir. Məhəbbət gecə evdə o dələduzun duasını bükmək üçün yaşıl bir parça tapmır və sonunda onu yaşıl tumanına bükür! O yalançı duanın heç bir təsiri olmur. Qanlı əlləri olan ağ köynəkli kişi hələ də Məhəbbətin yuxusuna gəlir, Məhəbbət səhər evdə qan ləkələri görür və bu qanın aybaşı ilə əlaqəli ola biləcəyini düşünür.

Burada vacib məsələ müəllif tərəfindən ənənəvi konsepsiyaların dekonstruksiyasıdır. Patriarxal müqəddəsliyindəki stereotipləri pozur. Yaşıl parça üçün eyni dekonstruksiyanı da etmişdir. Məhəbbət bir tərəfdən yalançı dua yazanın yanına gedir və onun cinsi təklifi ilə qarşılaşır, digər tərəfdən yaşıl bir parça olmadığı üçün yazılarını tumanına bükür! (Qadın bu səhnələrdə maraqlı halda həm reaktiv və həm aktivdir).

8. Məhəbbətin atasının, öz qardaşından zəhləsi gedir. O, qızını qardaşı oğluna məcbur ərə verir. Toy gecəsi Məhəbbət əmisi oğlunu öldürmək istəyir. Bunu atasının əmri ilə edir. Məhəbbət əmisi oğlunu əvvəldən sevmirdi, amma burada da atasının əmri ilə onu öldürmək niyyətindədir. (Qadın reaktivdir).

9. Məhəbbət İsanı yuxuda görəndə bir kafedə işləyir. Hər gün yuxularını kafenin müştərilərinə izah edir. Onu yavaş-yavaş lağa qoyurlar, amma Məhəbbət İsa və yuxuları haqqında ürəkdən danışır. Bu söhbətlərdən birində Məhəbbət deyir: "...cəmiyyəti mən xilas edəcəm, qadınları mentalitetin əzabından mən qurtaracam, ağ günə çıxaracam..."

Bu səhnə, roman qəhrəmanının xüsusi olaraq qadınların həyatı və düşüncə tərzi, onu dəyişdirmə ehtiyacı barədə danışdığı səhnələrdən biridir. Ancaq sonunda sözləri ətrafdakılar tərəfindən lağa qoyulur və o susmağa məcbur olur. (Qadın bu səhnədə aktivdir və patriarxal bir cəmiyyətlə qarşı-qarşıyadır).

10. 43-cü səhifədə Məhəbbətin ikinci dəfə ərə getməsinin səbəblərini ondan eşidirik.

Məhəbbətin ikinci əri ilə evlənməsinin səbəblərindən biri də bu kişinin keçmiş arvadını başqa bir kişi ilə münasibətinə görə öldürməməsi və yalnız boşanmasıdır.

Məhəbbətin dediyinə görə, ikinci əri müdrikdir, çünki başqa bir kişi ilə münasibətinə görə arvadını öldürməyib! Bu səhnədə, kişi qətl etmədiyi üçün ağıllı bir insan kimi təqdim olunur. (Əslində, burada qadın aktivliyə meyillidir ancaq reaktivdir, huqqunu tanımır).

Fikrimcə, romanın bu hissəsində qara bir satira var. Bu, ifadənin səhv olduğunu demək deyil, müəllifin bir növ qara məzhəkə ilə patriarxal cəmiyyətlərdə anlayış və şüur səviyyəsinin çox aşağı bir şey ola biləcəyini göstərdiyini demək istəyirəm.

Məhəbbət bu romanın qəhrəmanı olaraq özünü kişilərin yaratdığı bataqlıqdan çıxarmaq istəyən bir qadındır, amma bacarmır. Romanın patriarxal mühitdində bu, ümumiyyətlə, mümkün olmur. Hətta Məhəbbətin ölümü son evliliyi ilə üst-üstə düşür!

Məhəbbətın üç xalası

1. Bu fakt onları tamamilə təqdim edir: "...Onun üç qarıyıb-qurddamış xalası var. Üçünü bir yerdə görəndə deyərsən ki, qarşında üçbaşlı əjdaha dayanıb. Həyasızlıqda və saçyolduya çıxmaqda biri o birindən qətiyyən geri qalmır. Tərs kimi Məhəbbətgil onlarla qapıbir, çəpər-çəpərə qonşudur. Günü onların yanında keçir. Yuxudan duran kimi, gözünü ovmamışdan qaçır ora..."

Əlbəttə ki, bu romanda Səxavət Sahil qadınları alçaltmaq istəmir, yüksəltmək istəyir, ancaq dünyanın müxtəlif mədəniyyətlərində əsrlər boyu yüngül xüsusiyyətlər qadınlara aid edilmişdir. Bu o qədər təkrarlanır ki, əslində, bəzi qadınlar eyni o yüngül davranışları göstərir və hər kəs bu cür davranışları qadınlara münasib davranışlar hesab edir. Simona de Bovuarın "Heç bir qadın qadın olaraq doğulmur, qadın olur" fikri də eyni şeyi ifadə edir.

Məhəbbət uşaqlıqdan tamamilə patriarxal mədəniyyətə qərq olmuş qadınların yaşam mühitinə qədəm qoyur: "...Yuxudan duran kimi, gözünü ovmamışdan qaçır ora. Ta axşam düşənə qədər.Toran vuranda atası işdən gəlib görür ki, uşaq yenə ordadı, cin vurur beyninə. Qızı da gəlmək bilmir ki bilmir, gedib onu sürüyə-sürüyə evə gətirir..."

Müəllif romanın qadın qəhrəmanına təsir edən amilləri yazmışdır. Ancaq bu amillərin kökü deyilmir. Bu hissədə də kişinin (Məhəbbətin atasının) düzgün qərarı var və Məhəbbətin xalaları bu fəzilətdən məhrumdular. (Kişi rasionaldır, qadınlar yox).

Məhəbbətın atası

1. Əvvəldən Məhəbbətin atası qızın xalalarının evinə getməsinə qarşı çıxır.

Xalaların evi qızın atasının evinin yanındadır. Məhəbbətin atası qızının xalalarından ədəbsiz sözlər öyrəndiyinə görə çox üzülür. Qızın atası onu dəfələrlə cəzalandırır, ancaq lazımi nəticəni ala bilmir. (yenə kişi rasionaldır, qadınlar yox).

2. Atanın cəzası və Məhəbbətin (Məbişin) tərbiyəsi belə davam edir: "...Balaca Məbişin ən balaca cəzası qulaqdibi şapalağı, qaranlıq otaq olsa da, uşaq ağıllanmaqdan Uzaq Şərq qədər uzağıydı. Xala tərbiyəsi isə bacıqızını gələcəyə "hazırlayırdı"..." (Burada da qadınların rolu məntiqçilikdir).

3. Məhəbbətin atasının elçilərə qəzəbləndiyi səhnədə, duyğu və məntiqsizlik rolunu oynayan odur. Əksinə, rasional davranan qadınlardan biridir: "...Anamı çağırıb qışqıra-qışqıra dedi ki, get onlara de, rədd olub gəldikləri kimi də getsinlər. Əlim-ayağım dəyməmiş cəhənnəm olsunlar. Anama da bir tərs şapalaq ilişdirdi:

– Bunları niyə evə buraxıbsan, hələ bir qabaqlarına çay qoyubsan,– səsə elçilər çıxdı. Əmimin arvadı irəli gəlib anamın qolundan tutdu. Atama tərs-tərs baxıb:

– Biz sənin evinə qonaq gəlmişik, qonağı belə qarşılamazlar, – dedi...." (Qadın məntiqlidir, kişi yox).

Yuxarıda göstərilənlə bağlı qadınların rasionallığı onu göstərir ki, kitabın bəzi cümlələrində patriarxal tonlar varsa, bunun iki səbəbi var:

A. Yazar qəsdən romanı inkişaf etdirmək üçün patriarxal bir atmosfer yaradır.

B. Və ya romanı yazarkən dil kontekstində patriarxal tonun gizli təsirinə kifayət qədər əhəmiyyət vermir. Çünki bütün romandan məlum

olur ki, müəllif bu romanı qadın hüquqları haqqında maarifləndirmək üçün yazmışdır.

4. Məhəbbətin atası qardaşı Misir əmi ilə mübahisəyə görə qızını onun oğluna vermək istəmir. Sərgüzəştlər üzündən bu əlaqəni qəbul etmək məcburiyyətində qalır, ancaq gizlicə nikah xonçasında gizlətmək və ərini öldürmək üçün Məhəbbətə iri bıçaq verir (Qadın "orijinal" deyil "digər"dir çünki atasının əmrini dinləyir).

Məhəbbətin anası

1. Məhəbbətin anası ilə ilk dəfə atasının Məhəbbətin 5 yaşını qeyd etmək qərarını verən yerdə görüşürük: "...Məhəbbətin 5 yaşı tamam olanda atası həyətdəki iri gövdəli, sallama yarpaqlı tut ağacının altında stol açıb, yağlı qonaqlıq verdi. Arvadının təkidi də öz yerində. Yoxsa kimiydi uşağa ad günü keçirən?.."

Məhəbbət ad günündə atasının dostlarına ədəbsiz söz deyir. Ata qızını döyür və romanın davamında, atanın reaksiyalarının təsvirinin bir hissəsində oxuyuruq: "Məhəbbətin cəzasını həmişəki kimi qaragünnü anası çəkdi. Əri onu evə salıb, əldən düşənə qədər cehizlik yunu kimi çırpdı…" (Qadın reaktivdir).

Misir əmi

1. Misir əmi Məhəbbətin əmisidir. Misir əminin oğlu Məhəbbətə maraqlanır. Misir əmi ilə Məhəbbətin atası arasında düşmənçilik var, ancaq Misir əmi Məhəbbəti çox sevir. Məhəbbətin atasının dediyinə görə, ikisinin arasındakı düşmənçiliyin səbəbi Misir əminin ailəni rüsvay etməsidir. Misir əmi romanda mənfi bir şəxsiyyət deyil.

Verəngül nənə

1. Romanın bir hissəsində bu xarakterlə qarşılaşırıq. Əslində, o, qızların bakirəliyini qaldırdığını elan edərək həyatını təmin edən biridir.

"…İndi növbə elin ən təcrübəli yengəsi Verəngül nənənin idi, bu dünyada hərənin öz işi olduğu kimi, onun da işi yengəlik idi …".

Əslində, patriarxal cəmiyyət, patriarxallığı davam etdirən tabuları qorumaq üçün müxtəlif formalarda qadın fərdləri və şablonları yaradır. Bu romandakı Verəngül obrazı cinsi dəyərlər şəklində patriarxal sistemi qoruyan qadınlardan biridir (Qadın orijinal deyil).

Məhəbbətin dayısı

1. Məhəbbətin küskün dayısı Rusiyadan yalnız Məhəbbətin ad günü üçün onların evinə gəlir. Onun əsas hədiyyəsi son gündə Məhəbbətə verdiyi qızıl su ilə işlənmiş saxsı qabdır. Həmin hədyyənin üstündə əllərində bıçaq olan qızların şəkilləri və digər qarma-qarışıq şəkillər var. Təsvirin alt hissəsində "Doçı Danaya" yazılıb. Hekayədəki bu səhnə, Məhəbbətin atasının əmri ilə gərdəkdə həyat yoldaşını bıçaqladığı hissədən sonradır. Bəy onun əmisi oğludur və Məhəbbət onu heç sevmir, Məhəbbətin atası da üstəlik, öz qardaşına nifrət edir.

"Doçı Danaya" yunan mifologiyasındakı "Danay qızları"na aiddir. Bu əfsanədə Misir kralı 50 oğluna Danayın əlli qızı ilə evlənmələrini əmr etdikdən sonra Danay qaçır, amma nəhayət, razılaşmağa məcbur olur. Danayın əlli qızı əlli əmisi oğlu ilə evlənməli idi. Danay, qızlarına toy gecəsində ərlərini öldürmələrini söyləyir. Bir qızdan başqa bütün qızlar kişiləri öldürürlər, təkcə bir kişi cinsi əlaqəyə girməməyi qəbul edib sağ qalır. Bu qətllərdən sonra qızlar dibsiz çəlləyi və ya hovuzu su ilə doldurmağa məhkum edilirlər. Qərb mədəniyyətində "Danayın qızları" boş yerə səy göstərməyin rəmzi hesab olunur. Burada romanın bir hissəsinin, əslində, yunan mifologiyasına etibar etdiyini başa düşürük. Bu səhnədəki qadın aktivdir və yaxşı-pis romandakı kişilərdən birinə qarşı üsyan edir. (Qadın aktivdir).

Xuraman (Xuruş)

1. Xuraman təhsil aldığı dövrdə Məhəbbətin dostudur. Məhəllələrində 40 yaşlı subay oğlunu Rusiyadan zorla qaytarmış bir ailə var. Ailəsi ondan evlənməsini istəsə də, "avaragör" oğlan yox deyir. Sonra Xuramana aşiq olur və onu oğurlayır...

Müəllif, qızları oğurlamaq (qaçırmaq), bakirəliyini məhv etmək, onları ərə getməyə məcbur etmək üçün mürtəce və patriarxal davranışı təsvir edir. Məhəbbət bu macəranın bir hissəsini belə nəql edir:

"...3 kişinin qabağında Xuruş neyləyə bilərdi ki? Baqajı bağlayıb, tez maşına minib qazı basdılar. Mən də özümü itirmişdim, qorxumdan hasarın dibinə qısılmışdım. Səs-küyə orda olanlar, marketin qabağında nərd oynayanlar dönüb baxırdı. Amma heç kim yaxına gəlib bir söz də demədi, qız qaçırmağa öyrəncəliydilər..."

Romanda bu macəranın bir kənddə baş verdiyini izah etməliyik. Bu səhnə yazarın bu cür sosial pozuntulara qarşı açıq etirazıdır. Bu təsviri verərkən Xuramanın müqavimətini və evlənməkdən imtina etməsini aradan qaldırmaq üçün bakirəliyini məhv etməsini oğlana tapşıran, qadınların özləri - Verəngül nənə və oğlanın anası Sura xaladır. Bu həll Verəngül tərəfindən təmin edilir. Patriarxallığın qurbanı olan və başqalarını qurban verən bir qadın.

Ən kədərli məqam Xuramanın illər sonra sərvətə və bəxtə çatması və göründüyü kimi eyni ərinə sahib olmasıdır. Digər kişilərlə flirt edir və çox pul qazanıb. Bu səhnədə də hər zaman qadına qarşı tabu olaraq istifadə olunan bakirəliyin məhv edilməsi ilə qarşılaşırıq. Yəni Xuramanın bakirəliyinin itməsi: "...Ondan sonra Xuruş quzuya döndü. Toyuna öz tərəflərindən bircə xalası gəlmişdi..."

Xuramanın macərasına diqqət yetirsək, əslində, patriarxal cəmiyyətlərin qadınları inanclarında zəlalət yolu hesab etdikləri bir yola getməyə məcbur etdiklərini görərik!

Ayka

1. Romanın bir hissəsində Məhəbbət bir qəzetdə oxuduğu macəranı nəql edir:

İki qız dostdur. Birinin sevgilisi var və münasibətdədir, gözü açıqdır. Başqa biri facebookda fəlsəfi sitatlar göndərən gözübağlı bir qızdır, onun adı Aykadır.

Ayka, nənəsinin ona miras qoyduğu qızıllardan buzov formasında fiqur düzəltdirir, qızıl buzovun sehrinə inanır. Və hər yerdə onu üstündə saxlayır.

Aykanın dostu onun üçün yaxşı bir iş gördüyünü düşündüyündən Aykaya bir sevgili tapır. Sonunda bu münasibətin nəticəsində Ayka bakirəliyini itirir.

Ayka romanın bir səhnəsində bakirəliyini itirərək ağlayarkən hələ də onu xilas edəcəyinə ümid bəsləyən qızıl buzovu əlində tutub... Bu qızıl buzov "Gold encalf" mövzusuna işarə ola bilər.

...Musa dağa çıxanda İsrail övladlarının bəziləri qızıllarını əridib buzov halına gətirdilər və xalqı ona ibadət etməyə çağırdılar. Burada romanın müəllifi ikinci dəfə romanını dini və tarixi povestlərlə bağlamağa çalışıb.

Buradakı iki rəfiqənin hər ikisi bir növ mənfi rola malikdir, biri diqqətlə əylənir, digəri isə gözü bağlıdır və xurafata da inanır. Bu mənfilik demək olar ki, hər ikisinə ictimai münasibətlər tərəfindən tətbiq olunur, çünki onlar, əslində, insan cəmiyyətində qadın hissləri olaraq bilinən duyğulara məğlub olurlar (Burada qadın, hissi təmsil edir və məntiqsizdir).

Xuraman bölməsində kənddə bir qızın bakirəliyi adam qaçırma yolu ilə, Ayka hissəsində isə şəhər münasibətləri yolu ilə itir. Başqa sözlə, qadınlara qarşı sui-istifadə ehtimalının forması dəyişir, lakin bakirəliyin dəyəri hələ də qalmaqdadır.

Dünyanın patriarxal cəmiyyətlərində, istər şəhərdə, istərsə də kənd yerlərində olsun, qadınlar həm birbaşa, həm də dolayı yolla bəzi kişilər tərəfindən cinsi zorakılıq və hətta təcavüzə məruz qalanda da məhküm sayılırlar.

Onlar cinsi zorakılıqlara məruz qalırlar və eyni zamanda bakirəliklərini qorumaq məcburiyyətindədirlər və bakirəliklərini itirmələri səbəbi ilə günahlandırılırlar. Daha sadə dillə desək, patriarxal cəmiyyətlər "Tazıya deyir tut, dovşana deyir qaç".

Məhəbbətin yuxusuna gələn İsa

1. Məhəbbət romanda İsanı qanlı əlləri ilə dəfələrlə yuxuda gördüyünü söyləyir. Romanın bir hissəsində Məhəbbət mənəvi bir dəyişikliyə məruz qalır və xoşagəlməz sözlər və işlərinin çoxunu kənara qoyur, artıq başqalarına İsanı yuxuda görməyindən danışmır. Məhəbbətə İsanın əsas mesajlarından biri budur: "...Mənə deyirdi ki, sən seçilibsən, sənə bir övlad verəcəm, səndən sonra sənin yolunla gedəcək. Cəmiyyəti, qadınları xilas edəcək. Qadınların xilası, cəmiyyətin xilası deməkdir. Yenə də cümə günü yuxuma gəlmişdi, həmişəki ağ, uzun geyimdə idi, əllərindən də qan damcılayırdı. Mən onun yuxuda, yoxsa aşkarda gəldiyini kəsdirə bilmirdim, çox vaxt elə bilirdim ki, bu, yuxu yox, həqiqətdir. Sol tərəfdə kravatıma yaxın dayanmışdı, mənə dedi ki, sənin övlad dünyaya gətirmək vaxtın çatıb. Bu

övladı sən dünyaya gətirsən də, o, bütün dünyanın övladı olacaq. Ərin olmasa da, sən uşağı ərsiz doğacaqsan. Uşaq da qız uşağı olacaq, bədəninə ruh üfürdüm, sabah mən deyən yerə gedərsən...."

Məhəbbət ilk dəfə İsa dediyi yerə getmir. Bir müddət sonra İsa yenidən yuxusuna gəlir və bir daha deyir ki, bir yerdə üç hündür şam ağacı var, get ora, orta ağacı qucaqla, gözlərini yum, məni xəyal et, hamilə qalacaqsan.

Romandakı İsa qadınları və insanlığı xilas etmək üçün bir qadın seçir (Burada qadın orijinaldır).

Nəticə

Əvvəlcə qeyd etdiyim kimi, "İsanın qadını" romanını yalnız feminist bir ədəbi tənqid baxımından araşdırmışam.

Səxavət Sahil "İsanın qadını" romanında romandakı bəzi personajların dilində (əksər kişi və qadın yazıçıların çıxışında olduğu kimi) gizli və vərdişli ataerkil terminlər səsləndirir, amma mahiyyət etibarilə qəhrəmanına məxsus bir qadın ifadəsi ilə patriarxallığa qarşı üsyan edir. Bu üsyana əlavə olaraq onun romandakı qəhrəmanı digər ayrı-seçkiliklərə də etiraz edir.

Dəyərli məqam budur ki, bu qadın üsyanı müəllifdə yaxşı qurulmuşdur və əvvəllər müəyyən bir formatda (məsələn, ideoloji baxımdan) yazmaq qərarından irəli gəlməmişdir.

Bu vəziyyətin zəif cəhəti ondadır ki, müəllif romanı yazarkən birbaşa ataerkil dil mövzusuna olduğundan artıq diqqət yetirsəydi, qadın qəhrəmanları üçün daha münasib qadın dilini yaradaraq Məhəbbətin mübarizəsinin bir hissəsini qadın ifadəsi sahəsinə yaymış ola bilərdi. Yazar, romanın qadın qəhrəmanının dilinə daha çox cinsi konsepsiya cəmləşdirərək qadın dilini təqdim etməyə çalışıb.

Məsələ onun bunu etməsi deyil, məsələ budur ki, bu romanda qadın dilinin digər cəhətləri bu cinsi sözlər qədər qabarıq deyil.

Feminizm baxımından bu romanda başqa bir müsbət məqam da var.

Məhəbbət qadınları xilas etmək istəsə də, onun mübarizəsi bir növ ideologiya ilə məhdudlaşan bir mübarizə deyil, özünün və digər qadınların həyatının həqiqətindən qaynaqlanır. Romanın qəhrəmanı hətta özü üçün fahişəlik kimi anlayışları yenidən müəyyənləşdirmişdir.

Yazar bu romanda yanlış təsəvvürlərin qurbanı olan qadınların dərdini deyir.

Romanda Məhəbbət və Xuraman kimi obrazlar bütün səyləri ilə patriarxallığın ayaqları altında əzilir və səyləri nəticə vermir.

Bu romanın iki hissəsi yunan mifologiyası ilə əlaqəlidir. Bu mifologiya özü də feminist ədəbiyyat baxımından nəzərdən keçirilə bilər. Məhəbbətin ilk evliliyinin dizaynı bu yunan əfsanəsinin hekayəsinə əsaslanır: "Danayın qızları" (Romandakı Məhəbbətın atasıyla bərabərdir).

Yunan mifologiyasında Misir padşahlarından biri idi. (Romandakı Misir əmiyə bərabərdir).

Bu romanın da sonunda Məhəbbət həbsxanadakı bəzi adamlara fidyə ödəmədiyi və cinsi istismara baş əymədiyi üçün cərimələnir və cəriməsi yunan əfsanəsindəki "Danayın qızları" kimi boş yerə su daşımaq olur! Məlumdur ki, Qərb mədəniyyətində "Danayın qızları" boş yerə səy göstərməyin rəmzi hesab olunur. Düşünürəm ki, bu romandan patriarxal cəmiyyətlərin dəyərləri mövcud olduğu müddətdə qadınların əsl azadlıq yaşamayacaqları mesajını almaq olar.

Romanın başqa bir hissəsində "Qızıl buzov" mövzusu, "Golden calf" və Musanın mövzusuna işarə ola bilər.

Dedik ki, Musa dağa çıxanda bəzi adamlar qızıllarını əridib buzov halına gətirdilər və xalqı ona ibadət etməyə çağırdılar. Yazar romanda bəzi qadınların xurafata inamının insan haqlarına vurduğu ziyanı göstərmək üçün qızıl buzov simvolundan istifadə edib.

Romanın sonunda həbsxana mənzərələri, Məhəbbətin son evliliyi və ölüm səhnəsi aşağıdakı mənanı doğurur:

Dünyada qadınlar haqları üçün çox çalışırlar, amma çox vaxt əzilirlər və hələ patriarxallıqdan və cinsi istismardan qurtula bilməyiblər.

Romanın sonundakı ölüm səhnəsi patriarxal cəmiyyətlərdə bir qadına sahiblik mövzusunda kişilərin fərqli olmadığı təəssüratını yaradır. Burada İsanın romanda əvvəlki obrazının dekonstruksiyasını da görmək olur.

MÜHARİBƏ GÜNDƏLİYİ

/EMİN PİRİ

HAMIDAN ÇOX UŞAQLARI SEVƏR
MÜHARİBƏLƏR.
KİMİNİN ALNINDAN,
KİMİNİN GÖZÜNDƏN ÖPƏR.
TANRI DAHA TEZ
SEVDİKLƏRİNİ APARIR, DEYİRLƏR.
ALLAHIN ÖPÜŞÜDÜ,
BƏLKƏ, ELƏ BU GÜLLƏLƏR?!

Uşaqlardan uşaqlara Xocalı

Xocalıdayıq. Daha doğrusu, kəndlərində. Ordumuzun işğaldan azad etdiyi o müqəddəs torpaqlarda...

Xocalı – adı belə adamı vahiməyə salır. Uşaqlıqdan izlədiyimiz videolar, yazılar, şahid ifadələri Xocalını düşüncəmdə cəhənnəm bir məkan kimi formalaşdırıb.

Amma ayağımı o torpağa qoyandan əvvəlki düşüncələrim 180 dərəcə dəyişir. Yeni bir Xocalı yaradıram özümə. Bir yanda çaylar, bulaqlar, meşələr, dağ, cığır – bura əməlli-başlı cənnət imiş ki... Heç bir rayonumuzun haqqını yemək istəməzdim, amma indiyə kimi gördüyüm ən gözəl yer buradır.

Bu cür cənnət torpaqda uşaq qətliamı niyə yaşansın axı?! Cənnət torpağı uşaq qanıyla gübrələmək hansı düşüncənin məhsulu ola bilər? Vandalizm!

...Evlərə giririk. Bu evə isə tək girmişəm. Bilmirəm hansı düşüncə məni bu evə salıb. Bəlkə də, içimdə yatan vəhşi ruh oyanıb, qənimət istəyi məni o evə salıb. İnsanam da... Amma şair ruhum o vəhşinin nəfsinə yenilərək arxasınca addımlayır.

Otaqlardan birinə girirəm. Ortalığa dağılmış uşaq geyimləri və beşik. Uşaq otağı imiş. Stolda fotoalbom var. Vərəqləyirəm fotoları.

Bir anlıq ruhumdakı vəhşi yoxa çıxır. Hara gedib, bilmirəm. İndi Emin Piri ilə birgəyəm bu otaqda və qarşımda albomdan mənə boylanan uşaq...

10-12 yaşı olar uşağın. Şəkillər ancaq ona məxsusdur. Doğulandan bu yaşa kimi olan şəkillər. Bəlkə də, bu evdə ondan qabaq azərbaycanlı uşaq yaşamışdı –yaşı bizdən böyük, bizdən əvvəl doğulan, amma heç zaman böyüməyən bir uşaq...

Təkəm, uşaq çarpayısında oturub albomu vərəqlədikcə, bəlkə də, hönkürürəm, yadımda deyil.

Kvazimod kimi qışqırmaq istəyirəm evdə, bu uşaq otağında. Mən vəhşi deyiləm, insanam, hisslərim, duyğularım var...

Özümdən asılı olmadan qəribə duyğular yaşayıram. Qənimət, başqa heç nə gözümdə deyil, düşünmürəm. Anidən fikrim dəyişir. Xocalıda yaşayan uşaqların albomlarını yığmaq. Bacardıqca daha çoxunu.

Albomdakı şəkilləri götürürəm. Sonra digər evlərə girib uşaq olmuş evlərdə uşaq şəkillərini çantaya yığıram.

Xocalı – uşaq qətliamının yaşandığı yerdə erməni uşaqlarının şəkillərini yığmaq...

Necə də ağrılıdır...

Uşaqlıq xatirəsinin nə olduğunu yaxşı bilirəm. Bizimkilər yaşamasa da, o qaçaqaçda uşaqlıq xatirələrini salıb itirsələr də. Bəlkə də, bəziləri xatirələrlə birgə torpağa qarışıb torpaq olsalar da. Azərbaycanın torpaq uşaqları...

Bir gün sülh dövründə o şəkilləri sahiblərinə qaytarmaq ümidilə... Bəlkə də, bir gün bizə, mənə bənzəyən kimsə olar o uşaqlar arasında... Bu jestlərdən sonra... Bəlkə də, dəyişərlər o böyüyən uşaqlar.

...Ətrafa minaatan mərmisi düşür. Amma digər evə də girirəm... Sonra digərinə...

Bütün çətinliklərə baxmayaraq, o albomların bəzisini müharibə bitənə kimi salamat saxlaya bildim. Özümdən çox o uşaqların xatirəsini qoruyurdum.

Tərxis olduqdan sonra o şəkilləri özümlə birgə gətirmişəm.

İndi düşünürəm: şəkillərini yığdığım o uşaqlar sağ-salamat qaça bildilərmi?

Müqəddəs məktublar

Dünyanın ən müqəddəs məktubları idi o məktublar. İçindəki sevgi ən böyük sevgilərdən daha böyük, ən saf hisslərdən daha təmiz.

Bəli, dünyanın ən müqəddəs məktubları idi cəbhəyə göndərilən məktəbli məktubları.

Təminat gələrkən ən çox aradığımız, soruşduğumuz idi; – məktəbli məktubları var?

Bəlkə də, üstündə dava edərdik, mənə də çatsın deyə...

Özümdə məktub olarkən belə, əsgərlərdə olan məktubları alır, onları da oxuyurdum. Arayırdım. Kim yazıb, görəsən, onlarda olan məktubları? Bir-bir baxırdım bütün məktublara. Bəlkə, birinci sinifdə oxuyan bacım qızından olar deyə. Bəlkə, dərs keçdiyim məktəbdən hansısa şagirdim yazar deyə.

Məktəbli məktubları yoxdursa, qalib müəllim də yoxdur.

Hər gün oxumaq istədiyimiz, hər gün yanımızda olmasını istədiyimiz məktublar, amma müəllifinin heç zaman bu odun-alovun içində yanımızda olmasını istəmədiyimiz...

O məktublar əlimdə olarkən o uşaqların əllərinin istiliyini hiss edirdim, oxuyarkən o sözlərdə onları görürdüm. Gülümsəyən, bir az dəcəl, amma saf uşaqları görürdüm o məktubların içində.

Füzuli-Cəbrayıl istiqamətində olarkən almışdım bu məktubu. Sonra sol döşümdə olan, ürəyimin üstündə cibimdə gəzdirdim o məktubu. Müharibə bitənə kimi. Ara-sıra palçıqlı günlərdə palçıq da oldu o məktub. Yox, yox, çirklənmədi, vətən torpağına qarışdı o məktub. Vətənləşdi o məktubdakı sözlər, sözlərdəki sevgi.

Tərxis olana kimi elə ürəyimin üstündə qaldı. İndi də evə gətirdiyim ən böyük qənimətdir o məktub. Ömrümün ən gözəl hədiyyəsi, müharibədə aldığım ən qiymətli mükafat. Yəqin ki, ömrümün sonuna kimi o məktubu ən böyük müharibə medalı kimi evimin bir köşəsində saxlayacam.

Hərdən düşünürəm, ətrafımıza düşən bu qədər mərmi, başımızın üstündən uçan güllələr. Məni qoruyan, bəlkə, o məktub idi? Qəlbimin üstündə gəzdirdiyim məktub ən böyük duam, qoruyucu mələyim idi.

Amma bizi, məni qoruyan o məktub müəllifləri özünü qoruya bilmirdi. Qoruya bilmirdi özünü Bərdədə...

Xilas ola bilmirdi Gəncədə...

Qaça bilmirdi mərmilərdən Ağdamda...

Bəlkə də, o uşaqlar bizim yerimizə özünü qurban vermişdi bu torpağa, Tanrıya.

...Hamıdan çox uşaqları
sevər müharibələr.
Kiminin alnından,
kiminin gözündən öpər.
Tanrı daha tez
sevdiklərini aparır, deyirlər.
Allahın öpüşüdü,
bəlkə, elə bu güllələr?!

Mələklərin sayı azaldı, məktubların sayı azaldı. Bu dünyadan neçə-neçə sevgi azaldı… Küsdü, küsdü o uşaqlar böyüklərin müharibə oyunundan. Bəlkə, bizi incitməməkçün, daha ürəkli olaq deyə, gözümüz arxada qalmasın deyə, bir-bir uçdular səmaya…

Bağışla,
Bağışla sənə dəyən güllələri.
Qolundakı metal qırıntısına gülümsə –
bir çimdik bil, böyüklərdən hədiyyə.

Bilirəm, uşaqlar ölmür,
böyüklərdən küsür,

küsür bu dünyadan
və eləcə uçur, gedir...

Mənim bayraqdarım idi məktəbli məktubları.

Onlar bizimlə bərabər döyüşürdü. Azərbaycan ordusu ilə birgə azad edirdi işğalda olan torpaqları. Onlar da qazi olurdu... Hər şəhidlə birgə üstündə gəzdirdiyi məktəbli məktubu da şəhid olurdu...

Xınalı quzular

Anamın barmaqları saçımda gəzdikcə o barmaqların duasını, Tanrıya yalvarışlarını eşidirəm. Sanki göz yaşları isladırdı o xınanı, qarışdırırdı onu. Həəə, dəqiq hiss edirəm bunu. Saçlarımda, qəlbimdə, ruhumda... O barmaqlar özünü balası uğrunda, balasına əvəz özünü qurban verməkçün Tanrıyla razılığa gəlməyə çalışırdı...

27 sentyabr. Payız səhəri. Bazar günü. Həmişəki kimi bu bazar səhər doyunca yatım dediyim halda, yenə erkəndən durmuşam. "Feysbuk"a girmək istəyirəm, amma işləmir. Saytlara da girmək mümkün deyil. Bir-iki dosta zəng edib nələrin baş verməsi haqqında maraqlanmaq istəyirəm, amma zəng də çatmır. Nəhayət, sonradan bəzi saytlara girə bilirəm. Müharibə başlayıb...

"Və o gün gəlsəydi" dediyim gün gəldi...

Özümə yer tapa bilmirəm. Bəlkə, Aprel döyüşləri kimi yarım dayandı? Ya bu informasiyalar şişirdilmiş, yalan məlumatdırsa? Evdə elə darıxıram ki, sanki illərdir sevdiyim birindən ayrı düşmüşəm. Onu, ayrı düşdüyüm sevgilimi görə bilərəm, amma evdə qalsam, bir daha onu görə bilməyəcəm. Bu məchul sevgili hansı məchul məkandadır, onu bilmirəm.

Bu darıxmaqlar nəticəsində səhər bacımgilə yola düşürəm, bəlkə, uşaqlarla oynayıb, yeznəylə söhbətləşib bu darıxmağımı unudaram. Heç bir saat deyildi, bacım uşağıyla oyundan məni Aqil Abbasın zəngi ayırır; işə gəlin, müharibə başlayıb. Həmişə belə olub, müharibənin ən böyük zərbəsini uşaqlar alır. Beləcə, oyunlar yarımçıq qalır, uşaq sevgilərini hansısa mərmi atışı yarım qoyur...

Bazar günü, pandemiya ilə əlaqədar işləməyən ictimai nəqliyyat. "Ədalət" qəzetinin baş redaktor müavini Əbülfət Mədətoğlu öz maşınıyla məni götürür və işə gəlirik.

Sevincli və qürurlu gündür. İş otağında olan Qarabağın miqyası böyüdülmüş xəritəsində qürurla azad edilmiş kəndləri tapırıq, öz analizlərimizlə fikirlərimizi yürüdürük. Bu günün qüruruyla, bu haqda yazılarla günümüzü belə yola veririk.

28 sentyabr. Yenə tezdən işə gəlmişəm. "Tarixi bütövlüyə doğru" adlı yazımı işləyirəm. O yazıda korpus komandiri polkovnik Babək Səmidlinin bizi müşayiət edərək Gülüstan qalası qarşısındakı mövqelərə aparması, Aprel döyüşlərinin necə getməsindən, əməliyyatlarından bəhs etməsindən danışıram (Müharibədən sonra öyrənirəm ki, polkovnik Babək Səmidli şəhid olub).

Elə bu saatlarda hərbi komendant vəziyyətinin tətbiq olunması haqqında qərar verilir. Ardınca prezidentin qismən səfərbərlik haqqında sərəncamı.

Zarafatla dostlara deyirəm ki, baxın, birinci zəng mənə olacaq. Bir neçə dəqiqə keçmir ki, Sumqayıt hərbi komissarlığından zəng gəlir. Ora getməyim istənilir.

İş yoldaşlarım inanmır, elə bilirlər, onlarla zarafatlaşıram. Öncə əlimdə yarımçıq qalan yazımı bitirirəm, daha sonra "feysbuk"da dostlarla vidalaşıb, iş yoldaşlarımla da görüşüb evə-Sumqayıta doğru yol alıram.

Anam kədərlidir, evində iki oğlu və müharibə... Bilmirəm, necə deyim getməli olduğumu...

Və anam başıma xına qoyur. İlk dəfədir ki, anamın hisslərini bu qədər gizlətməyə çalışdığını görürəm. Ağlamaq istəyir, özünü güclə saxlayıb. Barmaqları telimdə gəzdikcə, xına qoyduqca əllərinin duasını eşidirəm.

Səhər tezdən mənlə görüşməyə gələn bacım uşaqlarını öpürəm. Müharibəyə uşaq təbəssümü ilə getmək də, bəlkə, həyatın ən böyük ironiyasıdır. Sonuncu öpüşüm elə körpə təbəssümü, körpə yanaqlarından olsun. O müqəddəs torpaqlara körpə gülüşü, körpə öpüşüylə yola düşmək...

Gecə yarısı heç zaman üzünü görmədiyim Könül adlı bir xanımın qəfil bir mesajını

görürəm: "Səni gözləyəcəm". Nömrəsini qoyur. Mümkünsə, mənə hər gün zəng elə...

Tanımadığın, görmədiyin birinin sevgisi. Onu narahat qoymamaq hissi gəlir mənə. Bilmirəm, necə olursa, özümlə götürdüyüm, bloknota yazdığım 7 nömrədən biri də onun nömrəsi olur. Könüllü getdiyimi bilirdim, bəlkə, bu da bir simvoldu, Könül adlı birisi... Könül adlı bir sevgi...

Sumqayıt Hərbi Komissarlığındayam. Zabitlər bölməsində. Qəribəsi budur ki, əlifba ilə heç bir uyğunluğu olmamasına baxmayaraq, adım çağırışçılar arasında birinci sıradadır. Yəqin ki, bu da iki gün öncə etdiyim canlı müraciətə görədir. "Öncə əsgərləri yerləşdirək, bir-iki saata sizi yola salacağıq" – deyirlər. Komissarlığın yanında çayxanada oturub "yutub"da son müharibə videolarına baxıram. Qalxanda çayçı ödənişi götürmək istəmir. "Bu dəfə götür, qayıdanda qonaq edərsiniz" – deyirəm. Komissarlığın qabağında avtobuslar yola düşdükcə insanların alqışlarla yola salınması ayrıca qürurlu və kövrəldici anlar idi. Bu alqışlara əl yelləyən bəziləri ya şəhid olacaq, ya da cavab olaraq yellədiyi əllər bir daha yellənməyəcək.

Sevgilisiylə görüşən də var, qucalqlaşan da. Düşünürəm, o şeirimdəki kimi...

Görüşəndə
sevgilisinin əlində
gözü axtarardı
ona veriləcək gülləri.

İndi
kitabları arasında qurutduğu
gül ləçəklərində axtarır
sevgilisinin cəbhədə itirdiyi əlləri.

Sənədlərimizi də götürdükdən sonra artıq yenidən ordunun zabitiyəm. Avtobusla yola düşürük. Komissarlığın önündəsə bizi alqışlayan xalq... Saçlarımda anamın xınalı duası, gözlərimdə uzağa zillənmiş, indiyə kimi bizim olmayan uzaqlıqlar...

Xınalı quzuları irəlidə nə gözləyir, hələ ki xəbərsizik...

"O gün gəlsəydi..."

Pərt idim. 10 il idi yarıpərt, yarıümidli, yarısa bilmirəm, məni narahat edən hisslərlə yaşayırdım. Ağdamdan – səngər həyatından qayıtdıqdan sonra bu belə davam edirdi. Əslində, pərt olmağımın səbəbi intuisiyamın bu dəfə doğru çıxmaması, ümidlərimin suda üzməsi idi. Həm də Ağdam səngərindən belə dönüşü arzulamırdım.

Leytenat rütbəsiylə Ağdama yollanmışdım. Özü də qəribə bir gündə. Simvolik gündə. 23 iyulda. İlk dəfə idi, 23 iyulda Ağdam torpaqlarında idim, işğal günündə. Bu, sadəcə, sıradan səfər deyil, təyinatım idi. Yəni bu gün mənim seçimimlə deyil, bəxtlə olmuşdu. Baxmayaraq ki, o təyinat üçün neçə dəfə ağız açmışdım. İçimdə qəribə inam var idi və yaşanacaq o qürurlu günlərin iştirakçısı olmaq istəyirdim. Ayaq basdığım gündən rəqəmlərə simvollar yükləyir, ümidlərlə gözləyirdim. 23 iyulda gəldiyim bu torpaqdan mütləq ayrı bir adla qayıdacaqdım. Amma olmadı... Düz 10 il yarıpərt, yarıhəsrət hissi ilə yaşamaq taleyimə yazıldı.

Heç səngər zabiti olmağımla düz-əməlli qürur duya bilmirdim. Məğlub ölkənin səngər zabiti...

İnsanların hərbi geyim sevdasına, mülkidə belə o geyimi geyinməsinə həmişə müsbət baxırdım. Amma mən edə bilmədim. Bir daha o mundiri geyə bilmədim. Məhz tərxis olunduğum gün çıxardım. Bir daha nə çəkilişdə, nə yeni gəldiyim günlərdə fəxrlə geyinmək daxil olmaqla əynimə almadım. Amma ümidli idim ki, o formanı yenə geyinəcəyəm. Buna inanırdım.

İllər keçdikcə, nə yalan deyim, o formanı geyinəcəyim arzular, ümidlər azalırdı. Həm də yaş söhbəti. Yaş bir yerdə dayanmır, hər il artırdı, elə həsrətimiz kimi. Axı bu formanı geyinmə şansı o zaman qismət olardı ki, onda da mənə ehtiyac olmazdı. Qoca bir zabit döyüşdə kimə lazım olacaqdı deyə, düşünərdim.

Hər dəfə, "o gün tez gəlsəydi" də deyirdim. İstər Mübariz İbrahimovla bağlı cəmiyyətdə yaranan oyanış, istərsə 2014-cü ilin avqust hadisələri bir ümid qığılcımı idi. Və 2016-cı ilin Aprel döyüşləri. Xalqın qürurunun özünə

qayıtması, hər bir fərdin bir nəfər kimi birləşməsi, şəhidlərin hər birini öz övladı, qardaşı kimi qarşıladığı günlər. Bu, şans idi, – düşünürdüm. Həm mənimçün, həm də xalqımızçün, həm də addım səslərimizçün darıxan o müqəddəs torpaqlarçün.

Aprel günlərində, döyüş gedərkən Sumqayıt Hərbi Komissarlığına gedərək məni də göndərmələrini istədim. Amma səfərbəlik haqqında bir sərəncam yox idi... Təbii ki, mənə ehtiyac yoxdu, – deyib yola saldılar. Bircə həmin döyüş günlərindən yürüşlərdə "Yaşasın müharibə!", "Şəhidlər ölməz!" şüarlarıyla ovunmağım mənə qaldı. Hə, bir də bu döyüşlər haqqında yazdığım 20-30 məqalə və köşəm.

Üzülmüşdüm yarım dayanmağına. Amma Aprel döyüşləri xalqda inamı özünə qaytardı. Düşmən haqqında mifi dağıtdı, biz qalib gələcəyik ümidi birə-beş artdı. Həm də bu, düşmənə psixoloji zərbə idi. Lələtəpə başlanğıcdır. Biz gəlirik, biz qayıdacağıq...

Hər şey öz axarına düşdü. Həmin ümidlər, həmin həsrət, həmin pərtlik. Ta, 2020-ci ilin iyuluna kimi. General-mayor Polad Həşimovun şəhadəti ilə o ümidlər cücərdi. O gün gəldimi? – düşüncələri həm qürurlandırır, həm də qəribə duyğular yaşadırdı. Qonşu məhlədə yaşayan Həşimovun şəhadəti həm də adamın qüruruna toxunurdu. Yəni bunlar bu qədərmi irəli getdi, bu qədərmi cavabsız qalacaqlar sənin komandanını şəhid etməklə?

O gün bütün gecəni Həşimovun evi qarşısında onun nəşinin gəlməyini gözlədik. Həm sumqayıtlılar, həm də bütün xalq həmin gün sel oldu o evin qarşısında. Səhərə kimi şəhərlilərimizlə birgə Sumqayıtda piyada bütün şəhər boyu gəzərək şüarlar səsləndirdik. Mənsə arada onların şüarına qoşulur, aradasa "müharibə!" şüarı səsləndirirdim.

İstər ölkə prezidentinin çıxışı, istərsə regionda gedən proseslər yaxın 2-3 ayda müharibənin başlayacağına kimsədə şübhə yaratmırdı. Elə cəbhə bölgəsində dinc sakinlərin sığınacaqlar qazması, ardıcıl diplomatik səfərlər və s. hər şey müharibəyə doğru gedirdi.

Həmin günlər "Yaşasın müharibə!" adlı yazı işlədim. Çox qəribədir ki, həmin yazıda müharibənin başlayacağı zamanı belə müəyyənləşdirmişdim. Həmin yazı "Ədalət" qəzetində dərc olundu. İndi özümə də maraqlı idi ki, bu dəfə bu qədər inamla, həm də intuisiyamın dediyi kimi, payızda müharibə proqnozlaşdırmışdım. Bir qorxum var idi, bu da Aprel döyüşləri kimi tez bitməsi, arzularımıza, torpaqlarımıza qovuşmadan hər hansı diplomatik təzyiq və s.-in olması idi.

Onlayn müraciətlər və s. bir qədər mənə qəribə gəlirdi. Bəlkə, bu da təbliğat mexanizminin bir parçası idi düşünürdüm. Birbaşa canlı müraciət lazımdı deyə, qərara gəldim.

Sentyabrın 25-i olardı, millət vəkili Aqil Abbasla danışdım. İş yoldaşlarım Sübhan və Eminqueylə bir qədər bu barədə zarafatlaşdıq da. İşdən çıxıb birbaşa getdim Sumqayıt Hərbi Komissarlığına.

Hər hansı müharibə zamanı ilk çağırılanlardan olmaq üçün. Yeni telefon nömrələrimi verdim, "kartoçka"ma yazdırdım.

...Tezdən oyanmışdım. Anlamırdım nə olub. Həm zəng işləmir, həm də sosial şəbəkəyə girə bilmirdim. O gün gəldimi, düşünürdüm. Bunu düşünəndə 27 sentyabr səhəri idi...

Əsgərindən generalına kimi

Hər müharibənin istəyərəkdən və ya istəməyərəkdən doğru olmayan yönləri də ola bilər. Lap eyni zamanda gözəl və şərəfli anlar kimi xatırladığımız zamanlar, insanlar, qərarlar kimi. Amma zəfərə aparan müharibədə bütün yanlışları kənara qoymaq olar. Çünki zəfər keçmişin səhvlərindən nəticə çıxarmaqdan, illərin əziyyətindən, alın tərindən sonra sənin olur. Həm də zəfər qazanmadınsa, ictimai şəkildə onun haqqında ancaq gözəl şeylər danışmaq daha uyğundur. Gözəlliyi daha da gözəlləşdirmək...

Əsgərimizdən generalımıza kimi... Fövqəladə vəziyyətlər fövqəladə qərarlar tələb edir. Elə götürək bəzi generallarımızı. Xalqa, orduya öz hərəkətiylə ruh yüksəkliyi verən, ona özündən olduğunu hiss etdirən, mərdliyi ilə qarşısındakını utandıran...

Polad Həşimovun şəhadətiylə xalqı öz ruhuna qaytarması kimi...

Sözümün canı, şahidi olduğum, daha doğrusu, təəccübləndirən olay. Təəccüb dediksə, mənim inamsızlığımı... Daha doğrusu, bu qədərini gözləmirdim.

Batalyondan müəyyən texniki və bizdən asılı olmayan səbəblərdən ayrı düşmüşdük. Heyəti Şuşaətrafı yüksəkliklərə aparıb yerləşdirməliyəm. Batalyonumuzun bölmələrinin olduğu yerə. Ora necə getməyimiz haqqında növbəti gündəlik yazılarımda geniş bəhs edəcəm. Amma indi haqqında yazacağım məsələdə məqsədim başqadır. Hə, məni təəccübləndirən olay, şahidlik.

Xocalının cəmi bir neçə kəndi bizdədir. Elə Şuşanın azad olunması da cəmi bu bir neçə kəndin azadlığından və onun qorunmasından keçir. Ordu ermənilərin içinə iynə kimi daxil olub. Kiçik məsafədən şimal istiqamətdə (Xankəndi və ətrafı) ermənilər, şərqdə ermənilər, qərbdə (Şuşanın kəndləri və Şuşa) də ermənilər. Düşmən içində yarımadadasan. Yalnız çətin və təhlükəli vəziyyətdə cənubdan (Hadrut tərəfdən) ordu dəstək ala bilər ki, o da palçıqlı, yüksək cığır yollar. Həmçinin o yollar da düşmən artilleriyası ilə müntəzəm vurulur. Bir növ xəritə ilə baxsaq, sanki mühasirədəyik. Üç tərəfin düşməndirsə, arxa hissə vurulursa, zatən başqa ad demək də mümkün deyil. Amma ordunun mühasirə içində mühasirə yaradacağı taktikasını sezməmək də mümkün deyil.

Nə isə, birtəhər heyəti Xocalı kəndlərinə doğru apara bildik. Minamyot, top mərmilərinin atışından sonra yaranan hərəkətsizliyimizdən istifadə edərək ara-sıra döş cibimdən bloknotu çıxarıb kiçik qeydlər yazıram.

Mədətkənd tərəfdə meşə ərazisində artilleriyamızın mövqeləri yerləşir. Eyni zamanda bir qismi Çanaqçı kəndində. İşlərini görürlər, yəni döşüyürlər. Bəzi yerləri, yolları keçərkən düşmən qarşısında açıqlığa çıxırsan ki, birbaşa hədəfsən. Düşmən də ardıcıl minamyot, toplarla, raketlərlə həmin əraziləri vurur. Bəzən partlamamış elə mərmilər görürük ki, özümüzdən böyük. Vallah, heç başım çıxmır nə mərmisidi. Məgər o boyda mərmi görmüşəm indiyə kimi?!

Çanaqçını da keçdik. Xeyli yoldan sonra tapşırılan yerə getməkçün artıq istiqaməti bilmirəm. Elə bir duman var ki, az qala bir metr önünü görə bilmirsən. Belə bir vəziyyətdə yuxarı komandanlıqdan kimdənsə dəqiq istiqaməti öyrənmək istəyirəm - heyəti daha təhlükəsiz və sağ-salamat apara bilmək üçün.

Başqa hərbi hissənin zabitiylə belə durumda rastlaşdıq. Dedi, general Kazımov Vasif burdadır. Yaxınlaş, sənə istiqamət versin, tapşırıq versin.

Baxdım, ətrafa mərmilər düşür, (top, minamyot, bəzənsə raket mərmiləri) ardıcıl partlayışlar. Dedim, ağlına gələni danışma, Xocalı kəndində, yarımada vəziyyətində, mərmilər altında general burda nə gəzər? Yalan nə deyim, görməsəm, inanmazdım.

Yaxınlaşdım, doğrudan, general-mayor Kazımov. Hərbi zirehli maşın "səhra pişiyi"nin yanında öz tapşırıqlarını verir.

Düzünü desəm, sevindim... Adama elə qürur hissi gəlir ki, sənin generalın ön xətdə, döyüş bölgəsindədir. Bəzən bir jest belə orduda xalqda elə ruh yüksəkliyi yaradar ki, onu heç nə əvəz etməz. İstiqaməti və s. başa saldı, tapşırdı.

General jestləri, qərarları önəmlidir. Bəzən zamanında lazım olan məkanda olmaq hansısa qələbənin açarıdır. Onun elə orda olmağı ən gözəl jest idi. Ən azından bizim üçün. Elə müharibə üçün də...

Şəhidliyin pasportu: şahid gilizlər

Əvvəlcə Sumqayıtda toplandıq. Burada şəxsi heyət siyahı üzrə doldurulur, taborlara, bölüklərə, tağımlara bölünürdü. Silahlar və əşya-əmlak verildikdən sonra hər an döyüş bölgəsinə göndərilə biləcəyimiz bildirildi. Əlbəttə ki, dediyim məsələlər cəmi bir-iki gün zaman apardı. Komandir heyəti bu qısa zaman, saatlar içində həm silahları nömrələr üzrə əsgərlərə paylayır, həm də tabeçiliyində olan əsgər heyətini tanımağa çalışır. Bu qədər şəxsi heyətin yığıldığı kiçik kazarmalarda yatmağa, addım atmağa yer yoxdur desəm, yanılmaram. Bəzənsə iki-üç əsgər bir çarpayıda yatır. Hətta bir dəfə hərbi hissənin stadionunda dəmir keçidin üzərində yatmağım da yadıma gəlir. Hər

halda, hansısa əsgərin yata biləcəyi çarpayını özəlləşdirməyi özümə sığışdırmadım. Yalnız batalyonun həkimi leytenant Rəşad doktor məni bölük komandirinin müavini baş leytenant Hüseynovla birgə öz tibb maşınında yatmağa dəvət etdi. Bütün bunlar 1-2 gün çəkəcəyindən elə də önəm vermirdik. Çünki hər an müharibə bölgəsinə göndərilə bilərdik. Belə qısa zaman içində çarpayı davası etmək cılızlıq olar və bizə yaraşmazdı. Həm də az-çox müharibə anlayışından bilirsən ki, orada səni palçıqlı, soyuq yerdə, yağış altında, torpaq üstündə yatmaq gözləyir. Əlbəttə, müharibədə yata bilsən....

Bu arada, bizim batalyonların əsgər heyətindən komandir heyətinə kimi hər biri səfərbərlik xidmətindən gələn və ya könüllü olanlardır. Təsəvvür edə bilirsinizmi?! Əsgərindən batalyon komandirinə kimi hər biri könüllü... Batalyon komandiri polkovnik-leytenant Əziz Hüseynov təqaüdə çıxmış, ehtiyatda olan zabit, eyni zamanda da Birinci Qarabağ müharibəsinin iştirakçısıdır. Batalyon komandirinin müavini mayor Xəlilov Rasim də onun kimin təqaüddən yenidən xidmətə, müharibəyə qayıdan zabitdir. Hər biri ölkənin bir rayonundan olsa da, hamısı Bakı, Sumqayıt və Abşeron hərbi komissarlığından gəlib. Bir növ bu batalyona "şəhər uşaqları" demək olar.

Dediyim kimi, bu bir neçə günü bir çox zabit heyəti gecələri, adətən. yatmır, yatanda da 2-3 saat yatır. Həm silahlarla məşğul olmaq, həm də şəxsi heyətin sənədləriylə... Əməlli-başlı vaxt aparır.

Hər an həyəcan siqnalı ola bilər. Şəxsi heyət düzülüb. Gizir Hüseynov əlində bir torba gilizlə gəlir. Bunlardan hər əsgərə iki ədəd vermək lazımdır. Düzü, əvvəlcə məni gülmək tutur. Müharibəyə güllə yerinə boş patronlarla, gilizlərə gedəcəyik?! Bir-birimizlə müxtəlif zarafatlar edirik. Gerçəyi anladıqca isə qəribə bir susqunluq yaşanır. Sükut...

Bu gilizlər müharibədə bizim pasportumuz olacaqdı. Əslində isə şəhidliyin pasportu... Bunu əsgərlərə necə izah edəsən?!

Hər hansı kiçik kağıza ən yaxınının ad-soyadı və əlaqə nömrəsi yazılır. Sonra bu kağız o gilizin içinə qoyulur. Qərara alınır ki, gilizlərin biri sağ döş cibinə, digəri isə sol ayaq cibinə qoyulsun.

Əgər döyüş vaxtı həlak olarıqsa, sifətimiz tanınmaz hala düşərsə, o gilizlərin içindəkilərə əsasən, kim olduğumuz müəyyənləşsin və həmin yaxınımızla əlaqə yaradılsın. Bir növ, şəhid olduğumuz xəbərini verməkçün...

Eyni zamanda sinədə və ayaqda da olması isə əgər bədənimiz hər hansı partlayış zamanı bir neçə yerə ayrılarsa, parçalanmış bədən əzalarımızın kimə aid olduğu müəyyənləşsin. Bu əzaların kimə məxsus olması, hansı ailəyə göndərilməsi üçün...

Təbii ki, hər kəs gerçəyi başa düşür. Kimsə kiməsə nəsə demir, kağızlara əlaqə nömrəsi, ad yazaraq gilizlərə yerləşdirir.

Bəs mən kimi yazım? Atamımı? Açığı, bu ağlıma heç gəlmədi. Anamı? Əgər şəhid olarsam, ilk xəbər anama verilsə, ürəyi dözməz. Bu fikrimdən də daşınıram. Dostlardan kimisə? Düzü, onlara da belə ani əziyyəti vermək istəmirəm. Dayımı yazsam, ürəyindən yeni əməliyyat olub. Bəlkə, "Ədalət" qəzetindən Sübhanın adını və telefon nömrəsini? Redaksiyanı, işi buna qatmaq istəmirəm. Həm doğma, həm də digərlərinə ürək-dirək verə biləcək birini-qardaşımın adını və soyadını yazıram...

Üzərimdə gəzdirdiyim gilizlər başqası tərəfindən açılmadı, içindəki kağız özgəsi tərəfindən oxunmadı. Özümlə müharibədən Sumqayıta, evimə kimi gətirdim. Mənə müharibədən qalan ən müqəddəs xatirədi onlar.

Çünki neçə şəhidin pasportuna çevrildi o gilizlər. Neçə parçalanmış bədən əzasının kimə məxsus olmasına şahid oldu o gilizlər. Şəhid oldu o gilizlər, şahid oldu o gilizlər...

Xilasetmə əməliyyatı

Füzuli istiqamətində mövqelərdə yerləşmişik. Bəzən qeydlərimdə kənd adlarını qarışdırdığım olur ki, bu da kənd ərazisinin sırf xəritə yönümdən yanaşmasına görə ola bilər və həmin anda qeydlər apararkən kiçik səhvlərə yol vermək də anlaşılandır. Çünki əsas məqsədim adlar deyil, detallar olub. Hər halda Kürdlər, Dörd Çinar, Yuxarı Əbdürrəhmanlı kəndlərində olduğumuzu söyləyə bilərik. Məqsəd bu kəndlərin qarşısındakı mövqeləri düşməndən təmizləməkdir.

Taqımı manqalarla mövqelərə yerləşdirmişik. Tək mənim taqımım deyil, bölük, batalyon, digər hərbi hissələrin taborları da düşmən qarşısında səpələnmiş formada mövqe tutub.

Arxa tərəfimizdə isə ordumuzun artilleriya bölmələri düşmən postlarını ardıcıl mərmi atəşinə tutur. Bu atışlardan, düşməni müəyyən qədər sarsıdandan sonra həmin mövqelərə irəliləmək nəzərdə tutulub. Həmlə taborları isə ardıcıl hücumları ilə düşməni sarsıtmağa çalışır.

Ermənilər, sözün əsl mənasında, minamyotla şahmat oynayır. Minamyot atışlarında bu qədər peşəkar olmalarını gözləmirdik. Deyilənə görə, önümüzdə onların gücləndirilmiş əsas postları və bu kimi mühəndis istehkamları var. Bir növ, son qırılma nöqtələrindəndir bu istehkamlar.

Dəhşətli gündü... Minamyot mərmiləri yağış kimi yağır. Mərmilərdən qorunmaq üçün səngərdə uzanmışıq. Bir növ, ardıcıl atılan mərmidən biz xilas olsaq da, kəhriz tərəfdə rabitə taqımının mövqeyinə mərmi tuş gəlir. Üç rabitəçimiz şəhid olur, ikisi yaralanır. (Sonradan öyrəndiyimə görə, şəhid olan rabitəçilərdən biri yazıçı Azər Abdullanın bacısı nəvəsi, yazıçı Alpay Azərin bibisi nəvəsi Mürsəl Kazımlıdır).

Bizim taqımdan sol cinahda, təxminən, 300-400 metrlikdə digər bölüyümüz yerləşib. Həmin istiqamətdən hücum edilməsi nəzərdə tutulub. Ardınca isə bizim bölmənin atəş dəstəyi ilə irəliləməsi planlaşdırılıb.

Ermənilər indisə sol cinahımıza minamyot mərmiləri yağdırır. Səkkizinci bölüyün mövqeləri mərmilər nəticəsində dağıdılıb. Can bazarı yaşanır. Biçilmiş taxıl zəmisinin yeri, açıq ərazi və səpələnmiş yaralı, şəhid yoldaşlarımız...

Gözümüzün qabağında ondan artıq yaralı və şəhid ərazidə qalıb. Həm də açıq ərazidə.... Nə xilas edə bilirsən, nə də başqa cür yardım göstərə...

Onları 300 metrlikdən görüb dözə bilmirəm. Amma izləyirik. Bu, "Hollivud" filmi deyil ki, baş verənləri, sadəcə, can qorxusu ilə elə səngərdən izləyəsən...

Kim gedə bilər? Amma əraziyə də mərmilər düşür. Bacarmıram... Qərar vermək lazımdır. Düzü, bu nə mənim nə də taqımımın, nə də bölüyümün işi deyil. Nə də belə bir əmr verilib. Bəs sonradan onları mərmilər altında qoymağa görə çəkiləcək vicdan hissi? O hisslə bir ömür boyu yaşamaq olardımı? Əgər yaşamaq demək olarsa...

Mütləq o əraziyə girməliyik. O yaralıları çıxarmalıyıq. Onları çıxararkən şəhid olsaq da, yaralansaq da, lap yaralı kimi ərazidə qalsaq, kimsə xilas etməsə də... Amma bunu etməliyik. Onları çıxarmalıyıq.

Uzun günlərin yorğunluğu bronjiletlə getməyimə, cəld hərəkətimə əngəl ola bilər. Dərhal onu çıxarıb səngərə atıram. Çünki ağır yüklü bronjiletlə yaralı daşımaq, onları ərazidən çıxarmaq çətin olardı. Hə, bronjiletsiz özümüzə nəsə olardı? Nə olar, olar... Əsas odur, vicdan əzabından xilas olaq.

Bronjileti akopa atıb, bircə kaskanı taxıb kimsəyə nəsə demədən əraziyə qaçıram. Gözlərimə inana bilmirəm. Sevincmi, qürur hissi, yoxsa nə? Bilmirəm. Əsgərlərim Nəsirov Taleh, Həsənov Mansur ildırım sürətilə məni keçərək əraziyə doğru irəliləyir. Daha sonra gözümə ikinci taqımdan Bayramov Füzuli görünür. Bölüyümüzün digər əsgərlərini də görürəm, amma simalar elə də yadımda qalmayıb.

Demək, vicdan hissi bu gün o ərazidə doğulmuşdu. Yağmurluq götürmüşük. Yaralıları çıxarmaqçün. Amma öncə şəhidi çıxarmaq lazımdır. Hər halda şəhidin mövqelərin arasında qalması, düşmənin bunu müşahidə edə bilməsi min ölümdən betər olardı. Elə də olur. Digər tağımdan və bölükdən olan əsgərlərlə onu çıxarmağa gedirlər.

Mənsə bölüyün əsgərləri Bayramov, Nəsirovla yaralını yağmurluqda aparırıq. Əsgər dizindən qəlpə yarası alıb. Qan itirib. Yuxarı hissədən daha artıq qan itirməsin deyə, dizi rezinlə bağlanıb.

Ermənlirsə sırf bu ərazini minaatanlarla ardıcıl vurur ki, kömək edə bilməyək. Həmçinin bizi də məhv etməkçün. Ərazidə yaralılarımızın qalması, bizim köməyə getməyimiz daha çox canlı kütləsini məhv etməkçün düşmənə əla fürsətdir. Ətrafımıza mərmilər düşür. İkinci taqımın əsgəri qolundan yaralanır. Yaralı daşıyarkən, köməyə gedərkən özün yaralanmaq....

Bu an mərmi bir neçə metrliyimizə düşür. Yaralını qaça-qaça apardığımızdan bir növ təngnəfəs olursan, ağız açılıb-yumulur, mərmi dalğası zamanı beyin zərbəsi almaqdan qoruya bilir. Amma mərmiyə tuş gələrsənsə...

Mərminin təzyiqi bizi kənara atır. Dizim və əlim yerə bərk dəydiyindən sivrilib. Əsgərin biri bu partlayışdan sonra kontuziya alacaq ki, onu da sonradan biləcəyik. Amma birgə yaralı daşıdığımız əsgərlərdən biri də qəlpə yarası alır. Belə məsafədən qəlpənin hamımıza dəyməməsi... Yaralını ərazidən çıxardırıq. Sonra digərlərini. Mövqeyin yaxınlığına "sanitarka" dediyimiz tibb maşını özünü yetirir. Əslində, bu özü də qəhrəmanlıqdır. Tibb maşınını mərmilər düşə biləcək qədər yaxınlığa sürmək... Minaatan mərmisinin düşdüyü yerdən keçərkən tibb maşınının təkəri həmin mərmi quyusuna düşür. Digər əsgərlərsə maşını köməkləşib çıxarır.

Ardınca digər hərbi hissənin həmlə taboruna hücum əmri verilir. Günün günorta çağı biçilmiş taxıl zəmisiylə həmlə taboru erməni postlarına qaça-qaça, bəzənsə qaz yerişi ilə irəliləyir. Və 20-25 şəhid olduğu bildirilir.

Mövqedəyik. Əsgər Həsənov və digər taqımdan Quliyev Quran ayələri oxuyur. Sükutdu.

Bu gün bitsə,.. – deyirəm...

Azad edilmiş löhmə

İlk günlərimizdir. Bir az təcrübəsizlik, bir az da müharibə şəraitinə, çətinliyinə hələ tam öyrəşməmişik. Füzuli-Cəbrayıl istiqamətində Xüsusi Təyinatlı Qüvvələrin zabitləri bizi müşayiət edərək mövqelərə yerləşdirib.

Qısa müddətli müharibədə düşmənin geri çəkildiyindən, daha doğrusu, geri çəkilməyə məcbur edildiyindən bəzi yerlərdə düşmən mövqelərinə iynə ucu kimi daxil olmuş olursan. Buna görə bəzən sağın da, solun da, önün də düşmən mövqeləri olur. Mövqemizin arxası isə top və minaatan mərmiləri ilə atəşə tutulur. Klassik anlamda tam mühasirə deməsək də, vəziyyət mühasirəni xatırladır. Çünki belə durumda təminat arxadan sənə gəlib çata bilmir. Bu vəziyyət iki-üç gün davam etdi…

Saatlarla yol qət etdikdən sonra mövqeyə çatanda suyumuz bitib. Demək olar ki, heç kimdə bir qurtum su yoxdu. Əslində, hava yolu ilə hesablasaq, bir neçə km yol edər. Amma təhlükəsizlik baxımından, itki olmasın deyə, dolama yollardan, cığırlardan, təpə döşlərindən istifadə etmişik.

…Sağ cinahı mənim taqımım qoruyur. Mövqelərimizin sağı və solu, qabağı düşmən artilleriyası ilə vurulur. Arabir top atışları olsa da, əsasən, yenə minaatanlardan. Və mövqemizin arxası da…

Səngərin dərinlik ölçüsü çox az olduğundan məcburi uzanmışıq. Uzun yoldan sonra susuzluq və qazıb dərinləşdirməyə halımız yoxdu. Üstəlik, gecə yuxusuzluğu, gecənin soyuğu, günorta günəşinin başımıza döyməsi halsızlığımızı daha da artırır.

Rabitə ilə əlaqəyə çıxırıq. Bu gecə təminatın gələcəyini bildirirlər. Təminat gətirən MTT rəisimiz Cəfərov şəhid olur, əsgərim Hüseynov Rövşən və digər zabitsə yaralanıb.

Demək, təminat, su arzumuz elə suya düşməli oldu.

Səhəri əsgərlər "suxoy payok"da olan nəm salfetkaları dodaqları arasında sorur ki, bəlkə, susuzluğu yata. Amma bu nə vaxta kimi çəkə bilər? Mütləq çarə tapmaq lazımdır. Önümüzdə düşmən nəzarətində olan, daha doğrusu, birbaşa vizual nəzarət etdikləri kənd var. Son çarə kimi bir neçə əsgər və zabit su əldə etmək ümidilə ora doğru irəliləyir. Bunu sezən düşmən ordusu dərhal minaatanları işə salır. Məcburi olaraq bu addımımızdan vaz keçməli oluruq.

Nədənsə bütün olanlardan sonra Kərbəla müsibəti yadıma tez-tez düşür. Ətrafında düşmən və susuzluq…Yezidin və Hüseynin ordusu…

Əsgərim Cabbarovla səngərdən çıxaraq cəld təpənin arxasına keçirik. Cəld dediksə, təpənin arxası bizdən təxminən 500 metr geridədir. Su axtarışına çıxırıq, bəlkə, bulaq və s. tapaq. Arada ətrafımıza düşən minaatan mərmilərindən ya vaxtında yerə yatmaqla, ya da bəxtimizin gətirməyi ilə yayına bilirik…

İki gün əvvəl yağış yağmışdı. Erməni meyitinin bir qədər aralığında düşmən silahı PK sinkinə azca yığılmış suyu görəndə gözümüzə işıq gəlir. Amma bu kimə bəs edər ki?!

Bir qədər irəlidə ermənilərin saxladığı inəkləri görürük. Yolda yağış suyundan yığılmış su var. Su dediksə, löhmə. İnəklər löhmədən su içir. İndi bu löhmə fəth edilməli birinci məqsəddir. Təbiətin növlər arasındakı yaşamaq uğrunda mübarizəsi. İnəklərlə biz…

Onları qovub uzanıb löhmədən su içirəm. Bir növ bura daha bizim löhməmizdi. Azad edilmiş löhməmiz.

Ağzım, boğazım palçıq olsa da, susuzluğu azca yatırmağa bəs edir. Amerika filmlərindəki ağzı qaralmış zombilərə oxşayıram desəm, yanılmaram.

Aralıda mənə nifrətlə baxan inəklər…

İndi bu müharibənin ən böyük acısını onlar yaşayır...

Ölən erməninin sevgilisi

İllərdi gecələr yuxudan təngnəfəs oyanırdım. Bəzən tər içində, bəzənsə boğulmaq üzərəykən... Bu oyanmalar 2010-cu ilin əvvəlindən 2020-ci ilin sentyabrına kimi davam etdi. Əvvəlki illər hər gecə, sonra həftədə bir, sonrasa ayda 1-2 dəfə yuxularıma haram qatan bir qız idi. Üzünü görmədiyim, heç zaman rastlaşmadığım bir qız. Daha doğrusu, bir qızın səsi. O heç nə danışmır, hesabını bilmədiyim sayda "alo, alo, alo...". Yuxularıma haram qatan bu "alo"lar idi. Axı kim idi bu qız, niyə hər gecə yuxularımda "alo" deyərək qışqırır və mənə əzab verir?!

Vətən müharibəsi məni bu əzabdan qurtardı. Daha o yuxuları görmürəm, kimsə yuxumda "alo" deyə qışqırmır. İndi öz əzablarım, öz yaşantılarım, bu müharibədə gördüklərim yuxumu qarışdırır. Vətən müharibəsi təkcə Qarabağı deyil, məni o qızdan, o səsdən xilas etdi.

2010-cu ilin qışı... Ağdam... İşğal olunmuş kəndlərin qarşısı... Səngər həyatımız davam edir. Burada başını səngərdən qaldırmaq ya hansısa snayperin sinəsinə medal taxmaqdır, səngərdən qırağa çıxmaqsa ayaqlarını minalar üstündə unutmaq.

Niyə 2010-cu ilin hadisələrindən indi bəhs edirəm-deyə bilərsiniz. Keçmişdə etdiyim qaralamalarıma Vətən müharibəsi zəfərindən sonra maraq oyandı. Həm də əvvəl bunlara elə də həvəsli deyildim. Çünki məğlub bir ölkənin səngər həyatından bəhs etməyi ya özümə yaraşdırmır, ya da utanırdım. Axı kimə nəyi sübut edəcəkdim? Utanırdım... Məğlub bir ölkənin zabiti kimi xatirələr dərc etməkdən. Eləcə səngər şeirlərimlə ovunurdum. Hə, bu müharibə məni həm şeirlərlə ovunmaqdan, həm də yuxularımdakı qızın səsindən xilas etdi...

Müşahidə postunda duran əsgər anidən qışqırdı: – "Komandir, erməni". Dərhal müşahidə postuna çıxdım. Postda ermənini görmək sizə nə qədər qəribə gəlsə də, arzuladığın əzizini görməklə müqayisə edə bilərdim. Yox, yox, o ermənini bağrımıza basmaqçün deyil, gülləyə tuş etməkçün.

Tr-8-lə müşahidə apardıq. Bir əli cibində, birindəsə telefon qulağına söykəyərək hərəkət edir. Hərəkət edir deyirəmsə, gövdədən yuxarını görürük. Özünü o qədər itirib ki, düşmən valının arxasından çıxdığının fərqində deyil. Axı adam kiminlə belə danışıb, dünyanı unudub öz səngərini tərk edə bilər? Anasımı, sevgilisimi, bacısımı? Onun özündənrazı, tərki-dünya olaraq harda olmasını unutması adamın ağlına yalnız sevgilisini gətirə bilir. İnsan onun etdiklərini sevgilisi ilə danışanda edə bilər...

Bu qədər danışmağıma baxmayın, bu qədər düşüncə bir neçə saniyə ərzində baş verir. Vuraq? Ani olaraq beynimin içindəki düşüncələr mənə imkan vermir... Bəlkə, danışdığı adam anasıdır? Və həmin vurulsa... Ya da sevgilisi? Bu elə ən böyük sevgi qətliamı olar. Telefonun qarşısındakı şəxsin o vurulduğu an keçirəcəyi hissləri ağla gətirmək belə mümkün deyil. Bəs o əsgərin yerində biz olsaydıq? Danışdığımızsa sevgilimiz, anamızdırsa?

Bəlkə də, bütün bu düşüncələr bir saniyəlik zaman intervalı olmadan ildırım sürətiylə beynimin bir guşəsidən keçir. Amma...

Erməni əsgəri ordadırsa, əminəm ki, bizi görsə, böyük sevinc hissi ilə vurardı. O burdadır ki, o ona görə vurar ki, bir azərbaycanlının vurulması onunçün medaldır, məzuniyyətdir, özgüvən hissidir, gələcəkdə karyerada yüksəlişdir, məclislərdə özünün və qohumlarının bu hadisədən genələ-genələ danışması, erməni tvlərində bol-bol öz qəhrəmanlığından danışmaqdır.

– Vuraq? – Snayper başından nişan aldığını bildirir.

– Vur!..

Səngərdə əsgərlərimiz atışdan sonra "Ura!" deyə qışqırır, sevinir, sonrasa ani boşluq. Rabitə ilə koordinatı verib, məruzə edirik. Atəşkəs dövründə belə atışlar zamanı koordinat məruzə olunur, vurulmanın dəqiq olub-olmadığını gözləyirdik. Bizə lazım olan xəbərin təsdiqlənib-təsdiqlənməməsidir. Bir neçə saat gözləyir, bu hadisənin nə ilə sonuclanacağından səbirsizlənirdik. Amma nə deyilsə də, atışdan sonra onun necə yerə sərildiyinin gözümüzlə şahidi olduq axı-deyirəm öz-özümə.

Axşama yaxın rabitə ilə xəbər verilir ki, verdiyiniz xəbər təsdiqini tapıb, vurmusunuz. Sevinclər yenidən artır... Qeyd olunası xəbərdir. Həmin gecəni aşağıdan gətirtdiyim yeyib-içməklə qeyd edirik. Bir növ səngərdə bu xəbərə əsl qonaqlıq verirəm. Ölüm xəbərinə sağlıqlar deməklə. Səhv etmirəmsə, Dövlət Radiousunun axşam buraxılışıdır. Verilən xəbər sağlıqlarımıza qoşulur. Atəşkəs pozulub, dümən təxribatının qarşısı alınıb, düşmən hərbi qulluqçusu "..." məhv edilib.

(Əlbəttə, istəyən şəxslər bu adı, yeri və s. arxiv materialına əsasən, əldə edə bilər. Burada bu məlumatı, adı olduğu kimi vermək həm etik, həm də bəzi məsələlərə görə doğru olmadığından hallandırılmır).

Səngərin bir köşəsinə çəkilirəm. Kimsənin məni görməyəcəyi bir küncünə. Özümdən asılı olmadan ağlayıram. Bütün gecəni. Həm sevinmək, həm də ağlamaq. Axı mən kimə ağlayıram belə? Məni ağladan kimdir, hansı hisslərdir? Kimə ağlayıram belə? Ölən ermənıyə, ölən sevgiyə, yoxsa nəyə? Bəlkə, elə özümə? İçimdə qopan fırtınaya cavab tapa bilmirəm...

O gündən sonra yuxularımda kimsə, daha doğrusu, bir qız "alo, alo" deyərək qışqırır. Mənsə təngnəfəs, tər içində oyanır, mətbəxə keçir, su içir, bəzən ağlayır, bəzənsə siqaret yandırırdım... 2020-ci ilin sentyabrına kimi... Məni kölgə kimi izləyən o qız, o səs qeybə çəkilib. Artıq öz əzablarımı görürəm, öz əzablarım yuxudan oyadır məni...

...Yenə belə əmr verər, yenə belə edərdimmi? Mütləq ki, bəli. Yenə öldürərdik, yenə bu ölüm xəbərinə qonaqlıq verərdim, yenə də səhərə kimi ağlayardım...

Seçəcəyimiz ədəbi obrazlar

Cəmiyyətin hisslərini anlayıram və bu hissləri anlayışla qarşılamaq lazımdır. Müharibə sonrası həmişə müharibədən daha dəhşətli və ağrılı olur. Savaşdan yeni çıxmış bir xalq, əzizlərini şəhid vermiş analar, bacılar... Buz bağlamış ata sığalları, başdaşından boylanan sevgilər... nələr-nələr...

Yeni bir ağrılar yaşamamaq, bu gün haqlı durumdaykən haqsızlıqda ittiham olunmamaq üçün on illər sonranı da nəzərə almalıyıq ki, daha önəmlisi də elə budur. Dünya cəmiyyəti açıq bazardı. Onlara nəyi vaxtında və keyfiyyətli formada təqdim etdinsə, onu alacaqlar. Eləcə də informasiya bazarında. Həmçinin kinosundan ədəbiyyatına kimi.

Bu şanlı Vətən müharibəsində bizə iki obraz lazımdır. Daxili auditoriya və dünya auditoriyası üçün hesablanmış obrazlar.

Hər iki obraz bu müharibədə real olaraq mövcud oldu, fəaliyyət göstərdi və nümunələri kifayət qədərdi.

Daxili auditoriya üçün döyüşkən, düşmənə qan udduran, bir növ vurub-dağıdan obraz, dünya üçünsə döyüşsə də, bəşəri sevgiylə yaşayan, yeri gələndə düşmən olmasına baxmayaraq, ehtiyacı olan bir dinc sakini xilas edən, heyvanları, təbiəti qoruyan, incəsənət, mədəniyyət naminə çox şeydən, eləcə də öz təhlükəsizliyindən keçən Azərbaycan əsgəri, zabiti obrazı.

Nəzərə alsaq ki biz Qarabağ ermənilərinin bizimlə birgə yaşayışını qəbul etmişik, bizə belə obrazlar hava-su kimi lazım olacaq.

İndi bütün hisslər, düşüncələr isti başın, həyəcanlı qəlbin döyüntüləridir deyə, fərqində deyilik. Elə etməliyik ki, on il sonra başımıza döyməyək və ya erməni kinolarına, əsərlərinə niyə uduzduq, bütün bunlar necə baş verdi-deməyək.

Bundan sonrası, sözün əsl anlamında, ədəbiyyat, incəsənət, kino müharibəsidir. Zatən

qalib gəlmiş dövlətik, bu sahələrdə öz humanist görüntümüzlə də qalib gəlməyi bacarmalıyıq. Əsas döyüş meydanında qələbə idi ki, bu, mahiyyəti dəyişmir, istədiyimizə nail olmuşuq.

...İstər daxili, istərsə də dünya kütləsi üçün ideoloji xətləri dərhal müəyyənləşdirmək və əməli fəaliyyətə keçmək lazımdı. Burda isə əsas səngərlər ədəbiyyat-incəsənət və film sahəsidir.

Dünyanın bu baxımdan kifayət qədər incəsənət nümunələri var ki, insanın düşüncələrini dəyişdirməyə bəs edir.

Məsələn, adi "Pianoçu" filmindən kiçik fraqmentə toxunaq. Bütün soyqırımlarda, faciələrdə yada düşən, efirləri bəzəyən bir film. Yəhudi əzablarından bəhs etsə də, kiçik epizodlar alman zabiti vəhşi deyil-düşüncəsini yaradır. Ya da hamısı eyni deyil. Baxmayaraq ki, filmdə əsas qayə nasist vəhşiliyindən bəhs etmək, soyqırıma məruz qalanların ağrı dolu həyatını gözlər önünə gətirməkdir. Amma kiçik epizod alman xalqı, ordusu, zabitləri haqqında formalaşmış fikirləri dağıda bilir. Onun incəsənət adamını qorumasını, geyimini, yeməyini ona verməsi...

Daxili auditoriya üçün əlavə bəhs edəcəyəm, amma bu qeyddə bizə dünya bazarında lazım olan obrazdan danışdım.

Bütün bunları edərkən istər əsərlərdə, istərsə də filmlərdə dünyanı özünə güldürməmək, pafosdan uzaq, gerçək və səmimi olmaq lazımdır ki, bu barədə də yetərincə gerçək obrazlar var.

Yadıma düşmüşkən, mövzuya uyğun olaraq bir hadisəni qeyd edim. Döyüşdən yeni çıxmış bir XTQ zabitini Hadrutun Tuğ kəndində gördüm. Evlərdə yiyəsiz qalmış toyuq-cücələrə dən aparıb tökürdü:

"Heyvandılar, günahdı, ac qalmasın. Həm də onların ki milliyyəti yoxdu... " – deyirdi.

Bax belə, əzizlərim, gecikmək olmaz...

Nə qədər gec deyil, soyuq başla düşünməliyik…

SƏN AZADSAN!

(Savaş qazisinin dilindən şeir)

Saçımda anamın xınası,
yolların ayaqlarımçün duası,
gözlərimdə hələ bizim olmayan uzaqlıq
deyir:
Sən azadsan!
Sən azadsan!

Ayaqlarım cığırlara yalvarır:
Qarabağ,
biz sənin övladınıq,
ilk dəfə gördüyün övladlar,
uzağa at ayaqlarımızdan
qoynunda gizlətdiyin minaları.

Füzuli, Cəbrayıl, Hadrut cəbhəsi...
Burda ulduzlarla deyil,
hər minamyot mərmisiylə sayırıq
yarım qalan ümidləri,
anaların göz yaşını.
Bir döyüşçü sevgilisinin
bətnində ölən arzusunu.

Günlərdir danışmırıq.
bilirəm, narahatsan, ana,
bəlkə, gecələri ağlayıb,
şəklimlə ovunursan, ana.
Səni Füzulidən eşidirəm, ana,
səni Cəbrayıldan görürəm, ana,
sənə Şuşadan əl yelləyirəm, ana.

Formamda şəhid qardaşlarımın qanı,
gözlərimdə 44 gecənin yuxusuzluğu,
Qarabağ torpağıyla, palçığıyla
büsbütün vətənləşən bədənimiz
və
bizi gözləyən Azərbaycan
meydanlarda, ürəklərdə, gözləriylə hayqırır:
Sən azadsan!
Sən azadsan!

Fatimə Elçin qızı Həşimli - 2012-ci ildə doğulub. Hazırda 4-cü sinifdə oxuyur. Müxtəlif rəsm sərgilərində iştirak edib. Zəfər bayramına həsr olunmuş müsabiqədə Şuşa mövzusunda çəkdiyi şəkil ilk onluğa düşüb.

ISNN 0134-522
İNDEKS AZ 1000 2 AZN

ulduz_ayliq_edebiyyat_derqisi